Hər kəs ədalətli olacaq
www.adalet.az
# ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
İctimai-siyasi, hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 30 (6172) 14 avqust 2026-cı il
Qiyməti 40 qəpik

## Naxçıvan yeni geosiyasi və iqtisadi mərhələdə



Bax:səh-2

## DİN-dən vətəndaşlara onlayn alış-verişlə bağlı xəbərdarlıq




**DİN vətəndaşlara onlayn alış-verişlə bağlı xəbərdarlıq edib.**

Adalet.az xəbər verir ki, xəbərdarlıqda deyilir:

"Mütəmadi olaraq aparılan maarifləndirmə tədbirlərinə və edilən çoxsaylı xəbərdarlıqlara baxmayaraq, onlayn alış-veriş zamanı vətəndaşların kiberdələduzluqla üzləşməsi halları hələ də müşahidə olunur. Aparılan araşdırmalar və daxil olan müraciətlər göstərir ki, kiberdələduzlar saxta satış səhifələri yaradaraq müxtəlif məhsulları cəlbedici qiymətlərlə təklif edir, ödəniş alındıqdan sonra isə vətəndaşla əlaqəni kəsərək telefon nömrələrini və sosial şəbəkə hesablarını bloklayırlar.

Bu kimi halların qarşısının alınması məqsədilə vətəndaşlara internet və sosial şəbəkələrdə rastlaşdıqları satış səhifələrinin etibarlılığını əvvəlcədən yoxlamaq, tanımadıqları və etibar etmədikləri şəxslərdən məhsul sifariş etməmək, xüsusilə əvvəlcədən ödəniş tələb olunan təkliflərə qarşı diqqətli olmaq tövsiyə olunur. Məhsul sifariş etməzdən və ödəniş həyata keçirməzdən əvvəl satıcı barədə məlumatların, əlaqə vasitələrinin və təqdim olunan səhifənin həqiqiliyinin yoxlanılması vacibdir. Etibar etmədiyiniz və ya həqiqiliyinə əmin olmadığınız səhifə və saytlara ödəniş etməyin, bank kartı məlumatlarınızı, CVV/CVC kodunu, SMS vasitəsilə göndərilən təsdiq kodlarını və digər məxfi məlumatları üçüncü şəxslərlə paylaşmayın. Kiberdələduzluq halları ilə qarşılaşdıqda dərhal DİN-in "102" Xidməti-Zəng Mərkəzinə və ya Nazirliyin rəsmi sosial şəbəkə hesablarına müraciət edin".



Çingiz Əlioğlu Tanrı dərgahına köçdü. Allah rəhmət eləsin!

*Əbülfət MƏDƏTOĞLU*

## Alnında Ay doğan adamla vida söhbəti

Bax:səh-8

## Pezeşkian: "Azərbaycan müharibədə bizə kömək etdi"



**İran Prezidenti Məsud Pezeşkian Tehranın regional ölkələrlə münasibətlərinin yaxşılaşdığını bildirib. Adalet.az xəbər verir ki, o, xüsusilə Azərbaycanla əməkdaşlığı qeyd edib.**

Pezeşkianın sözlərinə görə, Bakı əvvəllər bir sıra marşrutları bağlamışdı və İran bankı da fəaliyyətini dayandırmışdı. Lakin danışıqlardan sonra vəziyyət dəyişdi.

"Biz zəng etdik və onlarla danışdıq. İki saatlıq söhbətdən sonra hər şey yenidən açıldı. Bank və səfirlik fəaliyyətini bərpa etdi və marşrutlar yenidən açıldı", - Pezeşkian bildirib.

İran Prezidenti müharibə zamanı Azərbaycanın köməyini də xüsusilə vurğulayıb.

"Müharibə zamanı Azərbaycan bizə müxtəlif marşrutlarda - istər Rusiyadan, istərsə də öz təchizatlarından - əhəmiyyətli dərəcədə kömək etdilər. Onlar ehtiyac duyduğumuz hər şeydə bizi müşayiət etdilər və bizə kömək etdilər", - deyə o bildirib.

## «Bir dənə də olsun istilik elektrik stansiyası qalmayıb»



**Rusiyanın hücumları səbəbindən Ukraynadakı demək olar ki, bütün istilik elektrik stansiyaları nasaz vəziyyətdədir və bu da qışdan əvvəl ciddi problemlər yaradır.**

Adalet.az xəbər verir ki, bunu Ukrayna Prezidenti Volodimir Zelenski bildirib.

O, Ukraynanın müharibənin bitməsi, ləyaqətli sülh və zəmanətli təhlükəsizlik üçün çalışdığını vurğulayıb. Zelenski qeyd edib ki, "Rusiya raketləri məhz ukraynalılar üçün həyatı dözülməz hala gətirmək üçün hədəflənib. Tərəfdaşlarımızla bütün enerji əməkdaşlıq layihələrimiz böyük əhəmiyyət kəsb edir. Ölkələrimiz arasında enerji əməkdaşlığını gücləndirməyin yollarının olması vacibdir".

## Kartlara mədaxil limitlərinə yenidən baxıla bilər




**"Limitlər bu və ya digər formada, müştərilərin risk profillərinə uyğun hər zaman tətbiq edilib və bu təcrübə digər dövlətlərdə də tətbiq edilir".**

Adalet.az xəbər verir ki, bunu kartlara mədaxil limitləri ilə bağlı apa-ya müsahibəsində Azərbaycan Banklar Assosiasiyasının (ABA) İcraçı direktoru Yunus Abdulov deyib. Onun sözlərinə görə, hazırkı umumi limitlər baza xarakterlidir və banklar öz risk qiymətləndirmələrə uyğun fərqli müştərilərə fərqli yanaşma tətbiq edirlər.

Y.Abdulov bildirib ki, ümumən, məqsəd rəqəmsal ödəniş ekosistemində risk əsaslı yanaşmanın tətbiqi, ekosistemin və onda təmsil olunan subyektlərin dayanıqlı və təhlükəsiz fəaliyyətinin təmin edilməsidir: "Bu əsasda qabaqcıl beynəlxalq təcrübədə tətbiq edilən və ekosistemin inkişaf tendensiyasına uyğun olaraq limitlərə yenidən baxılması, habelə alternativ tədbirlərin görülməsi istisna edilmir".

Xatırladaq ki, avqustun 1-dən etibarən Azərbaycanda ödəniş alətləri üzrə mədaxil əməliyyatlarına gündəlik və aylıq limitlərin tətbiqinə başlanılıb. Yeni yanaşmaya əsasən, hər bir ödəniş aləti üzrə gündəlik maksimum 5 mədaxil əməliyyatı həyata keçirilə bilər. Aylıq mədaxil limiti isə 20 min manat müəyyən edilib. Qeyd olunur ki, məhdudiyyət vəsaitin kartdan çıxarılmasına və kartdan-karta köçürmələrə şamil edilmir.

*Mirqiyas SEYİDSOYLU*

## EDƏMƏM TƏRK, FÜZULİ...

Bax:səh-10

## GÜNÜN LƏTİFƏSİ



Tibb bacısı əlində iynə palataya daxil olur:

**- Əliş dayı, oyan... xahiş edirəm oyan...**

Xəstə güclə şirin yuxudan ayılıb gözünü ovxalayır:

**- Nolub a bala, nə deyirdin?!**

**- Heç, yuxu iynəsi gətirmişəm, onu vurum, gedirəm.**

## İlham Əliyev Naxçıvan şəhərində sosial evlər kompleksinin təməlini qoyub




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 11-də Naxçıvan şəhərində 518 mənzildən ibarət sosial evlər kompleksinin təməlini qoyub.**

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb. Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına kompleksdə yaradılacaq şərait barədə məlumat verdi.

Bildirildi ki, Naxçıvan şəhərində çoxmənzilli yaşayış binalarının (güzəştli mənzillər) tikintisi üçün 5 hektara yaxın torpaq sahəsi ayrılıb. Kompleksdə 6 və 7 mərtəbəli 16 bina inşa ediləcək. Burada 93 birotaqlı, 37 ikiotaqlı, 351 üçotaqlı, 37 dördotaqlı olmaqla, ümumilikdə 518 mənzil olacaq.

Yaşayış Kompleksində sakinlərin rahatlığı üçün zəruri infrastruktur yaradılacaq. Burada uşaq bağçasının və digər iaşə obyektlərinin tikintisi nəzərdə tutulur. Kompleks elektrik enerjisi, qaz, su və çirkab sularının axıdılması sistemləri ilə təchiz ediləcək. Ərazidə yolların və səkilərin salınması, abadlaşdırma və yaşıllaşdırma işlərinin görülməsi nəzərdə tutulub.

Dövlətimizin başçısına Mənzil İnşaatı Dövlət Agentliyinin indiyədək icra etdiyi və nəzərdə tutulan layihələr barədə də məlumat verildi.

## Prezident səfirin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 13-də Almaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dirk Lölkeni qəbul edib.**

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Ötən ay Almaniyaya rəsmi səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı səfər zamanı Prezident Frank-Valter Ştaynmayer və Kansler Fridrix Merts ilə ikitərəfli əlaqələr və beynəlxalq məsələlər üzrə yaxşı müzakirələrin aparıldığını vurğuladı, ölkələrimizin regional sabitlik, təhlükəsizlik və inkişafla bağlı baxışlarının üst-üstə düşdüyünü qeyd etdi. Müzakirələr zamanı potensial əməkdaşlığın yeni sahələrinin müəyyənləşdirildiyini, bunların qarşılıqlı anlaşmaya və tərəfdaşlığımızın inkişafına gətirib çıxardığını deyən dövlətimizin başçısı Berlində izmalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"nin əhəmiyyətini vurğuladı, bunun münasibətlərimizi keyfiyyətcə üstün səviyyəyə qaldırdığını bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, bu gün biz artıq bir çox sahələrdə strateji qarşılıqlı əlaqələr haqqında danışırıq və ticarət, investisiyalar, biznes sahələrində mövcud olan imkanlar ikitərəfli əlaqələrimizi gücləndirir. Dövlətimizin başçısı səfirin Azərbaycanda fəaliyyətə onun Almaniyaya rəsmi səfərindən sonra başladığını vurğulayaraq, bunun ikitərəfli əlaqələrin gələcək inkişafı baxımından çox önəmli olduğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə minnətdarlığını bildirən Dirk Lölke ötən il avqustun 8-də Azərbaycanla Ermənistan arasında Vaşinqtonda keçirilmiş Zirvə Görüşünün birinci ildönümü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı öz növbəsində regionda sülh gündəliyinin məhz Azərbaycanın təşəbbüsü ilə başladığını, sülh gündəliyinin irəli aparılması üçün ölkəmizin səylərini bundan sonra da davam etdirəcəyini və bölgədə sülhün artıq dönməz olduğunu bir daha vurğuladı. Səfir Almaniya hökumətinin Prezident İlham Əliyevin səfərinin nəticələrindən çox məmnun olduğunu qeyd etdi. O, müzakirə olunmuş işlərin tezliklə icra ediləcəyinə ümidvarlığını bildirdi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər və son dövrlərdə bu əlaqələrin inkişafında müşahidə olunan müsbət dinamika vurğulandı. Həmçinin Şərq-Qərb nəqliyyat dəhlizi və Almaniya şirkətlərinin gələcəkdə bu marşrutun imkanlarından istifadə etmələri, ənənəvi və bərpaolunan enerji, eləcə də təhsil sahələrində əməkdaşlıq imkanlarına toxunuldu.

# Naxçıvan yeni geosiyasi və iqtisadi mərhələdə

**Prezident İlham Əliyevin avqustun 11-də Naxçıvana səfəri təkcə muxtar respublikada həyata keçirilən ayrı-ayrı layihələrin təqdimatı kimi deyil, Naxçıvanın Azərbaycanın yeni geosiyasi və iqtisadi arxitekturasındakı yerinin müəyyənləşdirilməsi baxımından qiymətləndirilməlidir. Səfərin proqramının enerji, sənaye, nəqliyyat, sosial infrastruktur, şəhərsalma, mədəni irs və müdafiə sahələrini eyni vaxtda əhatə etməsi göstərir ki, Naxçıvanın inkişafına artıq kompleks yanaşılır.**

Prezidentin səfər çərçivəsində Günəş Elektrik stansiyalarında görülən işlərlə tanış olması, Sənaye Parkının və yeni obyektlərin təməlini qoyması, dəmir yolu infrastrukturu və şəhərin 2044-cü ilədək Baş Planı ilə tanış olması bu yanaşmanın əsas istiqamətlərini ortaya qoydu.

Xüsusilə Naxçıvan Sənaye Parkının yaradılması Muxtar Respublikanın iqtisadi modelinin dəyişdirilməsi baxımından əhəmiyyətlidir. Uzun illər Naxçıvanın əsas problemlərindən biri coğrafi təcrid vəziyyətinin iqtisadi imkanları məhdudlaşdırması olub. Yeni regional reallıq isə Naxçıvanı qapalı iqtisadi məkan statusundan çıxararaq tranzit, istehsal və logistika mərkəzlərindən birinə çevirmək üçün imkan yaradır. Sənaye Parkının yaradılması yerli istehsalın genişləndirilməsi, yeni iş yerlərinin açılması, özəl investisiyaların cəlb edilməsi və ixracyönümlü müəssisələrin formalaşdırılması baxımından mühüm addımdır. Bu mənada məqsəd yalnız dövlət investisiyaları hesabına Naxçıvanın infrastrukturunu yeniləmək deyil, uzunmüddətli perspektivdə özəl sektorun və istehsalın daha böyük rol oynadığı dayanıqlı iqtisadi model yaratmaqdır.

Səfərin ən mühüm istiqamətlərindən biri nəqliyyat infrastrukturu ilə bağlı idi. Prezidentin dəmir yolu infrastrukturunda aparılan yenidənqurma işləri ilə tanış olması təsadüfi deyil. Cənubi Qafqazda kommunikasiyaların açılması və Azərbaycanla Naxçıvan arasında maneəsiz bağlantının yaradılması istiqamətində gedən proseslər fonunda muxtar respublikanın dəmir yolu sisteminin modernləşdirilməsi strateji əhəmiyyət qazanır. Naxçıvan gələcəkdə Azərbaycanın əsas ərazisini Türkiyə və daha geniş Avropa bazarı ilə birləşdirən nəqliyyat xəttinin mühüm halqasına çevrilə bilər. Beləliklə, Naxçıvanın əhəmiyyəti artıq yalnız Azərbaycanın ayrılmaz hissəsi olması ilə məhdudlaşmır; onun coğrafi mövqeyi Azərbaycan-Türkiyə bağlantısı, Orta Dəhliz və bütövlükdə Şərq-Qərb nəqliyyat sistemində əlavə strateji dəyər yaradır.



Enerji layihələri də bu strategiyanın başqa mühüm sütununu təşkil edir. "Şəms 1" və "Qərbi Üfüq" Günəş Elektrik stansiyalarında görülən işlər Naxçıvanın yaşıl enerji potensialının praktik iqtisadi resursa çevrilməsi xəttini göstərir. Muxtar respublikanın günəş enerjisi potensialı və Türkiyə ilə birbaşa sərhədə malik olması gələcəkdə burada istehsal edilən yaşıl enerjinin yalnız daxili tələbat üçün deyil, ixrac məqsədləri üçün də istifadəsi perspektivini gücləndirir. Bu, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi yaşıl enerji siyasətinin Naxçıvan istiqamətində də genişləndirilməsi deməkdir. Nəticədə ölkənin müxtəlif bölgələrində yaradılan enerji infrastrukturları vahid milli və perspektivdə regional enerji sisteminin elementlərinə çevrilə bilər. Prezidentin "Naxçıvan şəhərinin 2044-cü ilədək inkişafına dair Baş Plan"la tanış olması isə prosesin yalnız cari layihələrlə məhdudlaşmadığını göstərir. Söhbət təxminən iki onilliyi əhatə edən şəhərsalma və inkişaf perspektivindən gedir.

Yeni sosial evlərin, mehmanxana kompleksinin, elektrik mühərrikli avtobusların və DOST Mərkəzinin gündəmə gətirilməsi iqtisadi inkişafla yanaşı, həyat keyfiyyətinin yüksəldilməsinə hesablanmış sosial modernləşmə xəttini nümayiş etdirir. Başqa sözlə, Naxçıvan üçün nəzərdə tutulan model təkcə yolların, enerji obyektlərinin və sənaye müəssisələrinin yaradılması deyil, müasir şəhər mühitinin, sosial xidmətlərin və yeni məşğulluq imkanlarının paralel şəkildə formalaşdırılmasıdır.

Səfərin mədəni komponenti də xüsusi siyasi məna daşıyır. Möminə xatun türbəsində aparılan bərpa işləri ilə tanışlıq və Əcəmi Naxçıvaninin abidəsinin açılması Naxçıvanın modernləşdirilməsinin onun tarixi-mədəni kimliyinin qorunması ilə paralel aparıldığını göstərir. Naxçıvan Azərbaycan dövlətçilik tarixində xüsusi yer tutur və burada yerləşən tarixi abidələrin bərpası həm milli irsin qorunmasına, həm də regionun turizm potensialının artırılmasına xidmət edir. Yeni mehmanxana və şəhər infrastrukturu layihələri ilə tarixi-mədəni obyektlərin bərpasının eyni proqram daxilində yer alması gələcəkdə Naxçıvanın turizm imkanlarının da iqtisadi inkişafın mühüm istiqamətlərindən birinə çevriləbiləcəyini göstərir.

Digər mühüm məqam səfərin hərbi-təhlükəsizlik komponentidir. Prezident İlham Əliyevin Əlahiddə Ümumqoşun Orduda yeni yaradılmış komando hərbi hissələrinə Döyüş bayraqlarının verilməsi mərasimində iştirakı Naxçıvanın strateji təhlükəsizlik baxımından əhəmiyyətini bir daha nümayiş etdirdi. Naxçıvan Türkiyə, İran və Ermənistanla həmsərhəddir və son illərdə regionda yaranmış yeni geosiyasi vəziyyət fonunda onun müdafiə qabiliyyətinin yüksək səviyyədə saxlanılması Azərbaycanın milli təhlükəsizlik strategiyasının mühüm elementidir. İnfrastruktur və iqtisadi layihələrlə paralel olaraq hərbi potensialın modernləşdirilməsi Bakının Naxçıvana yanaşmasının üç əsas xəttini - inkişaf, bağlantı və təhlükəsizliyi - eyni strateji çərçivədə birləşdirdiyini göstərir.

Bütövlükdə, Prezident İlham Əliyevin Naxçıvan səfərinin əsas siyasi mesajı muxtar respublikanın yeni regional şəraitə hazırlanmasıdır. Azərbaycan Cənubi Qafqazda müharibədən sonrakı mərhələdə nəqliyyat kommunikasiyalarının açılması, regional iqtisadi inteqrasiya və yeni logistika xətlərinin formalaşdırılması istiqamətində siyasət yürüdür. Bu proseslərin irəliləməsi Naxçıvanın əvvəlki coğrafi məhdudiyyətlərini strateji üstünlüyə çevirə bilər. Naxçıvan Azərbaycanı Türkiyə və Avropa istiqamətinə bağlayan qovşağa, yaşıl enerji istehsalçısına, yeni sənaye və logistika məkanına çevrilmək potensialına malikdir. Buna görə də səfər zamanı elan edilən və icrası yoxlanılan layihələr ayrı-ayrı tikinti və infrastruktur təşəbbüsləri deyil, Naxçıvanın Azərbaycanın ümumi iqtisadi, nəqliyyat və təhlükəsizlik sisteminə daha sıx inteqrasiyasını nəzərdə tutan uzunmüddətli strategiyanın tərkib hissəsi kimi qiymətləndirilməlidir.

**Sübhan**

# "TRİPP Zəngəzur dəhlizi reallığa çevrilməkdədir"

**"ABŞ dövlət katibi Marko Rubionun dünən (8 avqust) verdiyi bəyanatda deyilir ki, Amerika hökuməti Cənubi Qafqaz və Orta Asiyada Transxəzər Ticarət Marşrutu (Orta Dəhliz) boyunca özəl sektor investisiyalarının təşviqi üçün fonda 201 milyon dollar vəsait ayırıb. Bu, o deməkdir ki, artıq TRİPP (orta dəhliz) layihəsi reallaşmağa başlayır".**



Adalet.az xəbər verir ki, bunu siyasi şərhçi Qulu Məhərrəmli deyib. "Bir il əvvəl ABŞ prezidenti D.Trampın ev sahibliyi ilə Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Ağ Evdə bir araya gəlmişdilər. Onların imzaladığı Birgə Bəyannamədə Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu - TRIPP təşəbbüsü yer almışdı. Bu marşrut Azərbaycanı Naxçıvan eksklavı ilə Ermənistanın cənubundan keçməklə birləşdirməlidir.

Azadlıq radiosu ABŞ-nin dövlət katibi M.Rubioya istinadən bildirir ki, son bir ildə Birləşmiş Ştatlar bu təşəbbüsü reallaşdırmaq üçün Ermənistan və Azərbaycanla çiyin-çiyinə çalışıb: "Dəmir yollarını, avtomobil yollarını, enerji və rəqəmsal infrastrukturu modernləşdirəcək multimodal tranzit marşrutu olan TRIPP artıq reallığa çevrilmək üzrədir".

Ermənistanla ABŞ-nin iyunun əvvəlində imzaladığı sazişə əsasən ABŞ-Ermənistan birgə müəssisəsi yaradılacaq və o, Ermənistan-İran sərhədi boyunca inşa ediləcək dəmir və avtomobil yollarını, enerji xətlərini, eləcə də digər infrastruktur obyektlərini ən azı 49 il müddətinə idarə etmək hüququ qazanacaq. "TRIPP Development Company"nin (TDC) 74 faiz payı ABŞ hökumətinə məxsus olacaq", - deyə o bildirib.

# "Türkiyə-Səudiyyə Ərəbistanı-Pakistan ittifaqı İrandakı rejimə də ciddi mesajdır"

**"Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistan arasında Məkkə Sazişi imzalanıb. Bu sazişə, alyansın hər hansı bir üzvünə edilən hücum sazişin bütün tərəflərinə edilən hücum kimi qiymətləndiriləcək. Eyni zaman kəsiyində İsrail-Yunanıstan-Kipr Respublikası-Hindistan ittifaqı formalaşdırılır. Ona görə də Ankara Səudiyyə Ərəbistanı və Pakistanla birgə üçlü ittifaqın formalaşdırılmasını ləngidə bilməzdi. Səudiyyə Ərəbistanı ilə Pakistan arasında müttəfiqlik sazişi ötən ilin sentyabrında imzalanıb".**



Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. O, bildirib ki, Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman və Pakistanın baş naziri Şahbaz Şərif arasında imzalanan sənəd "Birgə Strateji Müdafiə Sazişi" adlanır: "Həmin sazişdə də "tərəflərdən birinə qarşı hər hansı bir hücum hər iki ölkəyə qarşı hücum kimi qiymətləndiriləcək" bəndi var. Buna baxmayaraq, İran Səudiyyə Ərəbistanına zərbələr endirdikdə Ər-Riyad İslamabaddan dəstək istəmədi. Əksinə, Pakistan müharibəni dayandırmaq vasitəsilə ABŞ-la İran arasında vasitəçilik funksiyasını həyata keçirtdi. Hər halda Türkiyə-Səudiyyə Ərəbistanı-Pakistan ittifaqı İrandakı rejimə də ciddi mesajdır ki, bu ölkələrdən birini hədəf seçərsə o biri ikisi baş verənlərə seyrçi qalmayacaq.Türkiyə Azərbaycanın strateji müttəfiqi, Səudiyyə Ərəbistanı və Pakistan isə strateji tərəfdaşlarımızdır. Bu mənada Azərbaycan üçlü ittifaqa qoşula bilərmi? Bu mümkün olsaydı, üçlü ittifaqa Azərbaycan bəri başdan dəvət olunardı. Üçlü ittifaqın İsrailə münasibəti bəllidir. Azərbaycan isə İsraillə əməkdaşlığı davam etdirmək siyasətinə üstünlük verir. Ona görə də Azərbaycanın üçlü ittifaqa qoşulması problematikdir, bunu bilən Ankara, Ər-Riyad və İslamabad ölkəmizi seçim qarşısında qoymayıb".

**Sübhan**

# «Ermənistanın bu prosesi uzatması müxtəlif səbəblərdən qaynaqlanır...»

**"2025-ci il 8 avqust tarixli Vaşinqton görüşündən bir il keçdi. Azərbaycan Prezidenti İlham Əliyev ABŞ prezidenti Donald Tramp və Ermənistanın baş naziri Nikol Paşinyanla birlikdə Vaşinqtonda mühüm siyasi sənədə - Vaşinqton Bəyannaməsinə imza atdı. Eyni zamanda Azərbaycan və Ermənistan xarici işlər nazirləri sülh və dövlətlərarası münasibətlərin təsis olunmasına dair razılaşdırılmış saziş mətnini parafladılar. Azərbaycan və ABŞ isə Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün Anlaşma Memorandumu imzaladılar".**

Adalet.az xəbər verir ki, bunu politoloq Qulamhüseyn Əlibəyli deyib.

Onun sözlərinə görə, bu hadisələrin hər biri ayrı ayrılıqda mühüm olmaqla regionun geosiyasi taleyində yeni bir mərhələnin - sülh prosesinin, yeni təhlükəsizlik arxitekturasının, regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün Azərbaycanla Ermənistan arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının, Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının - Zəngəzur dəhlizinin açılmasının əsası qoyuldu: "Eyni zamanda Azərbaycan - ABŞ münasibətlərində strateji yaxınlaşmaya keçidin başlanğıcı oldu. Bütövlükdə Vaşinqton görüşünün ən mühüm geosiyasi yekunu Güney Qafqazda münaqişə dövrünün başa çatmasının və postmünaqişə dövrünün başlanmasının, regionun gələcək siyasi, təhlükəsizlik, iqtisadi və kommunikasiya xəritəsinin formalaşmasın rəsmi təsdiqi oldu. Ötən bir il müddətinə Ermənistanın Baş naziri Nikol Paşinyan və yüksək çinli başqa erməni rəhbərləri beynəlxalq tribunalarda sülhə hazır olduqlarını, regionda sabitliyin, kommunikasiyaların açılmasının, qonşularla münasibətlərin normallaşması vacibliyini dəfələrlə sözdə bəyan etsələr də, bunlara nail olmaq üçün əsas maneəni aradan qaldırmaq üçün konkret praktiki addım atmayıblar. Sülhə vaxtaşırı verilən bəyanatlarla deyil, qəbul edilən konkret qərarlarla nail olmaq mümkündür".

Q.Əlibəyli bildirib ki, lakin bugünkü reallıq onu göstərir ki, problem sülh müqaviləsinin mətnində deyil, sülh prosesini başa çatdırmaq üçün Ermənistan hakimiyyətinin siyasi iradəsinin yetərincə olmamasındadır: "Məlumdur ki, paraflanmış sülh müqaviləsinin imzalanmasına yeganə maneə Ermənistan konstitusiyasıdır, bu konstitisiyada Azərbaycana və Türkiyəyə qarşı qarşı ərazi iddialarına hüquqi əsas yaradan müddəalar. Ona görə də Azərbaycan tərəfi həmin müddəaların Ermənistan konstitusiyasından çıxarılmasını sülh müqaviləsinin imzalanmasının yeganə şərti kimi irəli sürüb və bu məsələdə mövqeyinin dəyişilməz olduğunu dəfələrlə aşıq şəkildə bildirib. Ermənistan rəhbərliyi də 2025-ci il 8 avqust tarixli Vaşinqton Bəyannaməsi ilə sülh müqaviləsinin imzalanmasına mane olan bütün halların tezliklə aradan qaldırılması, o cümlədən Konstitusiyadakan ərazi iddiaları haqqında müddəaların çıxarılmasını öz üzərinə beynəlxalq xarakterli öhdəlik kimi götürüb. Lakin hadisələrin gedişi göstərir ki, Ermənistan rəhbərliyi konstitusiya dəyişikliyinin vacibliyini qəbul etsə də, bu dəyişikliklərin həyata keçirilməsi proseduruna praktiki başlamağa tələsmir və ümumiyyətlə bu işə hələ hazır deyil. Ermənistan rəhbərliyi keçən ilin sonlarında yeni konstitusiya layihəsinin bu ilin mart ayında ictimai müzakirəyə təqdim olunacağını bildirsə də, deyilən vaxtda layihə müzakirəyə təqdim olunmadı və məsələ bu ilin sonlarına saxlanıldı".



Politoloq deyib ki, Ermənistan rəhbərliyinin bu tərəddüdü və prosesi uzatması müxtəlif səbəblərdən qaynaqlanır:

"Əsas səbəb daxili siyasi vəziyyətlə bağlıdır. Son parlament seçkiləri göstərdi ki, Ermənistan cəmiyyətində və siyasi cameəsində sülhü qəbul etmək istəməyən revanşist qüvvələr hələ kifayət qədər hüfuza malikdir və sülh prosesinə mane ola bilər. Paşınyan hakimiyyətinin tərəfdarları parlamentdə nisbi çoxluğa malikdirlər, yeni hökumət təşkil olunsa da konstitusiyanın qəbuluna dair referendum təyin etmək üçün tələb olunan mütləq səs çoxluğuna malik deyil. Paşinyan hökuməti revanşist qüvvələrin təzyiqini və cəmiyyətin həmin qüvvələri müdafiə edən kəsimini nəzərə almağa məcburdur.İkinci səbəb xarici amillərlə bağlıdır. Ermənistan hələ də böyük güclər arasında manevr siyasətini davam etdirir və regionda formalaşmış geosiyasi vəziyyətin dəyişəcəyinə ümid edən dairələr hakimiyyət daxilində də mövcuddur. Ermənistan bir sıra sahələrdə Rusiyadan asılılığı və Rusiyanın Ermənistan hakimiyyətinə təzyiqləri, habelə Zəngəzur dəhlizinəqarşı çıxan İranın təzyiqləri birmənalı qəti qərarların qəbulunu çətinləşdirir və vaxtın uzadılmasına gətirib çıxarır. Vaxtın uzadılması da cəmiyyətin məlim kəsimində, revanşist müxalif siyasi qüvvələrdə və hakimiyyət daxilindəki bəzi qüvvələrdə belə bir ümid yaranır ki, beynəlxalq şərait dəyişdikcə Azərbaycan üzərində əlavə diplomatik təzyiq formalaşdırmaq və konstitusiya dəyişikliyi etmədən sülh müqaviləsini imzalamaq mümkün olar. Bu baxımdan sülh prosesini uzadaraq bir növ vaxt qazanmaq Ermənistan diplomatiyasının əsas taktikasına çevrilmiş kimi görünür.Sülh sazişinin imzalanmasının uzanması ilk növbədə Ermənistanın özünün iqtisadi maraqlarına zərbə vurur. Regional kommunikasiyaların açılması gecikir, investorlar gözləmə mövqeyi tutur, Güney Qafqaz isə hələ də risk zonası kimi qəbul edilir".

O, deyib ki, Azərbaycan isə bu müddətdə prinsipial mövqeyini dəyişməyib:

"Bakı dəfələrlə bəyan edib ki, sülh sənədinin imzalanmasına hazırdır. Lakin eyni zamanda bildirir ki, sülhün qalıcı olması üçün gələcəkdə yeni ərazi iddiaları üçün əsas ola bilən, mümkün hüquqi mübahisələr yarada bilən boşluqlar qabaqcadan aradan qaldırılmalıdır. Bu yanaşma beynəlxalq hüquq baxımından başadüşüləndir. Çünki sülh sazişi Paşinyan hakimiyyəti ilə deyil, Ermənistan dövləti ilə bağlanır, yalnız bu günü deyil, gələcək onillikləri də tənzimləməlidir; buna görə də müqavilə mövcud hakimiyyətlə bağlansa da bütövlükdə Ermənistan dövləti və cəmiyyəti tərəfindən qəbul edilməlidir.Azərbaycan sülh müqaviləsinin imzalanması və sülhün qalıcı olması üçün zəruri olan hər şeyi edib. Lakin bununla belə Ermənistanın tərəddüdlərinə son qoymaq, müqavilənin imzalanması prosesini sürətləndirmək üçün Ermənistana beynəlxalq diplomatik və ictimai təzyiqləri artırmaq olar.

Bu mənada beynəlxalq diplomatiya və informasiya məkanında sülhün gecikməsinin haradan qaynaqlandığını daha fəal şəkildə gündəmdə saxlamaq, hüquqi arqumentlərini daha sistemli təqdim etmək, Ermənistanın hansı öhdəlikləri yerinə yetirmədiyini faktlarla müntəzə şəkildə izah etmək üçün əlavə tədbirlər görmək olar. Beynəlxalq diplomatiyada və informasiya məkanında haqlı olmaq vacibdir, amma haqlı olduğunu dünya ictimaiyyətinə qəbul etdirmək daha vacibdir".

**Vasif**

*Rüstəm Hacıyev*



# "İt motal məsələsi"

**Ermənistanın baş naziri Nikol Paşinyan rəsni şəkildə bəyan edir ki, ölkəsi hələ Avropa İttifaqına üzlüyə qəbul olunması üçün bu quruma ərizə ulə müraciət etməyib. Ona görə də, Ermənistanda üzvlüklə bağlı referendum keçirilməsi üçün əsas yoxdur.**

**Rusiya prezidenti və ətrafı elə dirəşiblər ki, yox mütləq referendum keçirməlisiniz. İndi də, Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin bəyan edir ki, Nikol Paşinyan seçkilər ərəfəsində bir-birinə zidd diametral bəyənatlar verib. Qaluzinin sözlrinə görə, Paşinyan gah Avropa İttifaqına üzv olmağa çalışacağını, gah da oqurumda onları heç kimim gözləmədiyini bəyan edib.**

**Rusiya xarici işlər nazirinin müavininin sözlərinə görə, Ermənistan Konstitusiyasının 295- ci maddəsunə görə, hər hansı bir quruma üzv olmaq təşəbbüsü hökumət tərəfindən irəlu sürülür. Lakin, erməni tərəfi iddia edir ki, bu qanun Avropa İttifaqına üzvülüklə bağlı referendum keçirilməsinə ehtiyac duymur, çünki bu siyasi deklarasiyadır.**

**Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko, Ermənistan parlamentinin sədri Ruben Rubinysnla görüşündə, "Ermənistanın Avropa İttifaqına üzvülüyə can atması dövləti məhvə aparacaq"- deyə bildirırək, açıq təhdid etməkdən belə çəkinməyib.**

**Belə yerdə, "it motal" məsəli yada düçür. Paşinyan deyir, "hələ cavabı bilinməyən suallar çoxdur, heç hara, heç kimə rısmi müraciət etməmişik", Putin dirəşir ki, get referendum keçir".**

# "Yekun sülh müqaviləsi yaxın perspektivdə mümkündür"



**"Azərbaycanla Ermənistan arasında Yekun sülh müqaviləsinin imzalanması üçün Ermənistan Konustitusiyasından ərazi iddiaları çıxarılmalıdır. Təbii ki, yeni Konustitusiya Müstəqillik Bəyannaməsinə istinad olunmayacaq. Ermənistan hakimiyyəti 200 min imza yığıb parlamentdən yan keçərək referendum keçirməlidir, yaxud bir neçə müxalifət partiyanın deputatlarının səsini almalıdır".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

"Nikol Paşinyan çalışacaq ki, bir neçə deputatın səsini alsın. Bunun üçün hökumətin əlində müəyyən təzyiq etmə rıçaqları var.Hazırda Ermənistan Konstitusiyası yenidən yazılıb və hazırdır. Bakı və Yerevan Yekun sülh müqaviləsinin nə vaxt imzalanacağı tarixini müəyyənləşdirib. N.Paşinyan konstitusiya referendumunun keçirilməsində də problem görmür. Ona görə də Azərbaycan və Ermənistan arasında normal münasibətlər sistemi qurulur. Yekun Sülh müqaviləsi Qəbələ imzalanması mümkündür", - deyə o, bildirib.

# "İranda baş qərargah rəisi kifayət qədər təhlükəli vəzifəyə çevrilib



**"Son 14 ayda İran'da iki dəfə baş qərargah rəisləri öldürülüb. General leytenant Məhəmməd Baqeri keçən ilin iyun ayında, onun xələfi general-leytenant Əbdülrəhim Musəvi isə bu ilin fevralında İsrail və ABŞ hücumları zamanı öldürülüb".**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib. "İndi isə İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifəsinə SEPAH generalı Əli Əbdüllahi təyin edilib.Əgər Əbdüllahi də sələfləri kimi özünü qoruya bilməsə, onu digər SEPAH generalı Kayumərs Heydari əvəz edəcək. İranda baş qərargah rəisi kifayət qədər təhlükəli vəzifəyə çevrilib. Özünü, ətrafını, ölkə rəhbərliyini və ölkənin əsas hərbi beyin mərkəzi olan baş qərargahını qoruya bilməyənlər, 93 milyon əhalinin və onun yaşadığı böyük bir ərazini necə qoruya bilər?",- deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**



Səxavət Məmməd

# "Düşünən beyinlər"

*İsrail Milli Təhlükəsizlik Tədqiqatları İnstitutu (INSS) İran və İsrail arasında baş verən müharibə ilə bağlı hesabat yayımlayıb. Hesabatda diqqət çəkən əsas məqamlardan biri General Yəhya Rəhim Səfəvi haqqında yazılanlardır. İsrailli mütəxəssislər Rəhim Səfəvinin İran ordusundakı yerini, ölkənin müdafiə qabiliyyətinin artırılmasını və onun müharibələrə yanaşmasını ön plana çıxarıblar.*

*Ümumiyyətlə, İranın hazırkı hərbi doktrinasının müəllifi Rəhim Səfəvidir. Səfəvi İranın hərbi strategiyasını kökündən dəyişərək "Asimmetrik Müdafiə və Çəkindirmə" (Mosaic Defense - Mozaik Müdafiə) konsepsiyasını işləyib hazırlayıb. Bu gün SEPAH-ın həyata keçirdiyi mozaik müdafiə strategiyasının müəllifi odur. O, bu ideyanı Şah Abbas dövründən götürərək müasir dövrə uyğunlaşdırdığını iddia edir.*

*Hesabatda qeyd olunub ki, o, olası bir ABŞ və ya İsrail hücumu zamanı Tehranla əlaqə kəsilərsə, İranın 31 əyalətindəki SEPAH bölmələrinin müstəqil müharibə aparmasını nəzərdə tutan əyalət komandanlıqları sistemini qurdu və tətbiq etdi.*

*Öncə mozaik müharibə anlayışına baxaq. Bu, ABŞ-ın Müdafiə Qabaqcıl Tədqiqat Layihələri Agentliyi (DARPA) tərəfindən konseptuallaşdırılmış, müasir və gələcək döyüş meydanlarında tətbiq edilən yeni hərbi strategiya konsepsiyasıdır. DARPA-nın "Mosaic Warfare" konsepti daha çox yüksək texnologiyalı, kəşfiyyat-rabitə şəbəkəsinə söykənən hücum/əməliyyat modelidir. İranınki isə daha çox resurs azlığı və hava üstünlüyünün olmaması səbəbindən məcburi mərkəzsizləşdirilmiş müdafiə modelidir.*

*Məqsəd fərqli platformaları (dronlar, idarə olunan sistemlər, peyklər, radar və kəşfiyyat vasitələri) tək bir mərkəzə bağlı, böyük və baha başa gələn sistemlər kimi deyil, mozaikanın kiçik və bir-birini əvəz edə bilən hissələri kimi inteqrasiya etməkdir. Məsələ ondadır ki, bu sistem ABŞ-ın ideyası olsa da, müharibədə onu uğurla tətbiq edən İran oldu.*

*Gələcəyin müharibələri hazırda böyük dövlətləri düşündürən əsas məsələlərdən biridir. Con Antal (John Antal) "Next War" kitabında ABŞ-ın gələcəyin müharibələrinə hazır olması və bu müharibələrin xarakteri barədə geniş yazır. Diqqət çəkən məqamlardan biri də kitabın ön sözünü yazan ABŞ Senatının Silahlı Qüvvələr Komitəsinin üzvü, senator Mayk Raundsun (Mike Rounds) qeydləridir. Senator bildirir ki, Con Antal ona İkinci Dağlıq Qarabağ müharibəsi (44 günlük Vətən Müharibəsi), onun müharibənin gələcəyinə dərin təsiri və inkişaf edən hərbi texnologiyalar barədə məlumatlar verib və bu məlumatlar rəqiblərdən bir addım öndə qalmaq üçün nə etməli olduqlarını göstərib. Kitabda razılaşmadığım məqamlar olsa da, ən dəqiq diaqnoz elə ilk cümləsində qoyulub: "Düşünən qazanır". "Düşünən beyin" konsepsiyasını anlamaq üçün hesab edirəm, regionun hərbi tarixinə göz gəzdirmək kifayətdir.*

*İranın apardığı müharibədə açıq şəkildə görünür ki, bu strategiyanın arxasında düşünən beyin(lər) durur.*

*Sual yarana bilər: niyə görə Rəhim Səfəvi Şah İsmayıl və ya Şah Təhmasib dövrünü deyil, məhz Şah Abbasın dövründəki sistemi götürərək müasirləşdirib və İran ordusuna tətbiq edib? Professor, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik Mehman Süleymanovun Səfəvilərlə bağlı yazdığı kitablarda, xüsusilə "Şah Abbas" əsərində bu sualların cavabını tapmaq asandır. Təbii ki, Səfəvilər və Qızılbaşlarla bağlı digər kitabları mütaliə etmək də məsələyə aydınlıq gətirməyə kömək edir.*

*Şah İsmayılın müharibələrə yanaşması birbaşa güc üzərində qurulmuşdu. Yəni Şah İsmayılın hərbi gücü xarizmatik liderlik, dini-ideoloji birlik (Qızılbaşlıq) və əsasən Qızılbaş tayfa süvarilərinin fiziki/mənəvi cəsarətinə söykənirdi. Bunun zəif tərəfi yüksək texnologiyaya (dövrün odlu silahlarına) qarşı çevik olmaması və ən əsası, tam olaraq mərkəzə/liderə bağlılığı idi. Mərkəzi güc sarsılan kimi sistem ciddi böhrana düşürdü. Şah İsmayılın yanaşması - eynən Nadir şahda olduğu kimi - dayanıqlı dövlət mexanizmi qurmağa yetmirdi.*

*Şah Abbas isə müharibəyə və orduya tamamilə fərqli yanaşma gətirdi. O, indi adına "Asimmetrik Müdafiə və Çəkindirmə", qısacası "Mozaik Müharibə" dediyimiz sistemi "Şaxələndirmə və Adaptasiya" formasına saldı. Şah Abbas Çaldıranın və ondan sonrakı daxili xaosun dərslərini çox yaxşı təhlil edərək, monolitik tayfa gücünə bel bağlamağın fəlakət olduğunu anladı və hərbi-inzibati strukturu tamamilə yenilədi.*

*O, yalnız Qızılbaş süvarilərinə bağlı qalmadı; tüfəngçilər, topçular və qulamlar kimi yeni və bir-birini tamamlayan hərbi qollar yaratdı. İmperiyanın müxtəlif əyalətlərində yerli müdafiə və hərbi resurs mərkəzləri formalaşdıraraq ordunun tək bir mənbədən asılılığını azaltmış oldu.*

*Şah Abbas Osmanlı kimi nəhəng imperiya ilə qarşılaşanda açıq meydan döyüşlərindən qaçır, "yandırılmış torpaq" taktikası, sürətli manevrlər, təchizat zəncirini kəsmə və mühasirə müharibələri ilə düşməni tükəndirirdi. Eynən indiki İranın apardığı müharibə kimi.*

*İran bu sistemə nə vaxt keçdi? Faktlar da onu deməyə əsas verir ki, dönüm nöqtəsi 2003-cü ildə ABŞ-ın İraqa müdaxiləsi zamanı Səddam Hüseyn ordusunun sürətli süqutunun müşahidə edilməsi oldu. Bağdaddakı mərkəzi komandanlıq sıradan çıxan kimi bütün İraq ordusu iflic vəziyyətinə düşdü. İran hərbi strateqləri anladılar ki, ABŞ kimi konvensional və texnoloji baxımdan qat-qat üstün bir güclə mərkəzləşdirilmiş (vertikal) şəkildə döyüşmək intihardır. Nəzəriyyəçi və strategiya müəllifi kimi Yəhya Rəhim Səfəvinin (və onunla birgə Məhəmməd Əli Cəfərinin) işləyib hazırladığı "Mozaik Müdafiə" modeli ilə İran ərazisi 31 əyalətə bölündü. Hər bir əyalətdə özü-özünü təmin edə bilən müstəqil SEPAH komandanlığı və ona bağlı "Bəsic" qüvvələri quruldu.*

*Mərkəzlə (Tehranla) rabitə kəsilsə və ya ali komandanlıq başsız qalsa belə, hər bir əyalət korpusu müstəqil qərar verərək müqaviməti və hücumları davam etdirmək yetkisinə sahibdir.*

*Şah Abbas Osmanlı ordusu kimi nəhəng, ağır artilleriyalı və çoxsaylı qüvvə ilə açıq meydanda (Çaldıran ssenarisində) qarşılaşmağın fəlakət olduğunu bilirdi. O, Osmanlı ordusu Cənubi Qafqaz və Təbriz istiqamətində irəlilədikcə geri çəkilir, geridəki bütün ərzaq, su və yem ehtiyatlarını məhv edirdi. Düşmən imperiyanın dərinliklərinə nüfuz etdikcə logistik zənciri uzanır, aclıq və xəstəlikdən ordu döyüşməmişdən əvvəl sıradan çıxırdı.*

*Müasir mozaik müdafiədə isə şəhər, dağlıq relyef və dəniz coğrafiyası "yandırılmış torpaq" effektini vermək üçün istifadə olunur. Modern modeldə düşməni fiziki aclıqla deyil, "informasiya və resurs aclığı" ilə çökdürürlər. Düşmən qüvvələri ölkənin və ya regionun dərinliklərinə irəlilədikcə, 31 avtonom əyalətdən və ya gizli bunkerlərdən gələn gözlənilməz asimmetrik həmlələrə qarşı hücum xətlərini qorumaq üçün böyük resurslar xərcləməyə məcbur olur.*

*Şah Abbas dövründə Səfəvi yüngül süvari dəstələri (qorçular və əyalət tüfəngçiləri) Osmanlının əsas döyüş qüvvələri ilə toqquşmur, yalnız onların arxa cəbhəsini, təchizat karvanlarını və kəşfiyyat dəstələrini hədəf alırdı. Bu, Osmanlının "logistik mərkəzini" iflic edirdi.*

*Müasir mozaik müdafiədə isə hərbi dəniz və hava logistikasını hədəf almaq üçün ucuz kamikadze dronlar (Shahed), gəmi əleyhinə raketlər və dəniz katerləri işə düşür. Məsələn, Hörmüz boğazında və ya Qırmızı dənizdə (Husi nümunəsində) bahalı hərbi və ticarət gəmilərinə ucuz dronlarla hücum etmək düşmənin təchizat zəncirini və iqtisadi dözümlülüyünü birbaşa sıradan çıxarır.*

*Şah Abbasın strategiyası İstanbul sarayında və ordu komandanlığında "bu müharibə çox baha başa gəlir və heç bir nəticə vermir" düşüncəsini yaratmaq idi. Uzun sürən, böyük qələbə ilə nəticələnməyən və yüksək xərc tələb edən yürüşlər Osmanlıda yeniçəri qiyamlarına və nəticədə 1639-cu il Qəsri-Şirin müqaviləsinə (sabit sülhə) gətirib çıxardı.*

*Müasir mozaik müdafiədə də bunu görə bilirik. Bu gün asimmetrik aşınmanın maliyyə nisbəti inanılmaz dərəcədə qeyri-mütənasibdir. 20.000 dollarlıq bir dronu vurmaq üçün qarşı tərəf 2-4 milyon dollarlıq hava hücumundan müdafiə raketindən (məsələn, Patriot və ya THAAT) istifadə etmək məcburiyyətində qalır. Şah Abbasın Osmanlı xəzinəsini tükəndirdiyi kimi, Mozaik Müdafiə də modern supergüclərin hərbi-sənaye kompleksini və büdcəsini iqtisadi baxımdan aşındırır. Faktiki olaraq ABŞ-də də son zamanlar ən çox müzakirə olunan məsələlərdən biri də bu müharibənin yaratdığı maliyyə itkiləri, iqtisadi ziyan və digər məsələlərdir.*

*Hər iki modelin kökündə duran əsas prinsip eynidir: səbr, resurslara qənaət və düşmənin öz ağırlığı altında əzilməsini təmin etmək. Şah Abbas bunu atlılar və yandırılmış tarlalarla edirdisə, müasir varisləri bunu mərkəzsizləşdirilmiş raket/dron şəbəkəsi və 31 əyalət komandanlığı ilə həyata keçirirlər.*

*İrana təkcə teokratik dövlət kimi yanaşanda onun atdığı addımları anlamaq o qədər də asan olmur. Ancaq İrana dini-ideoloji-militar dövlət kimi baxdıqda aparılan müharibənin mahiyyəti tam ortaya çıxır.*

*Yəhya Rəhim Səfəvi son zamanların ən çox müzakirə olunan şəxslərindəndir. Onun sonuncu müsahibəsi Türkiyədə, Rusiyada və Qərbdə kifayət qədər ciddi müzakirələrə sebəb oldu. Təbii ki, Rəhim Səfəvinin "İran Səfəvilərin hüquqi və mənəvi varisidir" deməsi Azərbaycanda da diskussiyalara yol açdı. Onun açıq şəkildə "Türkiyə ilə heç vaxt müttəfiq ola bilmərik, Türkiyə ilə İran tarixi, dini, etnik yox, məhz coğrafi rəqibdir" deməsi əslində Cənubi Qafqaza yanaşmanı da ortaya qoyur. Bu məsələ türkiyəli və rusiyalı analitiklər tərəfindən fərqli müstəvidə müzakirə olunsa da, Azərbaycanda daha çox Şah İsmayıl və sünni-şiə mövzusu üzərindən aparılır. Bu müzakirənin Azərbaycana xeyrindən çox zərəri olduğunu düşünürəm. Niyə? Çünki bu günə qədər Cənubi Qafqaz uğrunda görünməyən bir savaş gedirdisə, bundan sonra bu savaş açıq müstəviyə keçə bilər. Region uğrunda açıq müstəviyə keçəcək savaş Cənubi Qafqazı ancaq poliqona çevirər - təkcə hərbi sahədə deyil, ideoloji, sosial şəbəkələrdə və informasiya müharibəsində.*

*Cənubi Qafqaz üçün ən böyük təhlükə, təbii ki, Rusiya və İrandır. Rusiyanın metodu çox açıqdır - birbaşa hərbi müdaxilə. İranın yanaşması isə tamamilə fərqlidir. Məsələn, İranda mərkəzlə (Tehranla) əlaqə kəsilir və 31 komandanlıqdan biri Azərbaycana müdaxilə edilməsi barədə qərar verir. Əminəm ki, Azərbaycan dövləti də bu ssenarini nəzərə almamış deyil. Rusiyanın Cənub Hərbi Dairəsi xəritə üzərində açılanda hədəf kimi bütün Cənubi Qafqazın və digər ərazilərin işğalı nəzərdə tutulursa, İranın hərbi strukturları xəritədə açılanda klassik "ərazini işğal etmək üçün irəliləyən ordu" deyil, "qarşı tərəfi uzunmüddətli, asimmetrik, qan tökən və nəzarətsiz xaos müharibəsinə çəkən şəbəkə" görürük. Bir çoxları deyə bilər ki, İran da, Rusiya da qələt edir, bizim XTQ onları darmadağın edər. Bu "tupoy Rembo" yanaşmasıdır. Dövlət isə həm də, hər şeyi hesablayana, proqnozlaşdırana və hər varianta hazır olana deyilir.*

*Azərbaycanın İranın mozaik müdafiə modelini eynilə tətbiq etməsi insan resursu və coğrafi dərinlik baxımından mümkün olmasa da, bu cür mərkəzsizləşdirilmiş, asimmetrik və şəbəkəli təhdidlərə qarşı özünün çevik müdafiə və adekvat cavab mexanizmlərini formalaşdırması həyati zərurətdir. Çünki gələcəyin müharibələrində yalnız klassik ordular deyil, asimmetrik şəbəkələri düzgün oxuyan və buna qarşı "düşünən beyinlər" qalib gələcək.*

## Politoloq: "Rusiya-Ukrayna müharibəsi yeni mərhələyə keçib"

**"Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin qeyd edib ki, Rusiya-Ukrayna böhranının ilkin səbəbləri aradan qaldırılmadan Moskva müharibənin dondurulmasına razı olmayacaq. Göründüyü kimi, Rusiya müharibəni davam etdirməkdə maraqlıdır. Sentyabrdan etibarən səfərbərlik istiqamətində müəyyən addımların atılması, həmçinin Şimali Koreyadan 35-40 minə yaxın hərbçinin Rusiyaya və ya Ukrayna cəbhəsinə gətirilməsi ilə bağlı məlumatlar da Moskvanın hərbi potensialını artırmağa çalışdığını göstərir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, yəni, Rusiya aktiv şəkildə Ukrayna müharibəsinin davam etdirilməsində maraqlı görünür: "Bununla belə, Moskva bir tərəfdən ABŞ-nin vasitəçiliyini önə çəkir, digər tərəfdən isə əvvəlki razılaşmalara qayıdış məsələsini gündəmə gətirir. Görünür, Rusiya bununla ABŞ-yə müəyyən mesajlar verməyə, Vaşinqtonun münaqişədə tərəf olmadığını vurğulamaqla Amerikanı xüsusilə hərbi müstəvidə Ukrayna böhranından kənarda saxlamağa çalışır. Lakin ABŞ Prezidenti Donald Trampın son açıqlamalarından görünür ki, Vaşinqton artıq Vladimir Putinin danışıqlarda real maraqlı olmadığı və danışıqları uzatmağa çalışdığı qənaətinə gəlir".

Politoloq bildirib ki, bunun fonunda Ukraynaya hərbi yardımların artırılması həyata keçirilir: "Eyni zaman-



da, Konqresdə Rusiyaya qarşı yeni sanksiya qəbulu Moskvanın iqtisadiyyatına ciddi təzyiq göstərəcək. Bu da ABŞ-ın Ukraynanı dəstəkləyən mövqeyinin getdikcə daha aydın xarakter aldığını göstərir.Bundan əlavə, Patriot hava hücumundan müdafiə sistemlərinin istehsalı ilə bağlı Ukraynaya müəyyən texnoloji və lisenziya verilməsi yaxın perspektivdə mümkündür. Təbii ki, Patriot kimi mürəkkəb sistemlərin istehsalı çoxsaylı texniki və hüquqi razılaşmalar tələb edir və bu prosesin qısa müddətdə reallaşması asan deyil. Burada həm ABŞ dövlət strukturları, həm də silah istehsalçıları arasında ciddi koordinasiya zəruridir. Ümumilikdə, Donald Trampın Rusiya-Ukrayna müharibəsi ilə bağlı əvvəlki mövqeyindən müəyyən mənada geri çəkildiyini və Ukraynaya daha açıq dəstək verir".

M.Əsədullazadə bildirib ki, bununla yanaşı, Türkiyənin də Ukraynaya hərbi dəstəyini genişləndirmək, o cümlədən ATACMS raketlərinin tədarükü məsələsini nəzərdən keçirmək niyyəti Qərbin Rusiyaya qarşı mövqeyinin sərtləşdiyini göstərən amillərdəndir:

"Rusiya qarşısında NATO və ümumilikdə Qərb koalisiyasının daha ciddi şəkildə formalaşdığını görürük. Moskvanın müharibənin ilkin səbəblərini yenidən gündəmə gətirməsi, Ukraynanın faktiki olaraq silahsızlaşdırılması kimi tələbləri Qərb tərəfindən qəbul edilə biləcək yanaşma deyil. Çünki bu siyasət Ukraynanın suverenliyinə və təhlükəsizlik sisteminə birbaşa təsir göstərir.Rusiyanın hazırkı siyasəti beynəlxalq nizamı ciddi şəkildə sarsıdır, Avropanın təhlükəsizlik arxitekturasını təhdid edir və ABŞ-nin beynəlxalq mövqeyinə meydan oxuyur. Bu səbəbdən Vaşinqtonun Moskvanın bu siyasətinə uzun müddət dözümlü yanaşması real görünmür.Hesab edirəm ki, qarşıdakı mərhələdə Rusiyaya qarşı daha ciddi iqtisadi və siyasi təzyiqlər tətbiq oluna, eyni zamanda Ukraynaya hərbi yardımlar artırıla bilər. Məqsəd Rusiyanı hərbi yolla məğlub etməkdən daha çox, Moskvanın danışıqlar masasına daha real və güzəştə hazır mövqedə oturmasını təmin etmək ola bilər".

O, deyib ki, digər tərəfdən, Rusiyanın iqtisadi vəziyyətinə müharibənin yaratdığı yük getdikcə artır:

"Bu baxımdan Rusiya-Ukrayna müharibəsi artıq yalnız regional qarşıdurma deyil, Qərblə Rusiya arasında daha geniş geosiyasi rəqabətin yeni mərhələsinə çevrilib. Bu qarşıdurmada Çinin və Şimali Koreyanın da Rusiyaya müxtəlif formalarda dəstək verməsi vəziyyəti daha da mürəkkəbləşdirir.Dünya faktiki olaraq yeni bir geosiyasi qarşıdurma mərhələsinə daxil olur. Rusiya ilə Qərb arasındakı hərbi-siyasi rəqabətin dərinləşməsi Avropada təhlükəsizlik balansını daha da dəyişdirə və Ukrayna müharibəsinin yaxın perspektivdə başa çatmasını çətinləşdirə bilər".

**Sübhan**

# "Simurq" kitabxanasının taleyi necə olacaq?

**Laçında fəaliyyət göstərən "Simurq" kitabxanasının bağlanması şəhərin mədəni həyatının gələcəyi ilə bağlı suallar yaradıb. Qısa müddətdə könüllü ianələr hesabına 4 minə yaxın kitabdan ibarət fond formalaşdıran kitabxananın əvvəlcə fəaliyyətinin dayandırılması, indi isə tamamilə bağlanması ictimai maraq doğurub.**

İşğaldan azad edilmiş Laçında yeni yaradılmış kitabxananın bağlanmasını necə qiymətləndirirsiniz?

Sizcə, bərpa olunan şəhərlərdə kitabxana və mədəniyyət ocaqları hansı rolu daşıyır?

Minlərlə kitabdan ibarət fondun taleyi necə həll edilməlidir?

Laçında müasir kitabxana ənənəsinin formalaşdırılması üçün hansı addımlar atılmalıdır?

Median.Az-a açıqlama verən Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, yazıçı Rəşad Məcid bildirib ki, kitabxanaya həm Yazıçılar Birliyi, həm də ayrı-ayrı yazarlar tərəfindən çoxsaylı avtoqraflı kitablar hədiyyə edilib.

Rəşad Məcid qeyd edib ki, özü də şəxsən kitabxanaya xeyli sayda kitab göndərib və bir neçə dəfə burada olub:

"Özüm də şəxsən" Simurq" kitabxanasına çox sayda kitablar göndərmişəm. Bir neçə dəfə həmin kitabxanada olmuşam. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli ilə birlikdə də orada olmuşuq, kitabxananın kiçik otağında yaradılan şəraiti görmüşük".

Rəşad Məcid əlavə edib ki, kitabxananın yerləşdiyi məkanın kiçik olması ilə bağlı fikirlərini dəfələrlə səsləndirib:



"Mən müxtəlif söhbətlərdə həmişə demişəm ki, bu otaqlar kitabxana üçün balacadır. Yəqin ki, Laçında tikintilər davam etdikcə, kitabxana üçün hansısa şəkildə daha geniş şərait yaradılacaq".

Rəşad Məcid "Simurq" kitabxanasının hansı səbəbdən və hansı struktur tərəfindən bağlanması ilə bağlı dəqiq məlumatının olmadığını deyib. Onun sözlərinə görə, aidiyyəti qurumlar kitabxananın fəaliyyətinin davam etdirilməsi üçün yeni məkan müəyyənləşdirə bilərlər. Yazıçı hazırda Laçında olduğunu və şəhərdə aparılan quruculuq işləri ilə tanış olduğunu da qeyd edib. Rəşad Məcid vurğulayıb ki, şəhərin sürətli inkişafı fonunda mədəniyyət müəssisələrinin, o cümlədən kitabxananın fəaliyyət göstərməsi vacibdir.

"Laçında artıq güclü inkişaf prosesi gedir. Burada fəaliyyət göstərən mədəniyyət müəssisələri içərisində mütləq kitabxananın da olması vacibdir. Mən inanıram ki," Simurq" kitabxanası üçün şərait yaradılacaq, həm ştat vahidi ayrılacaq, həm də daha geniş məkan veriləcək. Mənim də oxuduğum 2 nömrəli məktəbə hələlik kitabları yerləşdirmək olar".

Rəşad Məcid qeyd edib ki, "Simurq" kitabxanasında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələri tərəfindən hədiyyə edilmiş çoxsaylı avtoqraflı kitablar toplanıb.

"Bizim "Simurq" kitabxanasına başda Xalq yazıçısı Anar Rzayev olmaqla, Azərbaycanın bir çox dəyərli yazıçıları avtoqraflı kitablar göndəriblər. Bu, həm də bizim ədəbi-mədəni xəzinəmizdir. Belə bir xəzinəyə mütləq sahib çıxmalıyıq".

**O, sonda sosial şəbəkələrdə kitabxananın fəaliyyəti ilə bağlı narahatlığın aidiyyəti qurumların diqqətindən yayınmayacağına və məsələnin obyektiv şəkildə həllini tapacağına inandığını deyib.**

***Rza RZAYEV***



# Əsl hədəf Böyük Heydər Əliyevdir, Şah İsmayıl bəhanədir!

**(Bir şeydən danışıb digər şeyi mənalandırırlar!)**

**Şah İsmayıldan danışıb Böyük Heydər Əliyevi "yenidən" mənalandırırlar!**

**Bir vaxtlar ən yaxın tarix olan Böyük Heydər Əliyevi inkar edənlər, indi də uzaq tarix olan Şah İsmayılı inkar edirlər. Sifariş eyni mənbədir - FETÖ!**

**Böyük Heydər Əliyev: Müasir Azərbaycan dövlətçiliyinin, "Azərbaycançılıq" ideologiyasının və müstəqil dövlət modelinin memarıdır.**

**Şah İsmayıl Xətai: Səfəvi imperiyasının banisi, mərkəzləşdirilmiş Azərbaycan dövlətçiliyinin və ana dilli dövlət şüurunun təməl daşıdır.**

**İdeoloji Bədən və Şəxsiyyətin İnkarı Mexanizmi:**

**Şah İsmayıl və Heydər Əliyev sadəcə tarixi adlar deyil; onlar Azərbaycan dövlətçilik şüurunun bədənləşmiş, maddiləşmiş rəmzləridir.**

**Onları inkar etmək, əslində onların şəxsində müstəqil Azərbaycan dövlətinin mövcudluq haqqını inkar etmək cəhdidir.**

**FETÖ-nün "Tarix və İdeologiya"Taktikası:**

**Bu şəbəkələr hər zaman öz daxili, supranasionak (milli olmayan) dini-siyasi gündəmlərini yeridə bilmək üçün yerli milli simvolları, dövlət xadimlərini və müstəqil milli kimlik anlayışını hədəf alıblar.**

**Səfəvi və Şah İsmayıl Anti-Təbliğatı:**

**FETÖ və bənzər kənar cərəyanlar illərlə Osmanlı-Səfəvi qarşıdurmasını köhnə, təktərəfli ideoloji prizmadan yenidən alovlandıraraq Şah İsmayılı və Səfəviləri "bölücü" və ya "milli kimlikdən kənar" kimi qələmə verməyə çalışıblar.**

**Biz ölməmişik - yəni Əliyevçilər!**

# «Hörmüz boğazına alternativ marşrutlar da tam təhlükəsiz deyil...»

**"Hörmüz boğazının işlədilməsiylə bağlı İranla Oman arasındakı danışıqlar başa çatmaq üzrədir. İran tərəfi yekun nəticəyə yaxın olduqlarını bildirib. Ancaq iki ölkə arasında danışıqların yekunlaşması hələ problemin həll demək deyil. Hörmüz boğazından neft ixrac və idxal edən ölkələr alternativlər barədə düşünürlər. Çünki, bu dövlətlər hesab edirlər ki, Omanla İran arasında razılaşma müvəqqəti xarakter daşıya bilər və ABŞ-İran müharibəsi yenidən alovlanarsa, Tehran yenidən boğazı qapadacaq".**

Adalet.az xəbər verir ki, bunu Elxan Şahinoğlu deyib.

O, bildirib bu isə boğazdan neft və sıxılmış qazın daşınmasının yenidən durdurulması demək olacaq:

"Hörmüz boğazına alternativ marşrutlar da tam təhlükəsiz deyil. Bölgədə mövcud olan silahlı qruplar, o cümlədən onların əlində olan dronlarla alternativ marşrutlarla daşınan yanacağa da təhlükə yarada bilərlər. Tam təhlükəsizk marşrutların işə salınması üçün isə zaman və maliyyə resurslarına ehtiyac var. Hər halda Səudiyyə Ərəbistanı Qırmızı dənizə uzanan boru xətti ilə neft nəqlini 2 milyon barelə çatdırmağı planlaşdırır.Hindistan da qərarını verib. Bu ölkə neft idxalının həcminə görə dünyada üçüncü sıradadır. Hindistan son iki ildə Rusiyadan neft alışnı artırmasına baxmayaraq, neftə olan tələbatının 40 faizini Hörmüz boğazı üzərindən əldə edirdi. Ancaq mövcud vəziyyət Hindistanı Hörmüz boğazı üzərindən neft idxalını azaltmağa məcbur edib. Hindistanın neftayırma zavodları Hörmüz boğazından neft alışını başqa istiqamətlərlə əvəzləməyə başlayıblar".



Politoloqun sözlərinə görə, Böyük Britaniyanın "Peritus International" mühəndis şirkəti Hindistanın "South Asia Gas Enterprises" aldığı sifariş əsasında Birləşmiş Ərəb Əmirliklərindən başlanan və Ərəb dənizindən Hindistan sahillərinə qədər uzanan boru xəttinin tikintisini layihələndirir:

"Layihənin iqtisadi səmərələliyi hesablanacaq. Hindistan eyni zamanda neft və qaz yataqlarının kəşfiyyatına 9 milyard dollara yaxın vəsait xərcləməyi planlaşdırıb. Məqsəd enerji idxalından asılılığı azaltmaqdır. Hazırda ölkə xam neft istehlakının təxminən 90 faizini idxal etmək məcburiyyətindədir. Yeni proqram çərçivəsində hökumət şirkətlərə quyu qazma xərclərinin 50 faizinə qədərini geri ödəyəcək. Yaponiya da Hindistanla oxşar vəziyyətdədir. Yaponiyanın xam neft ehtiyatları Hörmüz boğazında gərginlik fonunda ölkə tarixində ən böyük həcmdə azalıb. Yaponiya neft emalı zavodlarının fəaliyyətini davam etdirmək məqsədilə 100 milyon barel strateji neft ehtiyatını dövriyyəyə buraxmaq məcburiyyətində qalıb. Halbuki, Yaponiya neftinin 90 faizdən çoxunu Yaxın Şərqdən alırdı. Mövcud vəziyyətdə Yaponiya Yaxın Şərqdən neft tədarükündən asılılığını azaltmağa qərar verib. Yaponiya ABŞ-dən neft alışının həcmini artırıb. Yaponiya tarixində ilk dəfə may ayında Azərbaycan neftini də alıb və bu sahədə iki ölkə arasında əməkdaşlığın genişlənəcəyini proqnozlaşdırmaq olar.Yaponiya eyni zamanda yanacaq böhranından əziyyət çəkən qonşularına da yardım əli uzatmağa qərar verib. Yaponiya Baş naziri Sanae Takaiçi Asiya liderləri ilə keçirilən onlayn görüşdən sonra ölkəsinin Asiyada enerji böhranının təsirlərini azaltmaq məqsədilə region ölkələrinə 10 milyard dollar maliyyə dəstəyi ayıracağını bildirib. Bu yardım Cənub-Şərqi Asiya ölkələrinin xam neft və digər enerji resurslarını təmin etməsinə yönələcək. Yaponiya Xarici İşlər Nazirliyinin məlumatına görə, ayrılan vəsait ASEAN ölkələrinin bir illik xam neft idxalına bərabərdir. Misal üçün enerni böhranı Filippini fövqəladə vəziyyət elana məcbur edib".

**Sübhan**

# Bəşər Əsədə ölüm hökmü çıxarıldı

**Dəməşq Cinayət Məhkəməsi Suriyanın keçmiş prezidenti Bəşər Əsədi insanlıq əleyhinə cinayətlər, qətl və işgəncə ittihamları üzrə ölüm cəzasına məhkum edib.**



SANA agentliyinin məlumatına görə, məhkəmə Bəşər Əsədin qardaşı Mahir Əsəd və keçmiş təhlükəsizlik rəsmisi Atef Nacib barəsində də ölüm hökmü çıxarıb.

Bəşər və Mahir Əsəd məhkəmədə qiyabi mühakimə olunublar. Məhkəmə onların beynəlxalq axtarışa verilməsi barədə də qərar qəbul edib.

Bəşər Əsədin əmisi oğlu Atef Nacib isə məhkəmə iclasında şəxsən iştirak edib. O, 2011-ci ildə Dəraa vilayətində Siyasi Təhlükəsizlik İdarəsinin rəhbəri vəzifəsində çalışıb.

Nacibə qarşı qətl, işgəncə və qətlə təhrik ittihamları irəli sürülüb.

Qeyd edək ki, Bəşər Əsəd 2024-cü ilin dekabrında hakimiyyətdən devrildikdən sonra ailəsi ilə birlikdə Suriyanı tərk edərək Rusiyaya gedib.

# *"11 il oxuyub, siz illərlə onun təhsilinə..."*



**"DİM-də ixtisas seçimi başladı. Deyirlər ki, insanın həyatında ən vacib seçim ixtisas seçimi və həyat yoldaşı seçimidir. Bu seçimlərdə verilən yanlış qərar insanlara baha başa gəlir. Mövzumuz ixtisas seçimi haqqındadır.Valideynlər bu məsələdə sadəcə uşağın topladığı bala uyğun ixtisas axtarmamalıdır. Təəssüf ki, çox vaxt seçim yalnız əvvəlki illərin keçid ballarına baxılaraq edilir. Halbuki keçid balı heç də həmişə universitetin ümumi səviyyəsini və həmin universitetin konkret bir ixtisas üzrə gücünü tam göstərmir".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. O, bildirib ki, məsələn, eyni ixtisas üzrə bir universitetdə keçid balı 500-550-dən yuxarı, başqa universitetdə isə təxminən 400-450 ola bilər:

"Amma əmək bazarında işəgötürənlər ikinci universitetin həmin ixtisas üzrə məzunlarına daha çox üstünlük verə bilirlər. Çünki bilirlər ki, məhz həmin universitet bu sahə üzrə daha yaxşı kadr hazırlayır.Yəni, hansısa bir universitet ümumilikdə güclü ola bilər, amma orada bütün ixtisaslar eyni səviyyədə deyil. Ona görə də ixtisas seçərkən keçid balından başqa daha 3 məsələyə birlikdə baxmaq lazımdır.

1.Həmin universitetin konkret ixtisas üzrə real tədris səviyyəsinə.

2. Əmək bazarında həmin məzunlara olan tələbə.

3. 15-20 il sonra bu ixtisasın əmək bazarında çəkisinə.

Odur ki, ixtisas seçimi sadəcə jurnalı qabağa qoyub uşağın balına uyğun kodları yuxarıdan aşağı düzmək deyil. Bunu etmək üçün heç ekspert olmağa ehtiyac da yoxdur. Əsas məsələ kodu yazmaq yox, hansı kodu niyə yazdığını bilməkdir. Çünki, bu günki abituriyent kariyera zirvəsində 15-20 il sonra olacaq. Ona görə də kodlaşdırma edən şəxs əmək bazarının il sonrakı vəziyyəti haqqında viziona sahib olmalıdır. Əlqərəz, övladınız 11 il oxuyub, siz illərlə onun təhsilinə vaxt, pul və zəhmət sərf etmisiniz. Son mərhələdə verilən yanlış qərar bütün bu zəhmətin nəticəsini ciddi şəkildə zəiflədə bilər".

**Vasif**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Ən ağır müsibətlər...

**İnsan yarandığı gündən dünyasını dəyişənə kimi, dərdin, qəmin, kədərin içində olur...Yəni ağlaya-ağlaya dünyaya gəlir və ağlaya-ağlaya da dünyadan köçür! Yəqin ki, buna heç kəsin sözü ola bilməz! Və olan var-sa, mənə desin, mən də yazım... Çünki dünya belə yaranıb və belə də olacaq...**

**Allah təkdir və şəriki yoxdur! Dünyanı da Tanrı idarə edir! Ancaq bəzən elə qüvvələr peyda olur ki, Allahın yaratdıqlarının əksinə gedir və onun sevdiklərini məhv edir. Axı Allah ədalətli, mərhəmətli, adildir! Bəs, onda niyə ən ağır müsibətlər yaxşı adamların başına gəlir??? Yəqin ki, bu suala heç bir bəndə cavab verə bilməz. Ən azından o, Allah deyil. Yaxşı adamlar Allahı çox istəyir, Onun dediyi, göstərdiyi yolla gedir! Yaxşı adamlar böyük günahlar eləmir... Ev yıxmır, adam öldürmür... Yaxşı adamlar təmiz adamlara şər-böhtan atmır, haqqa girmir...**

**Yaxşı adamlar paxıl deyil, qeybət eləmir, sələmə pul vermir... Və yaxşı adamlar ürəyiyumşaq, mərhəmətli, ədalətli olur... Bəs onlar niyə ailə faciəsi yaşamalı, gözünün ağı-qarası olan bir oğlunu itirməlidir? Və bir oğlunu itirəndən sonra o ana necə yaşayacaq??? O, yaşaya biləcəkmi??? Dərdin-qəmin içində yaşamaq yaşamaqdırmı?! Belə faciəli günlərdə onu nə ovudar??? Deyirlər ki, kim yaxşılıq və pislik edirsə, əməli gec-tez onun qabağına çıxır! Bəlkə də çıxır. Amma o boyda dərd verəndən sonra hansı yaxşılıq qabağına çıxsa, qətiyyən kiriyən deyil...**

**Bir tanıdığım gözəl insan var! Adını çəkmirəm, xanımdı. Ömrü boyu hamıya yaxşılıq edib, yetimə-yesirə, kasıba əl tutub, arxa durub. Və çox sinəsinə döyən kişilərdən karlı kişi olub. Onun bir neçə gün öncə 40 yaşında oğlu rəhmətə gedib. Heç zəng edib başsağlığı da verməyə ürəyim gəlmir! Çünki adamın dili gəlmir ey, desin ki, Allah oğluna rəhmət eləsin və sizə səbr versin. Sabah oğlunun "Təzə pir" məscidində üç məclisidir, orda təsəlli verərəm!**

**Çox ağırdır belə dərd! Gərək Allah-Təala bu dərdi o xanıma verməyəydi. Axı Allah ədalətlidir! Ədalətlidirsə, bir gözəl, mərhəmətli, ədalətli ananı niyə mələdir? İndi o ana mələyə-mələyə balasını axtarır. Bu dünyada mələyə-mələyə o qədər balasını axtaran analar var ki! Allah onların hamısına, eləcə də bizim yaxınımız olan xanım bacımıza səbr versin!**

**Və bir də deyirlər ki, Allah böyük dərd verəndə böyük də səbr verir! Yoxsa dərddən adamın ürəyi partlayar. Və hərçənd ki, dərddən ürəyi partlayan adamlar da az olmayıb!!!**

## *Bakıda velosiped və skuterlərdən istifadə rekord həddə çatdı*

**Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən Bakıda son iki ildə mikromobillik infrastrukturunun yaradılması və inkişafı istiqamətində mühüm işlər görülüb.**

Adalet.az xəbər verir ki, mikromobillik infrastrukturunun qurulmasına başlanıldığı vaxtdan paytaxtda velosiped və elektrikli skuterlər 6,9 milyon dəfədən çox sifariş olunub. Bu müddətdə istifadəçilər 18 milyon km-ə yaxın məsafə qət ediblər. Statistika yalnız kirayə xidmətlərini əks etdirir, şəxsi velosiped və skuterlərdən istifadə bu göstəricilərə daxil deyil.

Cari ilin 7 ayı ərzində isə kirayə xidmətində olan velosiped və skuterlər 2 297 405 dəfə sifariş olunub. Yanvar-iyul aylarında mikromobillik vasitələrindən istifadəçi sayı 1 160 228 nəfər olub və ümumilikdə 4 918 839 km məsafə qət edilib.

Bu, ötən ilin eyni dövrü ilə müqayisədə həm sifariş, həm də istifadəçi sayında 1,2 dəfə artım deməkdir.

İnfrastrukturun genişləndirilməsi istifadəçi sayının artmasına da müsbət təsir göstərir. Hazırda paytaxtda mikromobillik zolaqlarının uzunluğu 66,6 km-ə çatdırılıb. "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"na uyğun olaraq mikromobillik zolaqlarının uzunluğunun 100 km-ə çatdırılması nəzərdə tutulur.

Son 2 ildə əldə olunan nəticələr göstərir ki, Bakıda mikromobillik artıq alternativ nəqliyyat vasitəsi olmaqdan çıxaraq şəhərin müasir və dayanıqlı nəqliyyat sisteminin mühüm hissəsinə çevrilir.

Mikromobilliyin inkişafı qısa məsafələr üzrə daha rahat və çevik hərəkət imkanı yaradır, nəqliyyat sıxlığının və karbon emissiyalarının azalmasına, ictimai nəqliyyata əlçatanlığın artmasına töhfə verir.

## *Bizim futbol komandamız*



**Məhəllə, kənd futbolu olmadan heç vaxt böyük futbol ola bilməz! Dünyanın ən məşhur futbolçuları futbola məhlə futbolundan gəliblər! Vaxtı ilə bizim kəndin də futbol komandası olub. Şair Vaqif Bəhmənlinin belə bir şeiri də var:" Mənim futbol komandam!**

Bax biz uşaq olanda belə idi. Bir neçə ay bundan əvvəl eşitdim ki, Böyük Bəhmənlidə də Bəhmənli futbol komandası yaradılıb. Rusiyada yaşayan bir çox iş adamının köməyi ilə kənddə yeni futbol stadionu inşa edilib. Bununla yanaşı, Bəhmənli futbol komandası yaradılıb.

Artıq bu komanda bir neçə rəqib komandası ilə görüşüb və qalıb gələrək finala yüksəlib. Sözümüzün canı odur ki, məhəllə və kənd komandalarından həmişə məşhur futbolçular çıxıb! Və inanırıq ki, Bəhmənli futbol komandasından nə vaxtsa ölkəmizi təmsil edəcək futbolçular çıxacaq!!!

## *Bu yol belə adlandırılmalıdır*



**Bu gün ölkəmizdə çox möhtəşəm magistral yollar inşa edilir. Başqa sözlə demiş olsaq, yol infrastrukturumuz dünaya standartlarına tam cavab verir. Xüsulə də işğaldan azad olunmuş yerlərə müasir tələblərə cavab verən magistral yollar tikilir.**

Həmin yerlərdə bir - birindən gözəl asvalt yollar və tunellər adamın diqqətin daha çox cəlb edir. Belə yollardan biri də Şuşaya gedən " Zəfər yolu" dur. Və bu yolu belə adlandırıblar: Əhmədbəyli - Füzuli- Şuşa yolu! Bəli birinci yol düz adlandırılıb.

Artıq ödənişli ikinci yolda bir neçə aydır istismara verilib.O yolu da yenə Əhmədbəyli- Füzuli- Şuşa yolu adlandırırlar. Hansı ki, yol Əhmədbəylidən deyil, Böyük Bəhmənlinin yanından keçir və Əhmədbəyli kəndi beş kilometr uzaqda qalır.Ona görə də, ödənişli yol belə adlandırılmalıdır: Bəhmənli- Füzuli- Şuşa yolu! Bəlkə düz demirik, cənablar?! Bu barədə əlaqədar qurumlar ciddi düşünməli, düzgün qərar verməlidir!

## *Litri 10 qəpik...*



**Bakıda mənzillərə verilən içməli suyu qaynatmadan çoxları içmir. Deyilənlərə görə, çiy suyun tərkibində ağır metallar və mədə-bağırsaq xəstəlikləri törədə biləcək mikroblar mövcuddur.**

Bu nə dərəcədə doğrudur, bax onu deyə bilmərik. Amma əlaqədar qurumlar bildirir ki, Bakıda əhaliyə verilən içməli su tam standartlara uyğundur və onun tərkibində insan səhhəti üçün heç bir təhlükəli elementlər yoxdur. Üstəlik də, həmin sudan hər gün nümunələr götürülür və laboratoriyada analiz olunur . Müsbət rəydən sonra su əhaliyə verilir. Göründüyü kimi, hər şey qanunauyğun şəkildə öz həllini tapır.

Amma görünən odur ki, imkanlı insanlar mənzillərində sutəmizləyici qurğular quraşdırır və su tam mikroblardan təmizləndikdən sonra istifadə olunur! Əlbəttə, su nə qədər təmiz olsa, onu içmək insanlara bir o qədər fayda verər. Elə adamlar da var ki, dədə-baba qaydasından istifadə edərək suyu xüsusi hazırlanmış daşdan süzərək içilər! Son vaxtlar bir çox yaşayış sahələrinin yaxınlığında su köşkləri quraşdırılıb.

Həmin avadanlıqda su təmizlənir və normal vəziyyətə gətirilir. Bizim də həyətimizdə belə qurğu quraşdırılıb. Kim istəyirsə, litri 10 qəpikdən pul ödəyib həmin sudan götürə bilir. O suyu içənlər deyir ki, pis deyil, mənzillərə gələn sudan daha keyfiyyətlidir. Təki belə olsun! Çünki ən azından hər adam gün ərzində 3 litr çiy su içməlidir. Belə ki, çiy suyun tərkibində insan səhhəti üçün vacib olan minerallar mövcuddur!!!

## *Sabah gələrsən...*



**İndiki ustalara etibar yoxdur. Həm yalançıdırlar, həm də çoxunun əlindən bir iş gəlmir. Onların ki, odur ‚qiymət" oxusun" lar və pul qazansınlar. Və bir də düşünmürlər ki, hər şeydən öncə bir halallıq da var. Amma onlarda heç halallıq da yoxdur. Bunlara bir təhər dözmək olur, ancaq onların yalanlarına dözmək olmur. Deyirsən ki, usta, nə vaxt gələcəksən?**

Deyir ki, sabah! Günlərlə, həftələrlə, aylarla gözləyirsən , gəlib çıxmaq bilmirlər. Və beləcə səni aldadırlar. Burada Molla Nəsrəddin bir lətifəsi yada düşür: Mollanın bir adama borcu varmış və hər dəfə pulunu istəyəndə deyirmiş ki, get, sabah gəl! Bir gün də molla evdə olmayanda həmin adam deyir ki, atana de ki, mənim pulumu versin! Mollanın da oğlu o adama deyir ki, get, qara daş göyərəndə gəlib , pulunu alarsan! Kişi gedir. Molla gəlir. Soruşur ki, pul aldığı adam gəlmişdi, ya yox? Oğlu deyir ki, gəlmişdi! Molla soruşur ki, nə dedin? Bildirir ki, dedim, get , qara daş göyərəndə gəl! Mollanın qanı qaralır və əsəbi halda dillənir: - Düz deməmisən, deməliydin ki, get sabah gəl! Birdən qara daş göyərdi ,mən o pulu hardan tapıb verəcəm, amma sabah həmişə var! Bax indiki ustalara da Molla Nəsrəddin bu üsulundan məharətlə istifadə edir. Ona görə də belələrinə bir o qədər də etibar etməyin və işinizi dürüst adamlarla görün!!!

## *Ödənişli yolda qəza ...*



**Bu gün ölkəmizdə dünya standartlarına cavab verən müasir asvalt yollar inşa edilir. Təbii ki, bu nəqliyyat vasitələrinin hərəkətini asanlaşdırır, sərnişinlərin mənzil başına daha rahat və təhlükəsiz çatmasına əlverişli şərait yaradır.**

Bunlar hamısı çox gözəldir. Çox təəssüf ki, bəzi sürücülər belə gözəl şəraitdən sui-istifadə edir və yol hərəkəti qaydalarını kobud surətdə pozurlar. Məsələn, yeni istifadəyə verilmiş Bəhmənli - Füzuli- Şuşa ödənişli avtomobil yolu ən müasir formada tikilərək istifadəyə verilib. Yolda hər cür infrastruktur mövcuddur. Üstəlik də bu dünya standartlarına cavab verən magistral yolda radar sistemlər də quraşdırılmayıb.

Elə bundan da bəzi sürücülər istifadə edərək daha yüksək sürətlə nəqliyyat vasitələrini idarə edirlər. Hətta bu yolda saatda 200-230-la avtomobilləri sürən sürücülər də var. Bir neçə gün bundan öncə həmin yolda yüksək sürətlə hərəkət edən " Mersedes - Gilanvanger" markalı avtomobil idarəetmədən çıxaraq dəmir arakəsməyə çırpılıb. Sürücüyə və sərnişinlərə bir şey olmasa da , amma avtomobilə böyük ziyan dəyib.

Kimsə harasa İstirahatə gedirsə, zəhmət çəkib nəqliyyat vasitəsini normal idarə etməli və yol hərəkəti qaydalarına əməl olunmasına riayət etməlidir. Avtomobil yolu rahatdır deyə sürət həddini aşmamalıdır.

## *DEYİMLƏR*



İnsanın bəxtinin açılması yaşla bağlı deyil! O bəxt 30 yaşında da açılar, 70 yaşında da ! Yetər ki, zəhmət çəkəsən, mücadilə edəsən və səbrli olasan!

***

Xalqın şairi Seyran Səxavət deyir ki, " insan bircə dəfə doğulduğundan, elə bircə dəfə də sevə bilərmiş..." Amma məhəbbət bircə dəfə ola, bilməz.Çünki o , şeir, musiqi kimi Allah tərəfindən göndərilir. Allah tərəfindən göndərilən sevgiyə " məhəbbət " - deyilir! Bunu ancaq sevən insanlar duya bilər!!!

***

Tək diriləri sevmək lazım deyil! Ölüləri də sevmək lazımdır.Elə ölülər var ki, dirilərdən dostluğa daha sədaqətlidı. Mənim ölü( mənim üçün diri olan) dostlarım daha çoxdu!!!

***

O günü bir tanışım deyir ki, 70 yaşa çatana qədər böyük ümidlərlə yaşadım, amma heç bir arzum həyata keçmədi! Yaşım tamam olan günü həm arzularım öldü, həm də ümidlərim!!!

Emil FAİQOĞLU



# SOCAR-KBR-in meneceri "Binəqədi-38" MMMC-də dərəbəylik yaradıb...

**...Azərbaycanda ilk Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyəti (MMMC) 2014-cü ilin yanvar ayında dövlət qeydiyyatına alınıb. Bu hüquqi şəxslərin yaranması ölkədə Mənzil Məcəlləsinin tətbiqi və çoxmənzilli binaların idarə edilməsində yeni üsulların təbliği ilə bağlı həyata keçirilir. Fəqət, ölkədə MMMC-lərin fəaliyyətinə nəzarət edən konkret bir qurum yoxdur. Guya idarəetmə və nəzarət binada mülkiyyət payı olan sakinlərə həvalə edilib. Bu da özbaşınalığa, saxtakarlığa yol açır. Məsələn, yaşadığım 9-cu mikrorayon, Mir Cəlal küçəsi 143 A binasını "Binəqədi-38" MMMC idarə edir.**

Bu MMMC-nin rəhbərliyi qanunvericiliyin tələblərinə uyğun heç bir yığıncaq-seçki keçirmədən, sakinlərə başqa adla imza atdıraraq MMMC-ni 29 mart 2024-cü ildə Ədliyyə Nazirliyində qeyri-kommersiya hüquqi şəxs kimi dövlət qeydiyyatına sala bilib. Bu barədə Ədliyyə Nazirliyinə rəsmi müraciət etsək də, bizə yerli məhkəməyə müraciət etmək tövsiyə olunub.

Buradan belə çıxır ki, bir neçə sakin mülkiyyətçilərin yığıncağını keçirmədən digər sakinlərdən imza toplamaqla binanın idarəetməsini asanlıqla ələ keçirə bilər. Çünki qeydiyyata götürən orqan, daxil olan sənədlərin doğruluğunu yoxlamır. Bundan əlavə, artıq iki il beşinci aydır ki, "Binəqədi-38" MMMC VÖEN olmadan fəaliyyət göstərir. Burada çalışan hər kəs, yəni komendant, təmizlik üzrə xadimə, inzibati işçi, mühafizəçilər rəsmi əmək müqaviləsi olmadan çalışır.

Bu barədə Dövlət Vergi Xidmətinə, Dövlət Əmək Müfəttişliyinə, DOST Agentliyinə dəfələrlə müraciət etsək də səsimizi eşidən yoxdur. Kommunal haqları nəğd və ya da ki, kiminsə adına açılan şəxsi kart hesabına toplanır. Hansı ki, Azərbaycan Respublikasının "Nağdsız hesablaşmalar haqqında" Qanununun 3.4.5-ci maddəsinə görə stasionar telefon xidmətləri və kommunal xərclərin ödənilməsi yalnız nağdsız hesablaşma qaydasında aparılmalıdır.

Odur ki, "Binəqədi-38" MMMC-nin sədri, həm də SOKAR-KBR-də Boru Kəmərləri Departamentinin meneceri vəzifəsində işləyən Eldar Səfərovun sakinlərə hər ay təqdim etdiyi möhürsüz, imzasız hesabatı da şübhəlidir. Bundan əlavə, binanın sakinləri arasında illərlə kommunal haqqını ödəməyən adamlara qarşı heç bir hüquqi addım atılmır. Sanki Eldar Səfərov özü belə sakinləri qoruyur.



Nəticədə, kimlərsə liftlərin, su nasoslarının, mühafizə xidmətinin, təmizləyicinin, daxili və xarici işıqlandırmanın məsrəflərindən müftə istifadə edir. Büdcədən yoxa çıxan vəsaitin hesabatını soruşanda isə, sədr heç bir rəsmi əmək müqaviləsi olmadan, qeyri-qanuni işləyən komendantın üstünə atır. Komendant isə çiyinlərini çəkir. Mülkiyyətçilərlə hesablaşmadan yığılan kommunal haqlarından böyük məbləğ sərf edib mənasız yerlərə xərclənir.

Binada yanğın əleyhinə mərtəbələrdə quraşdırılan bütün avadanlıqlar bərbad haldadır. FHN-ə şikayət edəndə də, sahə üzrə inpektor gəlib faktı təsdiq edir, amma heç bir nəticə olmur. Mərtəbələrdə yanğın əleyhinə avadanlıqlar bərpa olunmur ki, olunmur. Anlaya bilmirəm, binada qəfil yanğın baş verərsə tələf olan insanlara görə kim cavabdehlik daşıyacaq? Bina başdan ayağa avtopilot rejimində idarə olunur.

Mənzillərin əksəriyyətində mətbəxlər balkona köçürülüb və mətbəxlərin kanalizasiya sistemi yağış suları üçün nəzərdə tutulan borulara qoşulduğu üçün, binanın müxtəlif yerlərindən süzülən çirkab sular blokdakı sahələrə dolur. Binada elektrik maşınlarının şarj edilməsi üçün qeyri qanuni quraşdırılan avadanlıqların qarşısını almaqdan ötrü MMMC-nin rəhbərliyi heç bir iş görmür. Şikayət edəndə də MMMC-nin sədri və idarə heyəti saygısızlıq göstərib cavab vermək istəmir. Ümummülkiyyətə aid olan sahələrdə avtomobillərin parkinq edilməsi qanunla qadağan olsa da, həmin yerlərdə MMMC-nin sədri Eldar Səfərovun çevrəsində olan şəxslər avtomobillərini parkinq edir. Binanın su anbarı illərlə təmizlənib dizinfeksiya olunmur. Zirzəmilərdə qarajların jalyüzlə bağlanması isə yanğın zamanı tüstünün qatılaşmasına bir zəmindir...

**Nə isə, birdirmi, ikidirmi "Binəqədi-38" MMMC-nin problemləri, saymaqla bitməz. Haraya şikayət etsən də nəticəsi olmur ki, olmur. İctimailəşdirdim ki, bəlkə kimsə bu qeyri-qanuni fəaliyyətin qarşısını ala bilər. Qanuni dövlətdə belə bir qanunsuz qurum olar???**

**Elman ELDAROĞLU**

# İrəvan Moskvanın tələbini rədd etdi

**"Yaxın aylarda Ermənistanda ölkədə müzakirə edilməmiş bir məsələ ilə bağlı referendum keçirilə bilməz".**

Adalet.az xəbər verir ki, bunu Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" partiyasının deputatı Sərkis Xandanyan Avrasiya İqtisadi Birliyindən (AİB) çıxmaq və Avropa İttifaqına (Aİ) üzvlüklə bağlı mümkün referendum barədə müzakirələri şərh edərkən bildirib. Deputat vurğulayıb ki, Ermənistan AİB-in tamhüquqlu üzvüdür və yaxın vaxtlarda onun statusu dəyişməyəcək: "Ermənistan AİB-in tamhüquqlu üzvüdür və yaxın aylarda iştirakımız davam edəcək. Ermənistanın üzvlüyü həm ölkəmizin, həm də AİB-in digər üzv dövlətlərinin maraqlarından irəli gəlir". Xandanyan əlavə edib ki, Aİ-yə inteqrasiya prosesi daxili xarakter daşıyır: "Bizim üçün Aİ ilə inteqrasiya prosesi daxili islahatlar prosesidir. Bu proses iqtisadi subyektlərimizə öz standartlarını Avropa bazarlarına uyğunlaşdırmaq imkanı verir". KTMT mövzusuna toxunan deputat bildirib ki, təşkilatda fəal iştiraka qayıtmaq üçün əsas görmür: "Ermənistanın KTMT-də iştirakını fəallaşdırmağa bizi məcbur edə biləcək hər hansı səbəb və ya şərait olduğunu düşünmürəm.



Ermənistanın hansı problemlərə görə üzvlüyünü dondurduğunu bilirsiniz və həmin problemlər bu günə qədər qalmaqdadır".

**Xatırladaq ki, Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin bundan əvvəl Ermənistandan müvafiq məsələ üzrə referendum keçirməyi tələb etmişdi.**

# Netanyahu: "İsrail İranın nüvə silahına sahib olmasına imkan verməyəcək"

**İsrail Vaşinqtonla Tehran arasında razılaşmanın mövcud olub-olmamasından asılı olmayaraq İranın nüvə silahına sahib olmasına imkan verməyəcək.**

Adalet.az xəbər verir ki, bu bəyanatı İsrailin Baş naziri Benyamin Netanyahu yəhudi dövlətinin hökumətinin həftəlik iclasının əvvəlində səsləndirib.

"Mən İranın nüvə silahı əldə etmək cəhdlərinə qarşı mübarizədə İsrail ilə ABŞ arasındakı tarixi tərəfdaşlığı yüksək qiymətləndirirəm. Bir daha vurğulamaq istəyirəm: razılaşma ilə və ya razılaşmasız, mən baş nazir olduğum müddətdə İran nüvə silahına sahib olmayacaq", - deyə Netanyahu bildirib. Baş nazirin açıqlamasını onun



dəftərxanası yayıb. Netanyahunun sözlərinə görə, son həftələrdə "İran region ölkələrinə, hətta regiondan kənarda yerləşən ölkələrə hücum edir, lakin hücum etmədiyi bir ölkə var - İsrail". Onun fikrincə, bunun səbəbi Tehranın "İsrailin belə bir addım atacağı təqdirdə ona nə qədər güclü zərbə endirəcəyini bilməsidir".

*Elxan Şükürlü*



# "Məkkə sazişi": Bu ölkələrə mesaj verildi

**İslam dünyasına liderlik iddiasında olan 6 ölkədən 3-nün - Türkiyə, Pakistan və Səudiyyə Ərəbistanının məhz Məkkədə ortaq hərbi əməkdaşlığı nəzərdə tutan "Məkkə sazişi"ni imzalamasını gələcəkdə müsəlman həmrəyliyinə nail olunması istiqamətində atılmış ciddi addımlardan biri kimi qiymətləndirmək və təqdir etmək gərəkdir.**

**Bu sazişi dərhal "İrana qarşı sünni ölkələrin ittifaqının qurulması" kimi təbliğ etmək kökündən yanlışdır, hədəfin yayındırılmasıdır və yalnız regionda ənənəvi məzhəb qarşıdurmasını yaratmaq istəyən İsrailin, ABŞ-ın işinə yarayar.**

**Reallıqda isə "Məkkə sazişi", ilk növbədə, İslamdakı 4 sünni məzhəbindən ikisinin - hənəfi və hənbəli fiqhinin önəmli təmsilçilərinin arasında əldə edilmiş ilkin razılaşmadır. Sənədin məhz Məkkədə imzalanması və qılınan birgə namaz da dünyaya verilən birgəlik mesajıdır.**

**Bilməyələrin nəzərinə çatdıraq ki, Türkiyə və Pakistan İslamın hənəfi, Səudiyyə Ərəbistanı isə hənbəli fiqhinə əsaslanır.**

**Gələcək gedişatdan asılı olaraq, "Məkkə sazişi"nə digər məzhəb təmsilçilərinin - həm şafeyi və maliki, həm də cəfəri fiqhinə əsaslanan ölkələrin qoşulması da gözlənilləndir.**

**Bu isə, əslində, ABŞ və İsrailin həmmüəllifliyi ilə 2020-ci ilin avqustundan başlanılan "İbrahimoğulları layihəsi"nin baş tutmaması, rəhmətlik Nəcməddin Ərbakanın ideyası olan "D-8" əsasında müsəlman ölkələrin hərbi ittifaqının qurulması arzusunun gerçəkləşməsi istiqamətində atılmış növbəti addım deməkdir.**

**Qiymətləndirmə apararkən, o fakta da mütləq diqqət yetirmək gərəkdir ki, ABŞ-İsrail tandeminin İrana qarşı əməliyyatlarının uğursuz olmasının əsas səbəblərindən biri məhz sünni-şiə həmrəyliyi - Türkiyə, Pakistan və Azərbaycanın bu əməliyyatlara qoşulmaması, üstəlik, İranı açıq şəkildə dəstəkləmələri oldu.**

**Hətta Pakistanda keçirilən ABŞ-İran danışıqları zamanı nümayişkaranə şəkildə sünni və şiə icmalarının vəhdət namazı da qılındı.**

**Şübhəsiz ki, yeni qurulan "Məkkə ittifaqı" üçün ən mühüm sınaq bu ölkələrin tezliklə Suriyada, Yəməndə və Fələstində necə davranacaqları olacaq.**

**Əgər bu ittifaq qısa müddət ərzində öz qüvvələrini birləşdirib İsrail işğalını dayandırmağı bacarsa, çox güman ki, İran və Misir, gələcəkdə isə Azərbaycan və İndoneziya da "Məkkə sazişi"nə qoşulacaq.**

**Yox, İsrailə qarşı gərəkli və təsirli addımlar atılmayacaqsa, bu, bütövlükdə sünni dünyasının imicinə böyük zərbə vurmaqla, daxili təlatümləri körükləyəcək, İranın Yaxın Şərqdəki mövqeyini xeyli gücləndirəcək və həqiqi islam təəssübkeşlərinin onun ətrafında təmərküzləşməsi prosesini sürətləndirəcək.**

**Allah doğru yolda və niyyətdə olanlara kömək olsun!**

## *"Kollektiv həmrəylik hamının eyni cür düşünməsi deyil"*

**"İslamın "mülk allahındır" deyən ərəb kommunizmi olduğunu bizdən əvvəl də yazıblar. Bunun üstünə bir də "mülk dövlətindir" deyən siyasi kommunizmə urcah olduq. Mülkü allaha və dövlətə verən, biri dini, o biri siyasi olan hər iki kommunizm bununla sosial bərabərlik yaratmaq məqsədi güdürdü".**



Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib. Amma tam tərsi oldu; sosial bərabərsizlik kəllə-çarxa çıxdı, əvəzində şüur, dünyagörüşü, düşüncə bərabərliyi yarandı.Hər iki kommunizmdən bizə eyni dünyagörüşlü, eyni düşüncəli kollektiv həmrəylik, fərqli düşüncəyə qənim kəsilən sürü psixologiyası miras qaldı. Mal-mülk məsələsində allahı və dövləti unudan, yerdə qalan bütün məsələlərdə həmrəylik göstərən "eyniliyin cəhənnəmi". Kollektiv həmrəylik hamının eyni cür düşünməsi deyil, fərqli düşüncələrin bir-birinə tolerantlığıdır. Əgər təhqirə yol verilmirsə, ölkədə dəyər adına aparılan hər bir müzakirə bu eynilik cəhənnəminin qapılarının açılmasına xidmət edir. Kim bu müzakirələri özünə, dünyagörüşünə yaraşdırmırsa, getsin öz işləriylə məşğul olsun. Nə qədər ki fərdi və fərqli düşüncə dini və siyasi kommunizmin mirası olan bu boz kollektiv həmrəyliyə qurban veriləcək, ölkədə heç bir sahədə inkişaf olmayacaq", - deyə o, bildirib.

**Vasif ƏLİHÜSEYN**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Alnında Ay doğan adamla vida söhbəti

Ötən bazar günü, daha doğrusu, günün ikinci yarısında sosial şəbəkədə qarşıma bir xəbər çıxdı. Gördüm, inanmadım. Oxudum, inanmadım. Əlimi telefona atdım, güvəndiyim dostlardan birini aradım. Telefonun o biri başındakı səs gördüyümü, oxuduğumu təsdiqlədi. Çox kövrək və hüznlü bir səslə dedi:

- Çingiz də getdi...

Bəli, bu söz ildırım tək çaxdı, şimşək kimi parıldadı. Bir anın içində qayıtdım 1978-ci ilə. İlk dəfə Çingiz Əlioğlunu onda görmüşdüm. İlk dəfə onda qarşılaşmışdım. Düzünü deyəcəm, ilk qarşılaşmada çox ədalı, çox özündən məmnun təsir bağışlamışdı mənə. Hətta onunla bir az çəkinə-çəkinə söhbət etmişdim. Bu bir az təbii sayılmalıdır, çünki kənddən gəlmiş, orta məktəbi yenicə bitirmiş bir yeniyetməni ölkədə kifayət qədər tanınan və ölkənin yeganə televiziya kanalında həm də veriliş aparıcısı olan bir şəxslə üz-üzə dayanıb söhbət etməsi həm məsuliyyət idi, həm daxili bir gərginlik yaradırdı, həm də sevincin, fərəhin sıxıntısı da öz işini görürdü. Bu görüşümüzdən bir az sonra Çingiz müəllim məni o verilişə qonaq dəvət etdi. Bu, ömrümün ekrandan ilk təcəssümü idi. Onun sevincini mənə Çingiz Əlioğlu yaşatdı, o fərəh, o qürur adi zəhmət adamı olan valideynlərimə dünyanı bağışladı. Mən onların gözündə haralara qalxdım, onu ifadə edə bilmirəm...

Beləcə başladı bizim dostluğumuz. Və burda bir məqamı da əlavə edim. Həmin dövrün üç dostu var idi, onlar hər yerdə bir görünürdülər. Sanki bir evdə yaşayırmış kimi bütün tədbirlərdə, bütün görüşlərdə, bütün məclislərdə yanaşı dayanırdılar. Onlar əfsanəyə çevrilən dostlar, yəni Nüsrət Kəsəmənli, Çingiz Əlioğlu və Sabir Rüstəmxanlı idi.

Rəhmətlik Nüsrətin təşəbbüsü və Çingizin diqqəti məni də onların arasında görünməyə yaxınlaşdırdı. Nüsrət və Çingizlə daha sıx təmasım bizim ailələri də bir-birinə yaxınlaşdırdı. Yay fəslində bu iki dostumun ailələri bizim ocaqda istirahət edirdilər. Onların övladlarının ilk addımları bizim o kənd evinin həyətində, bağında, bağçasında naxışa, izə çevrilirdi. Məhz bu doğmalığa görə az qala bütün kənddə sevilən bir sakinə çevrilmişdi. Hamı səbirsizliklə yayı gözləyirdilər ki, şairlər qonaq gəlsin.

Onu da əlavə edim ki, Nüsrət də, Çingiz də sözün həqiqi mənasında özlərini bu evin, bu ailənin bir üzvü kimi aparırdılar. Bəzən olurdu ki, heç mənim xəbərim olmadan Çingiz və yaxud Nüsrət Vaqif Nəsibi, Nemət Veysəllini, Natiq Cabbarovu, Seyran Səxavəti, Hüseyn Arifi, Rəşad Məcidi, Aydın Uluxanlını, Vaqif Bəhmənlini, Mürad Köhnəqalanı, Umud Rəhimoğlunu, Mətləb Misiri... və daha kimləri özləri ilə birlikdə gətirirdilər Tuğa - bizim evə. Kənd də sevinirdi, bizim ocaq da sevinirdi. Mən isə bu dostların çevrəsində, diqqətlərində bir az da güvənli olurdum. Hətta ailə quranda məhz Nüsrət və Çingiz toy bazarlığında ən fəal iştirak edənlərdən oldular. Bu gün də yaddaşımızda o anlar xüsusi yer tutur.

Və günlərin birində Çingiz mənə növbəti kitabını bağışladı, sonra gülə-gülə dedi ki, bu kitab Moskvada da rus dilində çıxdı. Mən onu təbrik etdim. Çingiz bir az ciddi şəkildə dedi:

- Kitabın içinə baxmayacaqsan?

Mən də heç nə olmamış kimi evdə rahat oxuyacam, dedim.

- Evə gedənə kimi aç bax, gör içəridə nə yazmışam.

Təbii ki, Çingiz mənə bağışladıqları bütün kitablarında avtoqraf yazırdı. Düşündüm ki, yəqin yenə avtoqrafı yanında oxumağımı istəyir.



Amma yox, təkrar kitabı məndən aldı, vərəqlədi və açıq şəkildə özümə qaytarıb dedi ki, bax. Aldım, baxdım, gördüm ki, Çingiz mənə şeir həsr edib. Bu şeir onun "Alnında ay doğan adam" kitabında çap olunub. Burda da bir sevinc vardı, ilk dəfəydi ki, mənə şeir həsr olunmuşdu...

Bəli, mən Çingiz Əlioğlunu həyatımda ən güvənli, ən etibarlı, ən saf və sözünün sahibi bir kişi kimi tanımışdım. Onunla söhbət edəndə özümdən asılı olmadan bir az da həyata, mövzuya fərqli yanaşırdım, ciddiləşirdim. Hətta bir dəfə kitabımı özünün baş redaktoru olduğu "Gənclik" nəşriyyatının tematik planına əlavə etmək üçün ərizə yazmağımı istədi. Yazdım, aldı, oxudu, sonra imzamın üstündən qırmızı qələmlə xətt çəkib özümə qaytardı. Təəccüblə üzünə baxdım, çox ciddi bir şəkildə dedi:

- Mən Əlinin oğlu Çingizəm, sən Mədətin oğlu Əbülfət. Öncə onları təsdiqləyək, onların haqqını gerçəkləşdirək. Sonra...

Sözünü yarımçıq saxladı. Burda etiraf edim ki, həmin ana kimi mənim mətbuatda çap olunan bütün yazılarımda imza "Əbülfət Xəlqi" gedirdi. Məhz Çingiz Əlioğlunun o jesti təkcə özümün yox, həm də imzamın həyatını dəyişdi...

Qaçqınçılıq illərində Çingiz Əlioğlu işinin-gücünün çoxluğuna, xarici səfərlərinin sayına baxmayaraq, arayıb-axtarır, maraqlanır, məsləhətlərini, qayğısını əsirgəmirdi. Xüsusilə şənbə günləri zəng vururdu:

- Dur gəl, gedək bazara.

Artıq bilirdim söhbət nədən gedir. Gəlirdim əyləşirdim maşına, gedirdik. Ailə üçün həftəlik bazarlıq həll ediləndən sonra oturardıq Çingiz müəllimin "Nizami" kinoteatrının qarşısındakı mənzilində, özümüzə aid masanın arxasında, süfrə açılırdı. Bəzən saatlarla davam edirdi söhbətlərimiz, xatirələrimiz çözülürdü, xəyalən Tuğa gedirdik, olduğumuz yerləri birgə gəzirdik. Nüsrəti itirəndən sonra xeyli kövrək olmuşduq...

Ailəmin və dostlarımın yadında bir tarix də qalıb. Qarlı bir qış günü, yanvar ayının 1-i. Bakıda "Məxməri" deyilən bir restoran. 16 il bundan öncə. Mənim 50 yaşımı qeyd edirik. Çingiz çıxış edir, Dədə Süleyman, yəni Süleyman Abdullayev həzin-həzin oxuyur. Sonra Çingiz ondan üzr istəyib, özünəməxsus və heç vaxt unudulmayacaq səsilə oxumağa başlayır:

- Nar, nar, nargilə...

Çingizə Seyran Səxavət də qoşulur, Musa Yaqub da. Sonra Zakir Fəxri, Vaqif Bəhmənli, Umud Rəhimoğlu, Aqil Abbas...

Bəli, mən ötən bazar günü həmin ad gününün diskinə təkrar baxdım. Çingizin bağışladığı dəyərli qələmi əlimə götürdüm. İçərisində "Qardaşım Əbülfətə" sözü yazılmışdı. İlk dəfə tutdum o qələmi barmaqlarımın arasında. Elə bildim ki, Çingizin əlindən tutmuşam...

Bəli, mən həmişə dostların əlindən tutmuşam, həmişə dostlara güvənmişəm. Onların sayəsində nələrisə gəlib çatmışam. Amma dostlarım cismən dünyanı tərk edəndə məndən bir az da aparırlar özləriylə. Mən isə xatirələri saxlayıram, xatirələrlə yaşayıram. Onlarla görüşəcəyim günü səbirsizliklə gözləyə-gözləyə.

Əli oğlu Çingiz, sən indi Kəsəmənli Nüsrətin yanındasan, Natiq Cabbarovun yanındasan. Nemət Veysəllinin yanındasan. Yəqin ki, məni də səndən soruşurlar. Tuğda keçən günləri, anları yada saldınız. Mən bu yəqinliyin içində sizin yanınızdayam və sonda sənin və ordakı dostların ruhuna ehtiramla bu şeiri dilə gətirirəm:

*Kədəri qapımda gözlə, deyirdin.*
*Qoyma hakim olsun içəridə sənə.*
*Gizlət göz yaşını, gizlət deyirdin.*
*İndi kim deyəcək bunları mənə.*

*Sən sözün bətnində, söz də canında,*
*Kübarlıq üzürdü, vallah, qanında.*
*Kiçik görünürdü çoxu yanında*
*Hamının da əli çatırdı sənə.*

*Yerişin, duruşun, hətta səsin də,*
*Yox idi dünyanın heç bir kəsində,*
*Allahın insanlıq mərtəbəsində,*
*Tək idin, yek idin, sən idin bir dənə.*

*Saflığın, paklığın, bir də tamlığın,*
*İşində, sözündə tam adamlığın*
*Sən idin güvənib tamamlandığım*
*DOSTLUQ miras qoyub getdin sən mənə!*

Cənnətdəki ruhuna sayğılarla, salamlarla görüşənədək.

## İnsanlar başqalarının sözünü niyə kəsir?



**Ailə şam yeməyində, iş görüşməsində və ya dostlarla söhbətdə demək olar ki, hər kəs mütəmadi olaraq sözü kəsən və başqalarına fikrini tamamlamağa imkan verməyən bir insanla qarşılaşıb. İlk baxışdan bu, hörmətsizlik və ya nəzakətsizlik kimi görünsə də, psixologiyaya görə, bunun arxasında mürəkkəb səbəblər dayanır.**

Adalet.az xəbər verir ki, davamlı olaraq sözün kəsilməsi həmişə şüurlu davranış deyil. Çox vaxt bu, xarakter xüsusiyyətlərinə, əvvəlki həyat təcrübəsinə və ya hətta nevroloji xüsusiyyətlərə əsaslanan avtomatik reaksiyadır.

### *Bu, həmişə hörmətsizlik demək deyil*

Kommunikasiya üzrə mütəxəssislər bildirirlər ki, həmsöhbətin sözünü mütəmadi kəsən insanlar mütləq onu sıxışdırmaq istəmirlər. Bəzən onlar sadəcə olaraq öz fikirlərini dərhal bölüşmək istəyirlər və ya qorxurlar ki, növbəsi çatana qədər demək istədiklərini unudacaqlar.

Digərləri üçün isə söhbətə nəzarət etmək təhlükəsizlik hissi yaradır. Əgər onlar söhbətin gedişatını formalaşdıra bilirlərsə, özlərini daha az həssas və ya inamsız hiss edirlər. Çox vaxt bu, şüurlu strategiya deyil, illər ərzində inkişaf etmiş davranış modelidir.

### *Bunun arxasında uşaqlıq təcrübəsi də dayana bilər*

Psixoloqların fikrincə, ünsiyyət vərdişlərinin əhəmiyyətli bir hissəsi uşaqlıqda formalaşır. Əgər siz başqalarından daha sürətli və ya daha ucadan danışdığınız təqdirdə danışmağa icazə verilən bir ailədə böyümüsünüzsə, bu modeli böyük yaşlarınıza asanlıqla daşıya bilərsiniz. Belə hallarda söz kəsmək pis niyyətdən baş vermir, demək olar ki, avtomatik reaksiyaya çevrilir.

### *Bütün söz kəsmələr eyni deyil*

Kommunikasiya tədqiqatçılarının fikrincə, müxtəlif növ söz kəsmələri bir-birindən fərqləndirmək lazımdır.

Bəzən insan ona görə sözü kəsir ki, mövzu ilə o qədər maraqlanır ki, dərhal cavab vermək və ya razılığını ifadə etmək istəyir. Belə qısa söz kəsmələri bir çox dostluq və ya ailə söhbətlərinin təbii hissəsidir və mütləq söhbəti pozmur. Vəziyyət başqadır ki, kiminsə mütəmadi olaraq təşəbbü otmeti (təşəbbüsü) ələ keçirdiyi, başqa bir insana fikrini bitirməyə imkan vermədiyi və ya bütün söhbəti öz üzərinə çəkdiyi hallar olur. Həmsöhbət hiss edə bilər ki, ona qulaq asmırlar, onun fikri önəmli deyil və ya ona lazımi hörmətsiz yanaşmırlar. Nəticədə etibar azala bilər, ünsiyyət isə daha az dürüst və açıq olur.

### *Bu, DEHB (Diqqət əksikliyi və hiperaktivlik sindromu) ilə əlaqəli ola bilər*

Mütəxəssislər həmçinin qeyd edirlər ki, bəzi hallarda tez-tez sözün kəsilməsi DEHB ilə əlaqəli ola bilər.

Psixoloqların sözlərinə görə, DEHB-si olan böyüklər növbəsi çatanda söhbətin əsas xəttini itirməkdən tez-tez qorxurlar, ona görə də instinktiv olaraq sözü kəsirlər. Onlar üçün həmçinin uyğun anı gözləmək daha çətindir, diqqətləri daha tez yayılır və ya qəfil olaraq yeni mövzuya keçirlər. Bu hallar özlüyündə insanın DEHB-si olduğu demək deyil, lakin əgər onlar müxtəlif həyat situasiyalarında mütəmadi olaraq problemlər yaradırsa, mütəxəssisə müraciət etməyə dəyər.

## Səhvən efirə Kralın ölüm xəbərini verdilər

**Böyük Britaniyanın "Radio Caroline" radiostansiyası səhvən dinləyicilərə Kral III Çarlzın vəfat xəbərini elan edib.**

Adalet.az xarici mediaya istinadən xəbər verir ki, hadisə may ayında "The Barry Marsh Show" proqramının efiri zamanı baş verib. Efirdə 77 yaşlı Kralın vəfat xəbəri elan olunduqdan sonra milli himn səsləndirilib, bundan sonra təxminən 16 dəqiqə ərzində sükut olub. Bunun ardınca, proqramın aparıcısı dinləyicilərdən üzr istəyib və baş verənlərin texniki səhv olduğunu izah edib. Bildirilib ki, həmin hazır yazını təsadüfən studiya kompüterinin texniki xidməti ilə məşğul olan əməkdaş işə salıb. O, əvvəlcədən hazırlanmış audiofayllara giriş əldə edib və yazının canlı efirdə yayımlanacağını anlamadan maraq səbəbindən onları qoşub. Məlumata görə, əməlini dərk edən həmin əməkdaş faylın efirə verilməsini dayandırıb, panikaya düşüb və studiyanı tərk edib. İnsidentdən sonra faylları işə salan əməkdaşa töhmət verilib.

# Onun poeziyasında fikir tutumu

**İmzası Azərbaycan oxucusuna çox yaxşı bəlli olan, şəxsiyyəti təkcə dostlarına, doğmalarına deyil, eləcə də onu tanıyan hər kəs üçün dəyər kəsb edən , elə söz adamları var ki, onlarla şəxsi tanışlıq həmişə insanda xoş aura yaradır. Yəni birbaşa təmas həmin yaradıcı şəxsə sevgini, diqqəti birə-beş artırır. Bu mənada mənim Bakıya ilk gəlişimdən, yəni tələbəlik illərimdən bugünə qədər xeyli sayda bir-birindən dəyərli, bir-birindən duyqusal, həm də şəxsiyyət baxımından çox önəmli olan imza sahibləri ilə tanışlığım, yoldaşlığım, dostluğum olub və bu gün də davam edir.**



Həyatımda ən çox təmasım olduğu və bünövrəsi də tələbəlik illərində qoyulan bir doğmalıq var. O doğmalığın ,tam dəqiq ifadə etsəm bu doğmamın ünvanı indi Allah dərgahında, Cənnətdədi. Mən bütünlüklə buna inanıram və əminəm ki, poeziyamızın sevgi memarı Nüsrət Kəsəmənli həqiqətən bu gün Cənnətdə yaşayır. Onunla olan dostluğumun sayəsində həmin illərdə Nüsrətlə birlikdə olan Çingiz Əlioğlu və Sabir Rüstəmxanlı ilə də sıx bir münasibətim yarandı və zaman ötdükcə bu münasibət bizim ailələrin təmasına çevrildi...

Bu xatirənin yadıma düşməsinin səbəbi var. O səbəb də indi əlimdə tutduğum "Avand" kitabıdır. Kitabın müəllifi isə dostum, əzizim, Azərbaycanın söz məkanında kifayət qədər yeri olan Çingiz Əlioğludur. .

İndi əlimdəki kitabla söhbət etdiyim məqamda öz içimdə ötənləri xatırlasam da, amma şeirlərinin təsir gücü məni o illərdən çəkib bu günə gətirir. Kitab 2004-cü ildə işıq üzü görüb.

Kitabın içərisində Çingiz müəllim yenə həmişəki səmimiyyəti ilə "Əzizim Əbülfətə ən gözəl duyğularla. Ç.Əlioğlu. 31.01.05". Mən yazdığım yazılarda avtoqrafları təkcə mənə olan münasibətləri reklam etmək üçün yox, həm də zamanı diqqətə çatdırmaq üçün yazıya gətirirəm. İstəyirəm ki, oxucu həmin tarixlə bugünkü tarix arasındakı zamanı görsün, duysun. Çünki zaman ən böyük hakim, ən böyük söz sahibidi. Əgər illər münasibəti unutdurmayıbsa, deməli söz də unudulmayıb, söz də yaşayır. Axı ömür təkrar olmur. Elə Çingiz Əlioğlunun özünün də yazdığı kimi:

*bir ömürdü təkrar olmur bir əldi*
*verən verir, alan alır, can gedir.*
*vaxt təkəri təkid edir irəli*
*kim piyada kim də atlı çəng edir.*

*bəxtiyeyin atdan düşüb atlanır*
*əzilənin əldə teli çəngədir.*
*basılanın beli dibdən qatlanır*
*üzü gülmür duman gəlir çən gedir.*

*bəxti yatmış qaramatın axır ki*
*xırı batıb qarısı da dəng edir*
*bir gün səsə boylanıb da baxır ki*
*əzrayıldır qapı döyür zəng edir...*

Həqiqətən ömür təkrar olunmur, ömürdən ömür gedir, bu gedən ömür də özü ilə birlikdə insandan sağlamlığı da, həvəsi də, təpəri də, hətta həyata şövqlü münasibəti də alıb aparır. Ona görə də təkcə özünü yox, həm də çevrəni görmək, düşünmək, sabahı göz önünə gətirmək heç vaxt ziyan gətirməz.

Əksinə, səni nələrin gözlədiyini biləndə onda yaşamaq da , hətta ruhunu sözə çevirmək də daha mənalı və gözəl olur. Çingiz Əlioğlu demişkən, əzrayılın nə zaman zəng vuracağını bilməsək də, bu zəng qaçılmazdır. Belə olan halda dilində Yaradana şükürlər, ürəyində Allah bəndələrinə hörmət və diqqət gərək o qədər səmimi olsun ki, onda ruhun və ürəyin birgə diktəsi olan fikir misralara çevrilə bilsin:

***Allah, sənə qurban olum,***
***Nə böyükmüş lütfün sənin.***
***Yardı qara ormanları***
***Nur ziyalı zülfün sənin.***

***Çıxdım o sıx cəngəllikdən***
***Müqəddəs ehram yoluna.***
***Sürüşdü şeytan çiynimdən,***
***Mələklər girdi qoluma...***

***...Dizdə təpər ali oddur,***
***Düzəlir şeytan köləsi***
***Qaranlığı yarır, odur,***
***Alnında işıq haləsi...***

Yəqin ki, bu şeirin fəlsəfi tutumu artıq sizləri öz qoynuna alıbdır. Oxuduqca hiss etmisiniz ki, Allahın iradəsi nə qədər möhtəşəm və ona bəndə sayqısı nə qədər tükənməzdir. Elə bu qarşılıqlı sevgi və sayqı şairin də dediyi kimi, bəndəni ayaqda saxlayır, onu yıxılmağa qoymur.

Onun alnında, təbii ki, bu obrazlı ifadədi, onun həyatında işıq seli özünün bütün şəfqəti ilə hakim olur. Orda qaranlığa, zülmətə yer qalmır. Axı lütf Allahdan gəlir. Ona görə də Allahın iradəsi qarşısında ikinci iradəni düşünmək hətta özü belə günah olar.

Çingiz Əlioğlu yaradıcılığında mövzu rəngarəngliyi xüsusi əhəmiyyət kəsb edir. Yəni onun üçün ağac da, daş da, orman da, quru tənək də, hətta adi saman çöpü də mövzu ola bilir.

Əgər siz onun söz dünyasına üz tutsanız, mənimlə razılaşarsınız. Və onun da şahidi olarsınız ki, Çingiz Əlioğlunun mövzusu olan predmet onun qələmində canlıdır, dipdiridir, hərəkətdədi. Bu isə şeirin həm dinamikasına, həm də oxucu ilə təmas qurmasına həm təkan verir, həm də ovqat yaradır. Bu mənada:

***Gözümə toxunan yağış ağlayır,***
***Çağlayan dilimi dilin bağlayır,***
***Dağların bağrını dağım dalayır...***
***Güllər gülüşümü alıb apardı.***

***Əl verib əl tutan əllə əlləşir,***
***Dil açıb dilənən dinməz dilləşir.***
***Peşində durduğum pişik olub şir***
***Başına çəkdiyim əli qopardı...***

***Yayında ilandır, oxu əfidir,***
***Tale atdığını tanrı dəf edir.***
***İllərin ilməsi qaçıbdır nədir,***
***Sökülən ömrümdən sapın sap ardı.***

***Bu hana asanın kirkit-kərkisi...***
***Kəsilmiş arcaqdır, əriş sərgisi.***
***Bu alın yazısı, tale dərgisi***
***Yolumda çəpinə çökmüş çəpərdi.***

***Üzüldüm üzlərdən mən üzdən üzdüm,***
***Dərinə getmədim, hər dərdə dözdüm.***
***Çəlpəşik ömrümün ipini çözdüm,***
***Bilmədim heç məndə bu nə təpərdi...***

**Şeiri oxuduqca daxilən haldanhala düşür, özümü həmin o təsvir olunan, əslində həm də tərənnüm olunan məqamın içərisində hiss edirsən. Burda söhbət təbiətlə təmasda insan hisslərinin necə həssas və həm də yaşadığını ifadə etmək gücündə olduğunu da büruzə verir. Yəni mahiyyət etibarilə şeirin canında mən bir bütövlüyün, tutaq ki, bir ağacın həm də qol-budağını, yarpaqlarını da görmüş oldum. Gözümüzə toxunub ağlayan yağışdan tutmuş yayı ilan olan, bununla yanaşı, insanı üzməyə və həm də yaşatmağa istiqamət götürən prosesin canlılığı, diriliyi də nəzəimrdən qaçmadı. Deməli, kəsişən yollar, çəlpəşik düşən ömür ipləri bütün hallarda insanı həm qüvvətləndirir, həm də ondan təpər alır. Deməli, söhbət bədii sözün yükündən gedir. Bu yük də fikirdi. Mən Çingiz Əlioğlu şeirində hər zaman fikir yükünün tutumu qarşısında susdum. Elə bu gün də susuram...susuram...**

**Əbülfət MƏDƏTOĞLU**

Sabir RÜSTƏMXANLI

# Əlvida, Çingiz!

***Vətəndən kənardayam. Bu gecə səhərə yaxın yuxuda gördüm Azərbaycan Milli Dram Teatrında Məmməd Arazın xatirə gecəsinə toplaşmışıq. Tələsla məni axtarırlar:"Gəl,gəl, indi sən danışacaqsan".***

***Səhnə arxasına keçəndə gənclik dostum Çingiz Əlioğlunun səsini eşidirəm. Sap-sağlam, uca boyuyla dayanıb mikrafonun qabağında və çoxdan eşitmək arzusunda olduğum gur cavanlıq səsiylə danışır. Gör nə xoşbəxtlikdir,- deyirəm,-Çingiz sağalıb və hətta bu gecədə çıxış edir. Yana çevriləndə məni görür, gülümsəyir, nə dediyini eşitmirəm, amma birdən -birə çox da***



***hündür olmayan, sinədən gələn səslə çoxdan eşitmədiyim həzin bir mahnımızı oxumağa başlayır..***

***Salondan alqış yüksəlir. Çingiz Qarabağlıdır, səsi gözəl idi və biz üç dost hərdən baş-başa verib qədim xalq mahnılarımızı oxuyirduq. Ancaq Cingizin tək oxuduğu yadıma gəlmir. Bu mahnını dinləyə-dinləyə ayılıram. Yuxu danışmaq xasiyyətim yoxdur, amma nədənsə səhər yeməyi vaxtı səhərə yaxın gördüyüm yuxunu masadakı yoldaşlarıma danışıram, "ürəyim narahatdır, yəqin nə isə olub."- deyirəm.***

***Gündüz saat 3-də Seyran Səxavət zəng vürür: Çingizi hardan götürəcəklər? Və mən altmış illik əziz dostmun, görkəmli şairimizin vəfatından xəbər tuturam-vətəndən çox uzaqda. Sən demə o da səhərə yaxın bir nəğmə kimi uçub gedib***

***Çingiz Əlioğlu ilk şeirini 1967- ci ildə çap etdirmişdi. Ciddi yaradıcılıq yolu böyük şairimiz Rəsul Rzanın xeyir- duası ilə başlanmışdı. Şeirləri öz üslubu, ifadə tərzi ilə seçilirdi və buna görə də ötən əsrin axırı və bu əsrin əvvəlində şerimizin xorunda onun orijinal, təravətli, gur poetik səsi aydın eşidilirdi. Gənclər kitablarını sevə-sevə oxuyurdular.***

***Bütün ömrünü kitab nəşri işinə sərf etdi, Gənclik nəşriyyatında, Azərnəşrdə, Mətbuat və İnformasiya nazirliyində, xəstələnməzdən əvvəl Mədəniyyət nazitliyində çalışdı.Azərbaycanın Əməkdar Mədəniyyət xadimi idi. Ömrümüzün böyük bir hissəsini demək olaraq hər gün bir- birimizdən xəbər tutaraq yaşamışdıq. Çox sevdiyi Qarabağın azad torpaqlarında gəzə bilmədi, amma mən hər səfərimdən sonra sevincimi onunla bölüşürdüm. Xatirələrimiz bir kitaba sığmaz. Bənzərsiz, gözəl bir insan idi.***

***Ruhun şad olsun, əziz dost.***

***Əlvida, Çingiz!***

# Rusiyanın ən varlı qadınının biznes-imperiyası belə çökür...

**Rusiyanın ən varlı qadını və ölkənin ən böyük onlayn marketpleysi olan "Wildberries"in həmtəsisçisi Tatyana Kim biznesinin tarixində ən ciddi böhranla üzləşib.**

Adalet.az xəbər verir ki, bu barədə "Nyu York Tayms" məlumat yayıb.

Məlumata görə, iyulun ortalarından etibarən Ukrayna şirkətə məxsus 20-dən çox iri anbar kompleksini məhv edib və ya zədələyib: "Nəticədə təkcə anbar binaları deyil, həm də yüz minlərlə pərakəndə satıcıya məxsus milyardlarla dollar dəyərində mallar yanıb, məhv olub. Bu hücumlar müharibənin yeni mərhələsinə çevrilib və Vladimir Zelenskinin müharibənin nəticələrini birbaşa Rusiya cəmiyyətinə daşımaq, həmçinin Vladimir Putinə təzyiqi artırmaq cəhdi kimi qiymətləndirilir. Kiyevdə hesab edirlər ki, "Wildberries" qanuni hədəfdir, çünki platforma vasitəsilə yalnız Rusiya hərbçilərinin istifadə edə biləcəyi ikili təyinatlı mallar deyil, həm də mülki təyinatı olmayan sırf hərbi məhsullar satılır. Zərbələr artıq təkcə "Wildberries" şirkətinin özünə deyil, həm də Rusiyanın istehlak bazarına təsir göstərib. "Sberiindeks" araşdırmasına əsasən, son həftələrdə rusiyalıların marketpleyslər vasitəsilə satılan qeyri-ərzaq mallarına çəkdikləri xərclər kəskin şəkildə azalıb".

Qeyd olunub ki, "Data Insight" konsaltinq şirkəti "Wildberries"in itkilərini anbar sahələrinin üçdə biri və ümumi dəyəri 480 milyard rubl, yəni təxminən 5,9 milyard dollar olan mallar kimi qiymətləndirir.

## Çaylar quruyur, xüsusi nişanələr ortaya çıxır



**Almaniyanın Saksoniya torpağında anomal istilər səbəbindən çaylarda suyun səviyyəsi kritik həddə düşüb.**

Adalet.az xarici KİV-ə istinadən xəbər verir ki, suların çəkilməsi ilə çay yataqlarında keçmiş quraqlıq illərindən xəbər verən xüsusi nişanəli "aclıq daşları" görünməyə başlayıb.

Mütəxəssislər bu daşların ortaya çıxmasını gözlənilən məhsul qıtlığının göstəricisi sayırlar.

Elba çayındakı daşlardan birinin üzərində son 300 ilin quraqlıq tarixləri həkk olunub.

Oxşar vəziyyət Reyn, Şpree və Dunay çaylarında da müşahidə olunur.

Düsselldorf ərazisində Reyn çayında suyun səviyyəsi rekord həddə - 14 santimetrə qədər enib.



*Mirqiyas SEYİDSOYLU,*
*Polkovnik*

# EDƏMƏM TƏRK, FÜZULİ...

**(əvvəli qəzetin 15.08.2025-ci il tarixli nömrəsində)**

*Şəfayi-vəsl qədrin hicr ilə bimar olandan sor,*
*Zülali-zövq şövqün təşneyi-didar olandan sor !*

**(Allah sənə rəhmət eləsin böyük Füzuli!)**

**O, gündən bəri ƏRGÜNƏŞ dağının zirvəsindən burula-burula QARABULAĞ, (FÜZULİ) şəhərinə doğru qopub gələn bulud pənbəsi hələ də, hörümçək toru kimi şəhərin üzərində yuva qurmaqdan ötəri gah bozarır, gah da, qapqara qaralırdı.**

Getdikcə böyüyən qaraltı hər tərəfi öz rənginə boyamağı davam edirdi. Bu azmış kimi, şimal-qərbdə KİRS dağının buz bağlamış, qarlı zirvəsindən sovrula - sovrula QARABULAĞA doğru gələn ala - çalpovun şaxtası adamın iliyini dondururdu. Şəhər camaatı qaranlıq çökmüş, qarlı-şaxtalı küçə-bacaya çıxmağa üşənirdi. Hamı biri-birindən sual dolu baxışlarla soruşurdu.

**- Axı, bu hava niyə belə qarışıb ?**

**- Nədən belədir ?**

**- Xəbərlərdə bu barədə nə deyirlər?**

**- Görəsən bunları bilən varmı?..**

Hamı müəmmalı-müəmmalı çiyinlərini çəkir, verbal şəkildəəllərilə vəziyyətin müşgül oduğunu göstərirdi. Adamların əhatəsində dayanmış Ramiz birdən dedi, tapdım !

**- Nəyi tapdın ? Deyə yanındakılar soruşdu.**

**- Mən bilirəm, havanın bu vəziyyəti barədə kim bizə ətraflı məlumat verə bilər. Daha doğrusu kim, havanın belə olması barədə mükəmməl bilgiyə malikdir. Hamı bir ağızdan dedi. Kim?**

Ramiz, xəz yaxalı gödəkçəsinin zəncirbəndini bir qədər də yuxarı çəkib ona xüsusi yaraşıq verən qızıl dişlərini biri - birinə sıxaraq, Tembalan dedi.

**- Tembalan?**

**- Bəli, Tembalan də, bizim Telmanı deyirəm.**

Hamı bir ağızdan Ramizin dediklərini təsdiqlədi.

**- Hə Telman bilər...**

**- Ramiz:** - bir az əvvəl telofonla danışmışam. Dedi işdən çıxıb bir başa sarayın qarşısına gələjəm. Telman həqiqətən də savadlı və hər sahədə məlumatlı adam idi. Şəhərdə az-az adam olardı ki, Telmanı yəni Tembalanı tanımasın. Onu tanıyan və yaxından bələd olan adamların hamısı ona " ensiklopediya Telman " deyərdi. Söhbətin şirin yerində Telman sözünün üstünə gəlib çıxdı. Hamı Telmana xoş gəldin dedi.

**- Telman :** çox sağ olun. Xoş gününüz olsun...

**- Ramiz : -** Telman, qardaş şəhərimizin üzərini qara buludlar çöküb, adamlar təşviş içərsindədir. Bəlkə bunun nə olduğu barədə bizə məlumat verəsən...

Telman gülümsəyərək paltosunun yaxasındakı yarı qırmızı, yarı qaramtıl şərfini səhmana salaraq dedi. Xeyir nə danışırsınız. Yəqin sizin şəhər camaatı arasında baş verən hadisələrdən xəbəriniz yoxdur. İndi mən, bura gələndə gördüm ki, bir neçə ahıl, yaşlı adamlar əlləri gözləri üzərində göydəki " Quyruqlu ulduz " a baxa - baxa qarqış tökürlər.

**- " Quyruqlu ulduz ", o, nə olan şeydir elə ?!..**

**- Telman : -** "Quyruqlu ulduz", "Oort buludu ". Elmi adı Halley Kometi olan " Quyruqlu ulduz " insanlar tərəfindən tanınan ən məhşur göy cisimlərindən biridir. Əslində bu ulduz deyil ; o, buz, qaz və toz qarşığından ibarət kiçik kosmik cisimdir. Onlar günəşə yaxınlaşanda əriyir və parlaq quyruq əmələ gətirir. Qədim insanlar " Quyruqlu ulduz " ların görnüşünü Tanrı və digər ilahi qüvvələr tərəfindən onlara göndərilən xəbərdarlıq işarəsi kimi, qəbul edirdilər. Maraqlısı budur ki, bu xəbərdarlıq işarəsi hər zaman mənfi, yəni fəlakət əlaməti olaraq, insanlara bədbəxtlik gətirəcəyni deyərdilər. Bəlkə də elə buna görədir ki, " Fəlakət " sözünün bir çox dildəki qarşılığı Yunan dilində " Pis ulduz " sözündən qaynaqlanır. Qərbi Avropada yaşayan MASSAİLƏR üçün ulduzlar, QITLIQ yaşanacağının əlaməti idi. Cənubdakı ZULULAR isə ulduzu MÜHARİBƏNİN xəbərçisi hesab edirdilər. BALUBALAR isə quyruqlu ulduzun görünməsini LİDERLƏRİNİN öləcəyi kimi yozurdular. Quyruqlu ulduza qədim ÇİNDƏ daha sistemli yanaşma var idi. Hələ Miladdan 1400 il öncə ÇİNDƏ görünən quyruqlu ulduzlar müxtəlif əlamətə görə yozulardı. Məsələn üç quyruqlu ulduz dövlət üçün fəlakət xəbərçisi idi. Dörd quyruqlu ulduz isə YOLXUCU xəstəliklərin baş verəcəyi kimi yozulardı. Aparılan araşdırmalara görə " Quyruqlu ulduz " 76 ildən bir görünür. Sonuncu dəfə 29 aprel 1911-ci ildə görünüb...

Deyilənlərə görə bir də 2061-ci ildə görünəcək.

Qədim insanların adətlərinə görə " Quyruqlu ulduz " gördükdə onu söyüb yamanlayardılar ki, utanıb-çəkinsin, insanlara fəlakət gətirməsin. Həmin anlarda hamilə qadınları bayıra çıxmağa qoymazdılar ki, doğulacaq uşaq quyruqlu olar...

Şəhərin ən hörmətli ziyalı ağsaqqallarından olan Mirzə Bəhmən müəllim, Hacı Ələkbər məscidində həmyaşıdlar ilə " Şam " namazını yenicə qılıb məscidin qənşərinə çıxmışdı. Birdən göydəki " Quyruqlu ulduzu " görüb, öz - özünə pıçıldadı...Allah sənə lənət eləsin. Mərdimazar məxluq bu, haradan peyda oldu. Yanındakı ahıl yoldaşları Mirzə Bəhmənin qaralmış havanın buludları arasında görünən ulduza baxa - baxa yamanladığını görüb dedilər.

**- Mirzə nə olub belə, nə baş verir ?!**

**- Mirzə Bəhmən : -** mən, bu murdar və mərdimazar məxluqu birinci dəfə görəndə 11 yaşım var idi. Elə onda da bu ulduz beləydi ; iki gözü, haça quyruğu vardı. Görürsüz murdar gözlərilə bizə necə düşmən kimi baxır ?

Mənim yadımdadır, o vaxtlar bu quyruqlu ulduz görünəndə bütün şəhər camaatı çıxıb çölə onu söyüb yamanlayırdılar ki, çəkilib getsin. Yoxsa müharibələr olacaq. Atam Hacı Əsədulla, rəhmətlik tezcənək QURANİKƏRİMİ açıb gecədən səhərə qədər dualar oxudu ki, xəta-bəla bizdən sovuşsun.

Sonra müşgül-müşgül, Allah xeyir qismət eləsin deyib, salavat çevirdi.

**- O vədə bu zalım ulduz göründüyü gündən, uşaqlığımız da, gəncliyimiz də, müharibələr içərsində keçdi. Bir müddət bu nanəcib erməni daşnakları başımıza bəlalar gətirdi. Az sonra Musavat hökuməti quruldu. " Millətlərə azadlıq, insanlara hürriyət " dedilər. Musavat hökuməti yerini bərkitməmiş boşeviklər gəldi. Bolşeviklərin 1920-ci ildə yeni qurduqları Şura hökumətində baş verən Vətəndaş müharibələri, totalitar rejimin ölkədə yaratdığı qorxu, təlaş, sıxıntı, aclıq, səfalət, represiyalar, tüğyan edirdi. Bütün bunlar azmış kimi, daşnak Mikoyanın fitfas ilə lənətə gəlmiş Stalin camaatımızı dədə - baba yurd yerləri olan, İrəvan, Göyçə, Dərələyəz, Zəngəzur mahallarından qəddarcasına deportasiya etdi. Cəmiyyət arasında adamlar biribirilə söhbət etməyə çəkinirdi. Nəhayət, 1939-cu ildə II Dünya Müharibəsi başlandı. Sonra bu müharibə Böyük Vətən Müharibəsinə çevrildi. Müharibələrdə kütləvi insan qırğınları, adamların tanımadıqları saxta Vətən uğrunda canını fəda etməsi, yüz minlərlə Azərbaycanlının müharibədən geriyə dönə bilməməsi millətin faciəsi oldu...**

İndi də, belə....

Bu fitnəkar quyruqlu ulduz yenə gəldi həyatımıza. Mən, ömrümdə ikinci dəfədir ki, bu lənətə gəlmiş ulduzu görürəm....

Qap-qara bulud pənbəsi, oyalanaoyalana getdikcə böyüyür, qara caynaqlarılə şəhərin üzərinə çökürdü....

Qəzəblənmiş, hay-haraylı insan kütləsi küçələrdə qarma-qarışıq və idarəolunmaz şəkildə axışırdı. Uşaqdan böyüyə hamı başqalaşmışdı. Elə bil insanların içərisinə quyruqlu iblis girmişdi. Heç kim deyiləni eşitmirdi. Hər kəs elədiyi hərəkətlərdən fərəhlənir, özünü qəhrəman kimi görürdü. Məcrasından çıxmış selə bənzəyən insan axınının qarşısına heç kim ürək edib çıxa bilmirdi. Rayonun sayılıbseçilən, nüfuzlu müdrikləri belə onlara söz deməyə çəkinirdi ki, eşitməzlər. Sovet əsgərinin , Daxili Qoşun hissələrinin bölmələrindən, ard-arda düzülmüş zirehli texnikaların karvanı sürətlə şəhərin mərkəzinə doğru hərəkət edərək Raykomun qarşısında dayandı. O, dovürdə Rayon Komitəsinin Birinci Katibi vəzifəsini icra edən Tahir Quliyev hərbi hissə komandirini yanına çağırıb tapşırıq verdi ki, dərhal şəxsi heyəti və hərbi texnikaları şəhərdən kənara çıxarsın. Əks halda qəzəblənmiş xalq kütləsi daha da, qıcıqlanacaq. Hərbi hissə komandiri dərhal hərbi karvanı şəhərdən kənara çıxartdı.

Baş verən hadisələri kənardan müşahidə edən Rafiq Çöpçüyanın rəngi sap-sarı saralmışdı. Sarsıntıdan cücəyə dönmüş, pəhləvan cüssəli bu, erməni ünsürü, sarayın orta sütunları arasında yumaq kimi yumrulanıb dizi üstə çökmüşdü. Deyəsən o, hiddətlənmiş insan dalğasını gördükdə qaçmağa çalışıb. Ancaq qorxudan taqətdən düşmüş dizlərini qucaqlayıb tanrıdan imdad diləyirdi. Məni görüb uşaq kimi ürəkləndi və hönkürtüylə ağlamağa başladı.

**- Rafiq, sən, burada neyləyirsən, görmürsən vəziyyəti ?..**

**- Ağa, Seyid Əşrəfin cəddi haqqı, o, qızıllı qurana and olsun ki, sən, bir az da gec gəlsəydin bax, bu bıçaqla boğazımı kəsib özümü öldürəjəydim.**

Sən, nə danşırsan, durduğumuz yerdə bizi xəyanətkar daşnakların toruna salmaq istəyirsən?!

O, için - için ağlaya-ağlaya : - Allahın bir, ucuz ölümü lazımdır ki, məni öldürsün.

Neyləyim, haranın daşını salım başıma. Bu yaşdan sonra mən, hara gedim, kimin qapısını döyüb, deyim ki, gəlmişəm ??

**- Sənin yəqin ki, xəbərin var?!**

Zəngəzur mahalında sizin terrorçu, daşnak dəstələri orada yaşayan azərbaycanlıların başına olmazın bəlalarını açıblar.

**- Ağa, cəddin haqqı yatsam yuxuma da, gəlməzdi ki, belə günlərə gəlib çıxarıq.**

**- Niyə ki, sən, görmürsən sizin o, daşnak tör-töküntüləri nələr törədirlər ?!**

**- Allah onların bəlasını versin. Seyid Əşrəfin cəddinə sidq ürəkdən qurbanlıq qoç demişəm. Allah bu alçaq ermənilərin üzünü qara eləsin. Ağa, sənə qurban olum. Mənə kömək elə buradan gedim. Mən, istəmirəm ki, dünənə qədər bir yerdə qardaş olduğum adamların yanında üzüm qara olsun. Onsuz da hamınızın yanında xəcalətliyəm...Sənə qurban olum, bir maşın tap məni buradan apar. Elə et ki, məni görməsinlər...**

Bu zaman, rayonda tanınmış mədəniyyət xadimi Tofiq Zülfüqarovla, sarayın təsərrüfat müdri Ramiz Süleymanov bizə tərəf gəlirdilər...

**- Ramiz :-** Rafiq, sən, burada neyləyirsən ?!..

**- Ay, başı boş erməni, elə indicə səni bir dəstə uşağın əlindən alıb, ara yolu göstərib dəmədimmi ki, qaç get, səni görməsinlər...**

**- Tofiq :-** eybi yoxdur, narahat olmağına dəyməz. İndi mərkəzdə mitinq başlayıb baş qarışıqdır. Gəl gedək. Səni evə qədər aparararıq...

Rafiq Çöpçüyan hökür-hönkür ağlaya-ağlaya həmyaşıdları olan Tofiq və Ramizlə sarayın arxa qapısına doğru getdilər...

**- Rafiq : -** Çox sağ ol Ağa, Seyid Əşrəfin cəddi köməyin olsun....

Qəzəbli şəkildə irəliləyən etrazçılar, yumruqlarını havada düyünləyərək, plakat və şüarlarla Hərbi Komissarlığın yoxuşundan, Hacı Ələkbər Məscidinin meydanından, Rüstəm Əliyev küçəsinin dikindən, Şəlalə restoranının qarşısından, poloklikanın enişindən və İman bağı tərəfdən böyük çılğınlıqla çağrış və şüarlar deyə-deyə rayon Partiya Komitəsinin qarşısına doğru irəliləyirdilər. Şəhəri bürümüş minlərlə insan kütləsi elə coşqunluqla hərəkət edirdi ki, heç kim, onların qarşısını dayandırmağa ürək etmirdi. Gözü qızmış insan kütləsi, " Qarabağ bizimdir, bizim olacaq. ", " Biz ölərik Qarabağı vermərik ! ", " Torpaqdan pay olmaz ! ", " Qara-bağ !", " Qa-ra-bağ !"

Hiddətlənmiş etirazçılar kütləsi tribunanın qarşısında acıqlı şəkildə ucadan şüarlar deyir, qışqırırdılar !

Birinci katibin vəzifələrini icra edən, Tahir Quliyev tribunaya qalxdı. O, mərkəzə bərkidilmiş mikrafona yaxınlaşıb, sakit təbiətilə etrazçılar dalğasına dərindən nəzər yetirib, təmkinli şəkildə çıxışa başladı : Əziz və hörmətli Füzuli camaatı !

Bacılar və qardaşlar !

Milli həmrəyliyin nümunəsi olan, ləyaqətli və təəsübkeş Vətən övladları !

Mən, bu gün, dədə-baba torpağımız olan, qədim QARABAĞIMIZA göz dikmiş dırnağarası qonşularımızın separatçı əməllərinə qarşı etiraz əlaməti olaraq sizin keçirdiyiniz bu etraz, toplanışını ürəkdən alqışlayır və uğurlayıram ! Etrazçılar arasında böyük uğultu və alqış sədaları yüksəldi.

Tahir Quliyev, yumruğunu düyünləyib havaya qaldıraraq, dedi : QARABAĞ bizim dədə-baba torpağımızdır. Biz onu heç kimə verməmişik və heç bir zaman verməyəcəyik. Heç kim QARABAĞI bizdən ala bilməz. Əgər, kimsə bu gün, burada yaşamaq istəmirsə gedə bilər. (yelərdən alqış sədaları eşidilir)

**(ardı var)**

## *Bu içkilər gələcəkdə yüksək təzyiqə səbəb ola bilər*

**Uşaqlıq və yeniyetməlik dövründə müntəzəm olaraq şəkərli içkilər, qazlı içkilər, enerji içkiləri və meyvə şirələri qəbul etmək gələcəkdə yüksək təzyiq riskini artıra bilər.**

**Adalet.az xəbər verir ki, Amerika Ürək Assosiasiyasının "Circulation" jurnalında dərc olunan 25 illik araşdırmada erkən yaşlarda formalaşan qidalanma vərdişləri ilə yetkinlik dövründə ürək-damar sağlamlığı arasındakı əlaqə araşdırılıb.**

**Toronto Universitetinin alimlərinin apardığı tədqiqatda 25 mindən**



**çox insanın məlumatları təhlil edilib.**

**İştirakçılar illər ərzində qazlı içkilər, limonad, şəkərli çay, enerji içkiləri və meyvə şirələrindən istifadə tezliyi barədə məlumat veriblər.**

**Nəticələrə görə, gündə iki və ya daha çox şəkərli içki qəbul edənlərdə yüksək təzyiq riski həftədə üç dəfədən az belə içkilər istehlak edənlərlə müqayisədə 52 faiz daha yüksək olub. Ayrı-ayrı içkilər üzrə də diqqətçəkən nəticələr əldə edilib.**

**Gündə bir banka qazlı içki içmək yüksək təzyiq riskini 23 faiz, bir enerji içkisi qəbul etmək isə 36 faiz artırıb.**

**Meyvə şirəsinin də tamamilə zərərsiz olmadığı müəyyənləşib. Gündə yarım stəkandan çox meyvə şirəsi içənlərdə yüksək təzyiq riski 35 faiz artıb. Xüsusilə gündəlik portağal şirəsi istehlakı 20 faizlik risk artımı ilə əlaqələndirilib.**

**Araşdırma zamanı meyvə şirəsini təzə meyvə ilə əvəz etməyin isə daha faydalı olduğu müəyyənləşib. Belə dəyişiklik yüksək təzyiq riskini 19 faiz azalda bilər. Gündəlik şəkərli içkinin təzə meyvə ilə əvəzlənməsi isə riskin 22 faiz azalması ilə əlaqələndirilib.**

**Şəkərli içkilərin su və ya südlə əvəz edilməsi də yüksək təzyiq riskini 13 faizə qədər azalda bilər.**

**Mütəxəssislər uşaqlıqdan etibarən sağlam qidalanma vərdişlərinin formalaşdırılmasının vacibliyini vurğulayırlar.**



Qəşəm İSABƏYLİ

# ƏZRAYILIN TANIMADIĞI ADAM

(hekayə)

Elə ki, ev işləriylə bağlı bir çətinlik çıxır qarşıma, əlüstü Usta Söhrabı tapıram.

-Xeyirdimi, müəllim?

-Şərə lənət, ay Söhrab! Dəmirçi lazımdı mənə. Sən Allah çalış, halal süd əmmiş olsun!

-Müəllim, indi halal südəmmişdən törəyənlərin çoxu zay çıxır. Ancaq bir dəmriçi tanıyıram, əslən Zəngilanlıdı, Qarabağ müharibəsindən qabaq Xankəndinin yaxınlığında - Kərkicahanda yaşayıblar. Bilmirəm milləti nədi, amma görəcək də adı var - nə Azərbaycan türkcəsinə uyğun gəlir, nə kürdcəyə.

-Də, bəlkə kimliyini tapdım?

-Adı Misardı.

-Həəə... doğrudan da görəcək adı var. Yox, başım o dərinliyəcən işləməz. Neyləyək, Misardı, Misar olsun! Təki adı özünə, əlinin dadı bizə qalsın.

Elə səhəri gün Misar gəlib çıxdı. Orta yaşlı, bəstəboy, dolubədənli, gülərüz bir kişiydi. Ətəyi kəmərindən çıxıb şalvarının üstünə düşən köynəyinin qolları əlinin baş barmağınacan sallanırdı. Hiss olunurdu ki, bir az səliqəsahmansızdı. Salam verməyiylə özünü açıb tökməyi bir oldu:

-Birinci Qarabağ müharibəsi qazisiyəm, müəllim. Ona görə demirəm ki, qədrimi biləsiniz. Tanış olmaq da, vəsiyyət eləmək kimi yüngüllükdü! İki qardaş, bir ata əvvəldən axıracan Qarabağda can qoymuşuq.

-Soruşmaq eyib olmasın, bu nə addı, ay Misar, veriblər sənə?!

-Müəllim, mənə qədər beş oğlan doğubmuş anam. Yazıqlar da bir yaşına çatar-çatmaz valideynlərimin ürəyinə dağ çəkirmiş. Atam da axırda hirslənib deyir, bu səfər də oğlan doğ, söz verirəm ki, qoymayacam bizi peşman eləsin!

Anam mat-mat baxır atamın üzünə:

-Ay kişi, peyğəmbərlik eləmə!

-Deyirəm da sənə!

Anamın karxanası da ənənəni pozmur, bu dəfə də konveyerdən oğlan zühur eləyir.

-Dünyaya, xoş gəlmisən, ay Misar! - Atam məni boyu bərabəri qaldırıb, boynumu-boğazımı iyləyir.

-A kişi, Misar nədi?

-Bu oğul balanın adı!

Anam zarıya-zarıya etiraz eləyir:

-Ətin tökülməsin, camaatı bizə güldürmə! Uşaqlar bunu lağa qoyacaq, vallah. - Mişar gəldi, Mişar getdi.

-Nə deyirlər desinlər, təki qardaşlarının dalıyca getməsin! - Anam ölüm-dirim söhbətini eşidən kimi "xırp..." səsini kəsir. - Ona görə belə ad qoymuşam ki, Əzrayıl öldürəcəkləri adamlar haqqında Allaha hesabat verəndə çaşsın.

Axı "Misar" türk adı deyil. Əzrayıl da Allahın qəzəbindən qorxduğu üçün deməyəcək, bir türkün də canını alacam.

Doğrudan da, necə ki, indi görürsünüz, 50 ildir, Əzrayıl məndən xəbərsizdi! Heç müharibədə də girəvə tapmadı məni qardaşlarımın yanına göndərsin. Burnumun ucu belə qanamadan sağ-salamat çıxdım odun-alovun içindən...

Belə şirin-şirin danışan Misar, darvazanın yarı xərcini alıb, ətli-gombul barmaqlarıyla asta-atsa sayıb, təbəssümlə üzümə baxdı:

-Halal elə, müəllim!

-Halal xoşun olsun!

Pulu qoydu cibinə. Əvəzində yağlı bir vədə ilə mənimlə xudahafizləşdi:

-Salamat qalın, əziz insan, 10 günəcən darvaza bəzəkli gəlin kimi gəlib durmasa hasarınızın çərçivəsində... - üzümə baxdı. Mən də sual dolu nəzərlərimi dikdim onun ağzına. - Niyə soruşmursunuz nə olacaq?!

-Nə olacaq?

-Adımı dəyişəcəm!

-Dəyişmə.

-Niyə?!

-Əzrayıl gəlib tapar səni!

-Ha-ha-ha... yaman dediniz, ha, müəllim!

-Ay Misar, öz aramızdı, de görüm, cəbhədə papağını günə yandırmamısan ki?!

-Nə danışırsınız, müəllim?! Kəşfiyyatçıydım, erməniceni yaxşı bildiyimdən iki gündən bir ya danaboyun eləyib "dil" gətirirdim, ya da aldadıb salırdım tora. Amma sonralar bu fədakarlığımın bəhrəsini görməyəndə it peşmanı oldum. Hirsimi tökdüm "Cəbhə gündəliyi"min üstünə - kibrit çəkdim... cırradan çıxdı.

-"Gündəliyi" yandırmaqda səhv etmisən.

-Gücüm ona çatdı, müəllim! Axı hələ də qazi sənədini vermirlər mənə. Burnuna barıt iyi dəyməyənlərin ürəyi döyünəndə, sinələrinə düzdükləri orden-medalın çaqqıltısından qulaq batır. Gəl ki, mən hələ də "qazi" sözünə tamarzıyam.

-Niyə?

-Pul istəyirlər.

-Palaza bürün, elnən sürün!

-Müəllim, mənim vicdanım qəbul eləməz ki, döyüşüb, vuruşub, gündə yüz dəfə ölübdirildiyim cəbhədə olmağımı təsdiq eləyən kazğızı pulnan alım.

-Ay Misar, ölüb-dirildiyin epizodlardan birini danış, hekayədən-zaddan düzəldim.

-Müəllim, hansını deyim, birdimi-ikidimi?! Həəə... Şuşa yaxınlığında əlbəyaxa döyüşdən sonra on beş əsgərdən üç nəfər qalmışdıq. Mən idim, Kürdəmirli Vahid Sərxanoğluydu, bir də adını unutduğum Bakılı balası - doqquz bacının tək qardaşı. Düşmənin sipər kimi çəkdiyi güllələrin arasından keçib, Şuşa türməsinin divarına sığınmışdıq. İnan, müəllim, ölümün ovcundaydıq. Amma minamyotların işığı Əzrayılın gözünə necə düşürdüsə, yerlə-göy arasında çaşıb qalmışdı, görə bilmirdi bizi. Biz isə bərk həyəcana düşmüşdük. Vahid də özümüzə ürək-dirək vermək üçün atası Molla Sərxanın məzəli söhbətlərindən danışmağa çalışsa da, nə dili söz tuturdu, nə də bizim qulağımız eşidirdi.

Birdən minamyotla bizi vurdular. Xoşbəxtlikdən mərmi divarı tutdu. Toz dumana qarışdı. Doqquz bacının tək qardaşı əvvəlcə diksindi, sonra nə fikirləşdisə, "Qaçmaq da igidlikdəndi" deyə, qəflətən ayağa durdu.

-Adə, otur! - Vahid çığırdı.

Yapışdım ətəyindən:

-Yerimizi ermənilərə nişan vermə, qağa!

-Yox, - deyə dartındı. Mənə güc gəlməyindən hiss elədim ki, dəli olmaq dərəcəsinə çatıb. Elə bil bir saat əvvəl gözünü qan tutmuş, şir kimi döyüşən bu deyildi: "Baxın, doqquz bacının tək qardaşı, görün, düşmənin başına nə od ələyir!"...

Doğrudan da sığınacağa girməzdən əvvəl divar boyu erməni meyitlərinin tökülüb qaldığını görmüşdük. Elə özümüzün də itkimiz az deyildi. Tək bir ağacın altında 12 cavan ölüm sükutuna dalmışdı. Düşündüm - müharibə ölüləri sevmir, onları tapdayıb keçir...

-Burax məni! -Doqquz bacının tək qardaşı sıyrılıb, çıxdı əlimdən. 10 metr getməmiş vurdular. Ağzı üstə yıxıldı.

Bayaqdan öldüyümüzə əmin olan ermənilər sağ qaldığımızı görüb, üstümüzə od ələməyə başladı. Birtəhər sürünə-sürünə əks tərəfdən - kol-kosun altından çıxıb, özümüzünkülərə sarı getdik.

Bir də onu gördüm ki, qarşıdan qaratikan yığılmış araba kimi ləngər vura-vura bir nəfər gəlir. Diqqətlə baxanda gördüm atamdı. Kişinin gözləri kəsilməyə aparılan mal gözləri kimi bərələ qalmışdı. Hətta gəlib yanıma çatanda belə üzümə baxsa da, məni tanımadı.

-Ay bala, deyirlər Misargili vurublar, bilmirsən hardaydılar?

-Həəə... dayı, türmənin divarının yanındadı meyitləri, - dedim.

Atam tüfəngin ağzından güllə çıxan kimi tərpəndi.

Durub, dalıyca baxmağa başladım. 30-40 addım getməmiş dayandı. Hiss elədim ki, ağlı üstünə qayıdıb. Çevrilib, mənə tərəf gəldi:

-Adə, köpəyoğlu, məni arıya qoymusan?!

-Dədə, vallah, səni sınayırdım!

-Nəyimi sınayırdın, yaramaz?!

-Deyirdim, görüm ölməyim sənə necə təsir eləyəcək!

Qucaqlaşdıq...



Zeynəb ƏLİQIZI

# İnsan - bir məzar daşıdır...

(esse)

**(Dənizi seyr edərkən...)**

Həyat dənizinin dalğaları sahili sevmirmiş. Xışıldayan, köpüklənən, azalıb-artan dalğalar hər dəfə sahilə çarpanda ondan nəsə ən yaxşını qoparıb özünə qatmağa, özüylə aparmağa çalışır. İçindəki bədbinliyi, "qara"nı, çirki isə özündən elə bu dalğalarla uzaqlaşdırıb sahilə tullayır. Bu böyük nəhrin içində çalxalanan, köpüklü suların üstündə atlanıb-düşən hər şey isə sanki canını o dalğaların şiddətindən qurtarmağa çalışır.

Dənizə baxırsan... Durub-durub özünü birdən o dalğaların qoynuna atmağın keçir ürəyindən. Amma... Bu "amma" səni saxlayır. Düşünürsən ki, o boyda nəhrin içində sən bir damla da deyilsən ki, o sulara qarışasan - olsa-olsa, içindəki həşəratların və ya yad cisimlərin biri ola bilərsən ki, dəniz titrəyə-titrəyə, coşub daşaraq səni sahilə çırpmağa cəhd edər. Amma hansı sahilə? Durduğun sahiləmi? Birdən dənizin "kefinə" düşər ki, səni bu sahilə deyil, tam bir özgə sahilə aparıb tullamaq istəsin. O sahil də ki... dənizə yaxın olsa da, sənə xeyli uzaqdır, əlçatmaz, ünyetməz yad bir məkandır sənin üçün və sən oraları heç görməmisən, tanımırsan...

...Sənin ətrafındakı yaxınların, doğmaların da elə o dənizkimi "düşünür" bəzən. Səni özgə sayır, sənə yadlaşır...

...Sularında üzdüyün, çimdiyin və ya sadəcə, içərisində qapanıb qaldığın həyat nəhrinin dalğaları da günlərin bir günü səni eynən bax, bu dəniz kimi özündən uzaqlaşdırmağa çalışır içindən, özünü "saflaşdırmaq" niyyətinə düşür sanki. Nə baş verir o zaman? Gicəllənə-gicəllənə düşünürsən ki, əcəba, bir zamanlar belə deyildi axı! Yəni... bu doğmaların hamısı doğmaydı mənə axı...

...Məsələn, bir zamanlar oğul lap körpəydi, süd əmirdi, sənin isti qoynunda mışıl-mışıl yatırdı, sən də qucağında qayğı ilə onu bəsləyirdin. Nəfəsindən kəsib ona nəfəs verirdin... Sonra oğul böyüdü, səninlə dostlaşdı, amma bu dostluq mənfəətə çevrildi, düşündü ki, mənə ayırdığın pay və ya mülk qardaşıma və ya bacıma düşən paydan azdır... Və oğul səni bəyənmədi...

Olur ki, bir naxələf övladın anası yanıb-yaxılanda belə düşünür: "Kaş ki, səni doğunca bir daş doğaydım"... Amma ana bunun fərqində deyil ki, o "daşı" artıq doğub - əlli-ayaqlı, qaşlı-gözlü, hərəkətli, danışıb-gülən, yeriyən... bir daş; duyğuları, qəlbi - bütün varlığıyla daşdan seçilməyən bir daş... Bəlkə də, o daş elə sənin baş daşındır, ay ana, məzarın üstündə duracaq, gəlib-gedənə baxacaq, ağlayanların göz yaşlarının şahidinə çevriləcək. Həm də ən ağrılısı, bundan o yanı ola bilməyəcək... yəni laldinməz donub duracaq...

Eh, nə çoxdur belə məzar daşları... Həyat dənizinin ləpələrinin oynatdığı, günahlı və ya günahsız, kimsəli və ya kimsəsiz varlıqların başlarının üstündəki hissiz-duyğusuz daşlar...

Qızğın müharibələrin sonunda buza dönüb hərəkətsiz, lal-dinməz duran daşlar, qocalıb əldən düşən, kimsəyə gərək olmayan daşlar, fitnə-fəsada tuş gəlib həyatını doya-doya yaşaya bilməyən yarımçıq ömür daşları...

Bu daşların ən körpəsindən tutmuş lap yaşlısınadək hamısı könül dağıymış amma. Mənasız çarpışmaların sonuymuş bəzən. İnsanın iç duyğularının bir andaca donması, yox olub, itib getməsiymiş bu soyuq məzar daşları.

Həyatın içinin-çölünün, altının-üstünün hamısıdır o daşlar. İsti, hərarətli, fədakar könüllərin narahat qəlb çırpıntılarından tutmuş buz bağlayan, hissiz-duyğusuz, yalnız yemək və yatmaq üçün dünyaya gələnlərin də baş daşlarıdır o daşlar... Bəzən yad bir insan üçün canını belə, əsirgəməyən könüllərin dağıdır o daşlar...

Demə, biz elə daşdan doğulub gəlmişik, bir-birimizə çırpıla-çırpıla, ovxalana-ovxalana, qırıla-qırıla vaxt keçirmişik və bu vaxtın adını ömür qoymuşuq...

Demə, daşın daşla toqquşduğu zaman həyat nəhrinin içindən çıxıb qumsallıqda yan-yana düzülmüşük və bizi günəş qaraldıb...

Demə, insan bir məzar daşıymış, tənha, yalqız, kimsəsiz...

# Psixoloqlara görə nankor insanlar bu 4 cümləni daim təkrarlayırlar

**Psixoloqların qənaətinə görə, bəzi insanlar münasibətlərdə etdikləri yaxşılıqları daim gündəmə gətirərək qarşı tərəfin özlərini borclu hiss etməsinə səbəb ola bilərlər. Mütəxəssislər bildirirlər ki, müəyyən ifadələrin davamlı təkrarlanması həmin şəxsin qarşı tərəfi günahlandırmasına, daim tərif gözləməsinə və özünü qurban roluna qoymasına gətirib çıxarır. Bu cür yanaşma zamanla münasibətlərdə etimad və tarazlıq problemlərinə yol aça bilər.**

### *"Heç kimin olmayanda mən yanında idim"*

Adalet.az xəbər verir ki, "Heç kimin olmayanda mən yanında idim" ifadəsi insanın keçmişdə etdiyi fədakarlıqları daim xatırladaraq qarşı tərəfdən əvəz gözlədiyini göstərə bilər. Bu ifadəni işlədən şəxslər keçmişdə verdikləri dəstəyi bir növ borc kimi təqdim edərək qarşı tərəfin özünü günahkar hiss etməsinə səbəb ola bilərlər. Xüsusilə çətin anlarda göstərilən dəstəyin daim xatırladılması münasibətdə qarşılıqlı anlaşmadan daha çox bir hesablaşma mühiti yarada bilər. Minnətdarlıq gözləntisinin təzyiqə çevrilməsi münasibətin sağlam qurulmuşuna da xələl gətirə bilər.

### *Çatışmayan cəhətlərə köklənirlər*

Nankor davranış sərgiləyən insanlar sahib olduqları dəyərləri qiymətləndirmək əvəzinə, çox vaxt çatışmayan cəhətlərə diqqət yetirirlər. Onlar özləri üçün edilən yaxşılıqları və təklif olunan imkanları arxa plana keçirir, edilməyənləri daha çox önə çəkə bilirlər. Bu yanaşma insanın ətrafından gördüyü dəstəyi yetərli hesab etməməsinə və münasibətlərində daim narazılıq yaşamasına səbəb ola bilər.

### *"Bizə borclusan"*

"Sənin üçün bu qədər şey etdik, bizə borclusan" kimi ifadələr edilən yaxşılıqların qarşılıq gözləntisi ilə əlaqədar olduğunu göstərir. Birinə dəstək olub, daha sonra bu dəstəyi qarşı tərəf üzərində bir təzyiq vasitəsi kimi istifadə etdikdə münasibətin tarazlığı pozula bilər. Edilən fədakarlıqların daim xatırladılması qarşı tərəfin özünü sərbəst hərəkət edə bilmədiyi bir münasibət içində hiss etməsinə səbəb olur.

### *"Təşəkkür etmirsən"*

**"Sənin üçün nəsə edirəm, amma heç təşəkkür etmirsən" cümləsi isə daim tərifləmək və qiymətləndirilmək gözləntisini ortaya qoyur. Edilən yaxşılıqdan sonra təşəkkür edilməsi təbii olsa da, bunun daim tələb olunması münasibətin səmimiyyətinə zərər vura bilər. Psixoloqların fikrincə, göstərilən köməyin və fədakarlıqların daim qarşı tərəfə xatırladılması zamanla sevgi və həmrəyliyin yerini hesablaşma anlayışının almasına gətirib çıxara bilər. Buna görə də sağlam münasibətlərdə edilən yaxşılıqların müqabilində daim minnətdarlıq gözləmək əvəzinə qarşılıqlı hörmət və anlaşmanın qorunması böyük əhəmiyyət daşıyır**



Rafiq ƏLƏKBƏR

# Lalay, lalay

(sərbəst esse-poema)

Biri vardı, biri yoxdu,
Biri gəldi, biri getdi,
Biri öldü, biri dirildi,
Bəzi adlar yer üzündən silindi,
Dünyada yeni adlar doğuldu.
Amma meşələrin ortasında yerləşən
bir kənddə doğulan yeni uşağa
ad tapa bilmirdilər.
Axırda bu uşağın valideynləri, qohumları
gedib qonşu kənddə Cəfərin həyətində olan
alça ağacına əski parçaları bağladılar ki,
uşağın adı onların yadına tez düşsün.
Axır ki, bu uşağa bir ad qoydular.
Sonralar bu uşaq necə böyüdüsə,
hansı mərdimazarlıqlara əl atdısa,
əsl adı hamının yadından çıxdı.
Hamı onu "alçaq" deyə çağırırdı.
Sonralar özü də alçaqlığı ilə fəxr etməyə başladı.
Alça ağacına bağlanan əskilərin sayı çox olduğuna görə,
alçanın magiyası öz gücünü qədərindən artıq göstərmişdi.
Lalay, lalay
lalay, lalay...
Biri vardı, biri yoxdu,
biri gəldi, biri getdi,
amma göydən alma düşmədi.
Bu kənddə çoxlu qarımış qızlar var idi,
Bir gün bu kənddə ağıllı, namuslu qarımış qızlardan
Qızyetər adında birisi bəxtinin açılması üçün
qonşu kənddə yaşayan Molla Cəbiyə müraciət etdi.
Molla Cəbi qıza elə bir dua yazdı ki, qız elə
həmin gün mollanın əlli yaşlı oğluna nişanlandı.
Kənddə bütün qızlar Qızyetərə paxıllıq etməyə başladılar...
Qızyetər nişanlandığı üçün ondan
aralı durmağa çalışırdılar.
Mollanın qələmi ilə Qızyetərin bəxti elə açıldı ki,
kənddə qoz Əhmədin qoz ağacları urvata mindi.
Qarımış qızlar özlərini naza qoyaraq "qız ağacı, qoz ağacı"
deməyə başladılar.
Ərə gəməyə çıxış yolu tapmışdılar,
günlərin bir günü mollanın qələmi
onların da karına gələ bilərdi...

Lalay, lalay,
dalay, dalay,
bu kənddə üçüncü arvadını boşadı Mirzəbala,
hansı səbəbdənsə onun aldığı arvadlar
oğlan doğa bilmirdilər,
kənddə hamı Mirzəbaladan çəkinirdi, ona Mirzəbala yox,
Mirzəbəla deyirdilər.
Belə çıxır ki, hamının öhdəsindən gələn Mirzəbala
arvadlarının öhdəsindən gələ bilmirdi.
Yazıq arvadlar Mirzəbalanaın üzünə baxmağa
utanırdılar.
sanki onlar dünyanın ən böyük
günahını etmişdilər.
Qayınanaları da Mirzəbalaya söz deyə bilmirdilər,
çünki Mirzəbala da Mirzəbəla idi.
Onunla zarafat etmək qorxulu idi.
Lalay, lalay,
Sözlərim də dalay, dalay.
Yenə zəng vurub borc istədi məndən
Gülbəniz xala.
Dedi ki, həyətdəki inəyi satacaq,
Az müddətə borcunu qaytaracaq.
Mən Gülbəniz xalaya "yox" deyə bilməzdim.
Ancaq fikirləşdim ki, onun mənə olan
borclarını qaytarmaq üçün bir inək yox,
heç beş inəyin də pulu kifayət etməzdi.
Ancaq mən Gülbəniz xalaya "yox" deyə bilməzdim.
Deyirlər ki, mən uşaq olub xəstələnəndə
mənim bu halıma dözməyib ağlayırmış.
Universitetə girəndə muştuluq kimi
cibimə 10 manat pul qoymuşdu.
Həm də məni çox istədiyindən, tapşırdı ki,
nəbadə orada şəhər qızlarına vurulasan.
Öz qızını mənə verəcək,
lakin mən onun tapşırığına əməl etmədim.
Qızı isə bir alman oğlanla tanış olub, evləndi,
Almaniyaya köçdülər.
Mənə şəhər qızını almağı qadağan edən Gülbəniz xala
öz qızını xarici oğlana verməsi ilə fəxr edirdi.
Daha o, mənimlə qız söhbəti etmirdi,
ancaq borc istəməyini tərgitmədi...

Lalay, lalay,
dalay, dalay...
Bu gün səhər-səhər mənə zəng vurdu şair Balay,
Dedi ki, mənə şeir həsr edib, oxuyum gör necədir.
Şair Balay mənə hədsiz təriflər yağdırmışdı.
Bəzi sözləri heç Azərbaycan leksikonunda tapa bilmədim.
Şair Balaya təşəkkürümü bildirdim,
hətta bəzi tərifli sözlərin mənasını anlamadığımı dedim,
amma onun cibinə pul salmağı unutdum,
bir neçə gündən sonra yenə mənə zəng vurdu,
dedi ki, əgər mən onun şerini anlamıramsa,
kütlələr neçə anlasın?
Bu sözün qabağına söz tapa bilmədim.
O gündən xəbər olmadı şair Balaydan,
bir gün eşitdim ki, şair Balay meyxanaçı Balay olub,
pul da üstünə sel kimi axır.
Çox vaxt onu televizorlarda görsəm də,
üz-üzə rastlaşmırdıq, canlı cəmi bir dəfə
istirahət mərkəzində gördüm.
"Tayota" markalı maşın sürürdü.
Məni görsə də, görməməzliyə vurdu.
Mən də yaxınlaşmağa cürət etmədim.
Lalay, lalay,
Dalay, dalay,
Balay, balay...
Hardasan, ey çıxan Günəş, batan Ay?
Deyəsən, özümdən çox razıyam.
Deyirəm ki, düşmənlər mənə bata bilməz,
nə qədər ki, əlimdə var qələm.
Zor adamlardan qat-qat-qat zordur zor qələm.
Bu düşüncədə ikən gördüm, başımın üstündə
bir qadın durub, xanımın adı da Zərqələm.
Dedi ki, nə çox lalay, lalay, dalay-dalay deyirsən?
Məgər yazmağa mövzu yoxdur?
Məgər, ana Kürü, xan Arazı, mavi Xəzərimizi görmürsən?
Mən isə Zərqələmə, bir də əlimdəki kar qələmə baxırdım.
Qələm hələ də susmurdu...
Lalay, lalay,
Dalay, dalay,
Şair Balay,
Çıxdı Günəş, batdı Ay,
Bax ha, söz yazmaq deyil bu qədər kolay.
Zərqələmlər olan yerdə
mənim əlimdə qələm nə edə bilər ki?

## Vanqanın 2026-cı il üçün proqnozları yenidən gündəmdə

**Bolqarıstanlı kahin Vanqaya aid edilən gələcəklə bağlı proqnozlar 2026-cı ildə də geniş müzakirə olunur.**

Adalet.az xəbər verir ki, Vanqanın davamçıları onun bu il üçün beş hadisəni əvvəlcədən xəbər verdiyini iddia edirlər. Onların fikrincə, həmin proqnozlardan ikisinin artıq reallaşdığı düşünülür. Qalan üç ehtimal isə ilin sonunadək baş verə biləcək daha ciddi hadisələrlə əlaqələndirilir.

Vanqanın tərəfdarlarının şərhlərinə əsasən, sözügedən proqnozlar arasında təbii fəlakətlərin artması, süni intellektin əmək bazarında insan əməyini əvəz etməsi, eləcə də daha böyük geosiyasi və kosmik hadisələr yer alır.

Hazırda ən çox diqqət çəkən ehtimallar arasında Yer kürəsinə nəhəng kosmik gəminin yaxınlaşması və bəşəriyyətin yerüstü sivilizasiya ilə ilk təması, III Dünya müharibəsinin başlaması və Rusiyada hakimiyyət dəyişikliyinin baş verməsi göstərilir.

Vanqa 1996-cı ildə vəfat edib. Onun tərəfdarları kahinin ABŞ-də 11 sentyabr 2001-ci il terror aktlarını, Çernobıl qəzasını, Şahzadə Diananın ölümünü, 2004-cü ildə Hind okeanında baş verən sunamini və COVID-19 pandemiyasını əvvəlcədən bildiyini iddia edirlər. Bununla belə, bu proqnozların həqiqətən Vanqaya məxsus olduğunu təsdiqləyən etibarlı sübut yoxdur.

Vanqanın öz proqnozlarını yazılı şəkildə sənədləşdirdiyi məlum deyil. Ona aid edilən fikirlərin böyük hissəsi ölümündən sonra yaxınları və davamçıları tərəfindən yayılıb. Sonrakı şərhlər əsasında



bu fikirlər konkret tarixi hadisələrlə əlaqələndirilib. Buna görə də hansı ifadələrin Vanqa tərəfindən deyildiyini və həmin sözlərin hadisələrdən əvvəl səsləndirilib-səsləndirilmədiyini dəqiq müəyyənləşdirmək mümkün deyil.

2026-cı illə bağlı proqnozlardan biri dünyada genişmiqyaslı təbii fəlakətlərin baş verəcəyi barədədir. Vanqanın davamçıları bu ildıanı mart ayında Myanmada qeydə alınan 7,7 bal gücündə zəlzələ ilə yanaşı, müxtəlif ölkələrdə müşahidə olunan anomal istilər, meşə yanğınları, daşqınlar və güclü fırtınalarla əlaqələndirirlər. Lakin sözügedən proqnozda fəlakətlərin konkret olaraq harada və nə vaxt baş verəcəyi göstərilməyib. Bu tip təbiət hadisələrinin hər il dünyanın müxtəlif bölgələrində müşahidə olunduğu da nəzərə çarpdırılır.

Digər iddia isə süni intellektin əmək bazarına təsiri ilə bağlıdır. Vanqanın tərəfdarları insanların bir sıra işlərdə maşınlarla əvəzlənəcəyini onun proqnozlarından biri kimi təqdim edirlər. Ancaq süni intellekt və avtomatlaşdırma proseslərinin 2026-cı ildən xeyli əvvəl başladığı məlumdur. Eyni zamanda, Vanqanın bu mövzuda konkret olaraq nə dediyini və həmin fikri hansı tarixdə səsləndirdiyini təsdiqləmək mümkün deyil.

İlin sonuna qədər baş verəcəyi iddia edilən ən qeyri-adi hadisələrdən biri isə yadplanetli həyatla mümkün təmasdır. Vanqaya aid edilən bəzi şərhlərə əsasən, 2026-cı ilin noyabrında nəhəng kosmik gəminin Yer atmosferinə daxil olacağı və bunun insanlarla yerüstü sivilizasiya arasında ilk təmas olacağı gözlənilir.

Bu iddialara maraq ABŞ hökumətinin naməlum anomal hadisələrlə bağlı materialları açıqlamasından sonra artıb. Lakin naməlum uçan obyektlərin müşahidə edilməsi onların mütləq şəkildə yadplanetli mənşəli olduğunu göstərmir. Belə hadisələr dronlar, hava şarları, təyyarələr, peyklər, atmosfer prosesləri və texniki sensor xətaları ilə izah oluna bilər.

Vanqaya aid edilən daha bir proqnoz isə III Dünya müharibəsinin başlanması ilə əlaqələndirilir. İddialara görə, Çinin Tayvanı ələ keçirməyə cəhd göstərməsi, ardınca isə Rusiya ilə ABŞ arasında gərginliyin birbaşa hərbi qarşıdurmaya çevrilməsi gözlənilir. Lakin avqustun 7-nə olan məlumata görə, bu ssenaridə qeyd olunan hadisələr baş verməyib.

Digər tərəfdən, Vanqanın 2026-cı ilin sonunadək Rusiyada hakimiyyət dəyişikliyi olacağını proqnozlaşdırdığı da iddia edilir. Bu versiyaya əsasən, Vladimir Putin prezident postunu itirəcək və ölkəyə yeni rəhbər gələcək.

Hazırda Putinin yaxın zamanda istefa verəcəyini və ya hakimiyyətdən gedəcəyini göstərən hər hansı açıq əlamət yoxdur.

Rusiya prezidentinin sağlamlığı və siyasi gələcəyi ilə bağlı əvvəlki illərdə də müxtəlif iddialar səsləndirilsə də, bunların heç biri hakimiyyət dəyişikliyi ilə nəticələnməyib.

**Bütün bunlarla yanaşı, Vanqanın baş verəcək hadisələrin 85 faizini əvvəlcədən bildiyi barədə geniş yayılmış iddialar da müstəqil ekspertlər və tədqiqatçılar tərəfindən təsdiqlənməyib.**

## İkinci Dünya müharibəsi bombası Dunayda yoxa çıxdı



**Budapeştdə İkinci Dünya müharibəsindən qalma bomba ilə bağlı maraqlı hadisə baş verib.**

Adalet.az xəbər verir ki, Dunayın paytaxt ərazisindən keçən hissəsində aşkar edilən aviasiya bombası sonradan çayın dibində yoxa çıxıb.

Məlumata görə, partlayıcı qurğu əvvəlcə dalğıclar tərəfindən müəyyən edilib və onun təhlükəsiz şəkildə çıxarılması planlaşdırılıb. Lakin çayda suyun səviyyəsinin dəyişməsi və güclü axın nəticəsində bomba əvvəlki yerində tapılmayıb.

Hadisə ilə əlaqədar müvafiq qurumlar axtarış tədbirlərinə başlayıblar.

Macarıstanın paytaxtında İkinci Dünya müharibəsi dövründən qalan partlamamış sursatların aşkarlanması nadir hal deyil.

Ölkənin hərbi mütəxəssisləri belə qurğuların zərərsizləşdirilməsi zamanı təhlükəsizlik tədbirlərinin ciddi şəkildə qorunmasının vacibliyini bildirirlər.

Dunayda aparılan axtarışların nəticələri barədə əlavə məlumat veriləcəyi gözlənilir.



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# UNUDULMAZ QABİLİMİZ

## (Şairin 100 yaşına)

**Xalq şairi Qabil. Özü cismən yoxdur, xatirəsi isə qəlbimizdə yaşayır, yaradıcılığı poeziyamızın tarixində yaşayır.**

Uzun illər Qabil müəllimdə müşahidə etdiyim bir çox insani cəhətlər var ki, onlar haqqında da danışmasam olmur. Ən əvvəl qeyd edim ki, Qabil müəllim təkcə sağlığında yox, onu gördyüm ilk gündən-yetmişinci illərdə mənə köhnə kişiləri xatırladırdı. Elə kişiləri ki, onların demək olar ki, hamısı bir-bir dünyasını dəyişdi. Qabil müəllim o köhnə kişilərin dostu olub, onlarla oturub-durub, onlardan görüb-götürüb. İkincisi- Qabilin yaradıcılığında yalnız azərbaycanlı olduğu, Azərbaycana məxsusluğu bilinirsə, danışığında sırf Bakı əhli olduğu, Bakı mühitinə, koloritinə məxsusluğu hiss edilirdi. O, tipik Bakı əhliydi, amma bütün ömrü boyu bəzən xəstəlik həddinə çatan regionçuluq mərəzinə tutulmayıb.

Üçüncüsü; Qabil müəllim heç vaxt istedada biganə qalmayıb. Doğrudur, o, kiminsə haqqında yazı da yazıb, onun qayğısını da çəkib, amma imkan verməyib ki, həmin adam Qabil müəllimin kölgəsinə çevrilsin. Dost olub onunla. Qabil müəllim həm də hər bir kəsin ədəbiyyatda yerini, mövqeyini doğru-dürüst qiymətləndirirdi (bəzən subyektiv görünsə də). Məsələn, bir dəfə o, televiziya verilişlərinin birində Əli Kərim poeziyası haqqında o qədər səmimi danışdı ki  Dedi ki, etiraf edirəm, Əli Kərim böyük şair idi.

Dördüncüsü; Qabil müəllim gözəl yol yoldaşı idi. Onunla yola çıxan adam gərək bir az hal əhli ola, yeyib-içə, amma kefli olmaya, gərək bir az səbirli ola -Qabil müəllimin zarafatlarına dözə, gərək evə- Bakıya qayıtmağa tələsməyə.

Bu mənim Qabil müəllimdə müşahidə etdiklərimdir. Ancaq bu məqamda mən gözəl şairimizin "Təmizlik" adlı şeirini xatırlayıram və mənim fikrimcə, həmin şeir şair Qabilin həyatda və sənətdə mənəvi ölçülərini təyin edən poetik məramdır.

***Kişilərin sözündədir təmizlik,***
***Gözəllərin gözündədir təmizlik.***
***Düz deyən dil topuq çalıb dolaşmaz,***
***Günahsız göz kölgələnib bulaşmaz.***
***Ürəklərin telindədir təmizlik.***
***Zirvələrin selindədir təmizlik.***

Qabil ədəbiyyata qırxıncı illərdə gəlmişdi. İlk şeiri ("Gəl baharım") 1944-cü ildə "Ədəbiyyat qəzeti"ndə çap olunmuşdu. Bir müddət şeirlərini "Nikbin" təxəllüsü ilə çap etdirmişdir. Əgər ənənəvi bölgü ilə yanaşsaq, qırxıncı illərdə yazdığı şeirlərini onun ilk poetik məşqləri saymaq olar. Ancaq bu ilk şeirlərdə nəzərə çarpan bir məqamı nəzərə çatdırmaq istəyirəm. O da bundan ibarətdir ki, elə ilk şeirlərində Qabil poeziyada özünü təsdiq etmək istəyirdi. O, həmin illərin poeziyasının bir zərərli cəhətindən - saxta pafosdan uzaq olmağa çalışırdı. Sanki hər əlinə qələm alanda "bu şeiri Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim oxuyacaq" deyə düşünürdü. Daha çox süjetli şeirlərə meyl edirdi, amma bu şeirlərdə lirik həyəcan, duyğu nəqli üstələyirdi. Qabil 1949-cu ildə yazdığı "Odunçular" və "Kənd müəllimi" şeirlərində sadə insanların həyatını qələmə almışdı. Gördüyünü, müşahidə etdiyini o, poeziya həqiqətinə çevirmişdi.

Əllinci illəri bütövlükdə Qabil yaradıcılığının axtarışlar dövrü adlandırmaq olar.

Qabil axtarırdı. Hər zaman, ədəbiyyatın hər mərhələsində olduğu kimi  mövzu bol idi. Sadə insanlardan da yazmaq yasaq deyildi, əməkdən, zəhmətdən və əməkçilərdən də. Sevgi yenə poeziyanın şah mövzularından idi. Təbiət gözəlliklərinin tərənnümü də, Vətənin vəsfi də həmçinin. O dövrdə beynəlxalq imperializmi ifşa edən, Kommunist Partiyasını, Lenini, Stalini, xalqlar dostluğunu, komsomolu  vəsf edən şeirlər də bol-bol. Amma öncə dediyim bir fikri bir də təkrar edirəm: Qabil hamının getdiyi, üz tutduğu yolda öz cığırını arayırdı. Və tapdı o cığırı, onu ayrıca bir yola çevirdi. Bu məqamda mən Qabilin 1965-ci ildə yazdığı bir şeirini xatırlayıram. Fikrimcə, həmin şeir ("Şeirim") Qabil poeziyasının yerini və həm də məramını əks etdirir:

***Saysız şeir içində adi şeirsən,***
***Anjaq nə şərikin, nə ortağın var.***
***Böyük bir axında üzüb gedirsən,***
***Xırdaca gəmisən, öz bayrağın var.***

Əllinci illərdə Qabilin "xırdaca  gəmisi" poeziya ümmanına doğru baş aldı.Hələ bu gəmi asta-asta sürət götürmüşdü, hələ sahildən uzaqlaşmamışdı. Bu "xırdaca gəmi" digər xırdaca gəmilər içindən özünə yol açırdı.

Qabil əllinci illərdə ən çox "Mehparə" poeması ilə yadda qaldı. Bu poema həmin illərdə tənqid də olundu, tərifləndi də. O illərin gənclik romantikasını, sevgi duyğularını, zərif insani hissləri əks etdirən "Mehparə" həm də sənətkarlıq baxımından öz bədii sanbalıyla seçilirdi. Şair iki gəncin  saf məhəbbətini hərarətlə vəsf edirdi.

Altmışıncı illərdə Qabilin "xırdaca gəmisi" artıq poeziya ümmanına daxil olmuşdu. Şairin fərdi poetik üslubu bütün rəngarəngliyi ilə üzə çıxırdı. "Tramvay parka gedir" şeiri  bu yolda ilk addım idi desək, səhv etmərik.

***Gejə saat bir,***
***Tramvay parka gedir.***
***Ləngərlə.***
***Bu ləngər bilinməzdi -***
***Vaqon dolu olsaydə sərnişinlərlə.***
***Uzundur parkın yolu,***
***Küçələr sükut dolu.***
***Relslərin calağında çıqqıldayır təkərlər***
***Elə bil bir nəhəngin dişlərini tökürlər.***
***Məftillərdən od qopur şimşək çaxan sayağı.***
***Məftillər fışıldayır qızıl ilan sayığə.***

Alliterasiya ilə zəngin olan bu bu təsvirlərdən sonra müəllif sürücü Baləli ilə konduktor Münəvvərin söhbətini təqdim edir. Bu söübətdə onların işlə, güclə bağlı bütün qayğıları əks olunub, onlar bir-birlərini sevirlər, amma evəşikləri yoxdur. O zaman bu şeir böyük əkssəda doğurmuşdu. Çünki Qabil bu şeirdə zəhmətin "romantikasını" deyil, həyatın realliqlarını əks etdirmişdi, insanların "qanadlı arzuları"ndan yox, onların gün-güzəran ağırlığından söhbət açırdı.

Vəsf, tərənnüm motivləri də hər hansı bir şairin yaradıcılığına qətiyyən yad deyil. Hərçənd ki, neçə illərdir şeirdən-şeirə, kitabdan-kitaba bir-birini təkrar edən eyni vəsf və tərənnüm "priyomları" axıb gəlir. Qabil də yaradıcılığının ilk illərində bu cür steotiplikdən qaça bilməyib, amma sonrakı illərdə, onun poetik istedadı cilalandıqca eyniliklərdən uzaqlaşıb. Belə ki, o, dağları vəsf edəndə də yeni təşbehlər, poetik deyimlər tapır, öz "dağlar"ını yaradır, bahardan, payızdan qışdan yazanda da həmçinin  Azərbaycanı vəsf edəndə də Qabilə məxsus poetik ifadələr, obrazlarla diqqəti cəlb edir. Şairlik  məharəti də elə bundadır- hamının müraciət etdiyi mövzuya üz tut, amma təzə söz de:"Göyçay narı", "Quba bağları","Azərbaycan torpağı", "Göygöl", "Adsız bulaqlar", "Vətən" şeirlərində olduğu kimi  .

***...Bir-birindən hər şey qopar, ayrılar-***
***Ayrılmayan bəs nə var?***
***Mən,***
***Vətən!***

Bu məqamda mən Qabilin dillər əzbəri olan "Qoy danışsın təbiət" şeirinə üz tuturam. Əgər Azərbaycan təbiətinin gözəlliklərini əks etdirən şeirlərdən ibarət bir poetik toplu tərtib edilsə, Qabilin bir neçə şeiri və heç şübhəsiz, "Qoy danışsın təbiət" şeiri orada özünə yer tapaaq.

Bu şeiri xarakterizə edən bir səhət diqqəti xüsusilə cəlb edir- süni və qeyri təbii görünə bilən heç nə yoxdur- "patetika istisi, ritorika soyuğu" (Yaşar Qarayev) bu şeirə doğma deyil.

***Budaqdan ayrılan hər sarı yarpaq***
***Elə bil uşaqdır, yetim bir uşaq***
***Üşüyür, büzüşür saplağında nəm,***
***Vüsalla, hijranla doludur aləm.***
***Xoşdur o ilk bahar, bu son bahar da.***
***Ürək məna gəzir bu duyğularda***
***Hansı məxluqda var belə şeiriyyət?***
***Qoy danışsın təbiət!***

Professor Tofiq Hacıyev "Qabilin qabilliyi" adlı məqaləsində yazır: "Qabil deməli olduğu sözü heç vaxt saxlamayıb. Həmişə düşünüb: Tanrı bu şairlik istedadını ona verib ki, xalqına gərək olan sözü desin".Bu mənada Qabili sözün əsl mənasında xalqa bağlı olan bir şair hesab edirik.O.heç vaxt xalq haqqında mücərrəd danışmayıb,onun sevincinə şərik olub, dərdindən-sərindən yazıb. Xatırlayaq 1990-cı ilin o dəhşətli yanvar günlərini. O günlər təkjə xalqımız deyil, şeirimiz də yas içindəydi.Xalqın istilaya, zülmə qarşı çevrilmiş etirazı poeziyada da dərhal öz əksini tapdı:

***Tutulub vahimədən nitq bu gün, dil bu səhər,***
***Bəzəyib Abşeronu qanlı qərənfil bu səhər,***
***Bakı fəryad eləyir, gözdən axır sel bu səhər.***
***Gəmilər nalə çəkir, ərşə çıxır zil bu səhər.***
***Gecəni ataş ilə qırmızı dan eylədilər,***
***Xalqımı-millətimi güllə-baran eylədilər!***

Qabilin "Mərsiyə" şeiri o zaman dillər əzbəri idi. Klassik Azərbaycan şeirinin bu forması elə bil yenidən doğuldu. Ümumiyyətlə, Qabil 90-cı illərdə hamımızın ürəyindən xəbər verən, bilavasitə məmləkətimizin olayları ilə bir sıra elə şeirlər yazmışdır ki, onların üzərindən sükutla keçmək mümkün deyil. Qabilin həmin illərdə qələmə aldığı "Çalsın Azərbaycan haray zəngini", "Qeyrət, a vətəndaşlar", "Çalma, qaboy", "Bu gün idman vaxtı deyil", "Xəjalət", "Qərənfillərdən uzaq", "Çadırlar", "Çadırlara alışmayın", "Yanıq Kərəmi", "Nəsimi bazarında", "Rəqs", "Haray, tələsir, gəlin!" və nəhayət, "Ümid sənədir ancaq" şeirləri vətəndaşlıq cəsarətindən doğan poetik nümunələrdir. Həmin şeirləri Qabil xaos və hərc-mərclik dövrünün yaratdığı icimai-siyasi, mənəvipsixoloji ab-havaya kəskin etiraz kimi qələmə almışdır.  - Çadırlara  alışmayın! - bu, o deməkdir ki,ruhunuz sönməsin, xarici ölkələrin pay-puşuna göz dikməyin,əlinizə silah götürüb torpaqları azad edin."Yanıq Kərəmi"yə oynamaq olmaz, bu gün hər kəs  işğal olunmuş Vətən torpaqları barədə düşünməlidir. Qabimlin bu şeirləri fransız yazarı Apollinerin belə bir fikrini xatırladır: "Yaddan çıxarmayaq ki,hər hansı bir millətdən ötrü ruhən işğal olunmaq silah gücünə işğal olunmaqdan daha təhlükəli ola bilər".

***Dəyirmi masalarda***
***İzi var dirsəklərin.***
***Ağla sığan söhbəti,***
***Sözü var dəstəklərin,***
***Yardım bağlamasında***
***Özü var dəstəklərin.***
***Lap ləl-jəvahir olsun***
***Hər yardımın dəyəri.***
***Ümid sənədir anjaq***
***Azərbaycan əsgəri!***

Bir başqa şeirdə-"Nəsimi bazarında" Qabil hamımıza tanış olan bir mənzərəni siyasi lirikanın mövzusuna çevirir. "Nəsimi" adlanan Bakı bazvarlarının birində qızğın alver gedir. Xalq, əlində ölü manat, qarın hayındadır. Adlı-sanlı Bakı qaçqınla, köçkünlə dolub. Şair yüzlərlə şəhidi olan bir məmləkətin halına acıyır,birdən-birə Nəsimini xatırlayır, onun dönməzliyini yada salır.

... Söz ki Nəsimidən, onun dönməzliyindən düşdü, Qabilin "Nəsimi" poemasını xatırlamamaq olmur.Qabil bu poemaya ömrünün beş ilini üesr edib, amma elə bilirəm, Qəsimi dünyasına mültəfit olmağı illər çəkib. Qabil Nəsiminin yaşadığı dövrü, o dbvrün ictimai-siyasi hadisələrini, ən başlıcası isə şairin mənsub olduğu hürufilik təriqətinin mahiyyətini öyrənə-öyrənə Nəsimi əsrinə gedib çıxmışdır. Tarixi şəxsiyyətlərdən əsər yazan bir çox müəlliflər bəzən "müasirləşdirmə" yolu ilə gedirlər. Bir də görürsən ki, tarixdən bizə məlum olan şəxsiyyət (şair, sərkərdə, şah) sanki, bu günün, bu dövrün adamıdır. Təbii ki, həmin tarixi şəxsiyyət "müasirləşdiriləndə" öz sambalını itirir.

Tarixi həxsiyyəti, xüsusilə, klassik sənətkarı zorla "müasirləşdirmək" olmaz! Belə demək mümkünsə, klassikə doğru getmək lazımdır. Çünki müasirliyin kökü və mənşəyi də klassikadan, ənənədən gəlir. Qabil də məhz bu yolu seçmişdir.

Mərhum prezidentimiz Heydər Əliyev Qabilin 70 illik yubileyində demişdi: "Qabilin Nəsimi haqqında yazdığı mənzum roman mənim yaxşı xatirimdədir. Doğrudan da o, çox böyük bir iş idi və Qabil bu işi gördü. Bu həqiqətən Dövlət mükafatına layiq bir əsərdir. Çünki Nəsimi haqqında belə böyük, sanballı, dərin fəlsəfi fikirlərlə dolu olan mənzum roman yazmaq hər adamın, şairn, yazıçının işi deyil. Qabil bunun öhtəsindən gəldi".

Vaqif Səmədoğlunun Qabilə həsr kiçik bir yazıda oxuyuruq: "Qabil yaşa dolmuş, fəqət qocalmamış insandır. Uşaq inadkarlığı, gənc bir oğlan temperamenti və eyni zamanda sonsuz müdriklik. Belə görürəm mən bizim sevimli Qabilimizi. Mənim mənsub olduğum nəslin bir çox şairi Qabilin "Tramvay parka gedir" şeirindən çıxıb".

Bəli Qabil həmişə inadkar olub, lap uşaq kimi. Bu inadkarlığın nəticəsidir ki, illər keçdicə öz bədii təravətini və müsirliyini itirməyən şeirlər yaranıb. Bu şeirlər həmişə gəncik temperamenti ilə yazılıb. Onun elə şeirləri var ki, onların heç bir vaxt qojalmaq qorxusu yoxdur. Axı hansı şair bir də belə öir şeir yazajaq: "Səhv düşəndə yerimiz"

***Duman dağı dolanar***
***Qiyamət olar***
***Duman yola sallanar,***
***Müsibət olar.***
***Müsibət oluruq biz,***
***Səhv düşəndə yerimiz.***

Görəsən, hası şair insan ürəyindəki yalqızlığı, bu yalqızlıqdan doğan sosuz həsrəti Qabil belə həzin, belə niskilli misralara çevirə biləjək?

***Axşam düşəndə***
***Çataydım***
***Sıldırımlı dağlara sığınmış bir kəndə,***
***Döyəydim bir qapını***
***Əllərim əsə-əsə***
***İt zəncir gəmirəndə***
***Adam çıxaydı səsə***
***Bir cüt pərişan gözlə***
***Göz-gözə,***
***Bir xoş mehriban üzlə***
***Üz-üzə***
***Dayanaydım***
***O heyrət eylədikjə***
***Mən alışıb yanaydım.***
***...Gedən yerim olaydı, gedən yerim***
***Kiminsə həsrətiylə açılaydı səhərim.***

Görəsən hansı şair "Qoy danışsın təbiət", "Astara yolları", "Küləkli havalarda, yağışlı havalarda", "Məhəbbət deyil", "Suqovuşanda", "Ağrı" kimi bənzərsiz şeirlər yazacaq?

Bunları Qabil yazıb. Bu şeirlər əsrlər keçdikcə yaşayacaq və Qabili də yaşadacaq.

Təbii ki, mənim Qabillə -bu son dərəcə koloritli şairlə, səmimi insanla görüşlərim çox olub. Mən onun yaradıjılığı barədə beş-altı (bəlkə daha çox!) məqalənin müəllifiyəm. Və Qabil müəllim bu məqalələrinə hər birini oxuyub, hətta yetmiş illiyində yazdığım bir məqaləni havnsı iclasdasa tərifləди

**Qabilin ölümü qəfil oldu. Sapsağlam idi, hər gün Yazxıçılar Birliyinə gəlib-gedirdi. Nə etmək? Mən də bu ölümə təəssüfləndim. Allah rəhmət eləsin!**



# BAYAT



№ 92 (952)

# Getmək istəyirsən, bəhanəsiz get



Nüsrət KƏSƏMƏNLİ

## ETİRAF

Ömür-gün yoldaşıma

Fikirli gəlirəm,
Dalğın gəlirəm,
Qayğılı gözlərin çəkir şəklimi.
Bəzən gec gəlirəm,
yorğun gəlirəm
Bitirsən qapıda bənövşə kimi...

Bəlkə min suçumu bilmisən mənim,
Birini üzümə vurmamısan heç.
Eyhamla üzümə gülmüsən mənim,
Bircə yol üzümə durmamısan heç.

Hər kəs taleyilə gəlir həyata,
Demirəm, ürəyi yumşaq olmuşam.
Dəcəl balalara mülayım ata,
Səninçün ən dəcəl uşaq olmuşam.

Sənsən dağlar" kimi səbrlə dözən,
Bəlkə tərəddüdlə çox döyüşmüsən.
İsti bir sevgidən yazmışam bəzən,
Soyumuş çayımı sən dəyişmisən...

Üzümdə kədərdən bir iz görəndə
Şirinim olmusan,
Acım olmusan.
Qohumdan, tanışdan pis üz görəndə
Sən anam olmusan,
Bacım olmusan.

Bir kövrək şerimdən gözlərin dolub,
Nə deyim,
Özgədən çox yazıb qələm,
Nə qədər düyünlü günümüz olub,
Düyünlü qaşın görməmişəm mən...

Bir əlin mətbəxdə
qabda-qaşıqda,
Bir gözün istidə, tüstüdə olub.
Bir əlin beşikdə
oğul-uşaqda,
Bir gözün həmişə üstümdə olub.

Yollar çarpaz-çarpaz,
Yollar qarışıq...
Gecə yol gəlirəm qulağı səsdə.
Bizim pəncərədən süzülən işıq -
Gözünün nurudur yolumun üstə.

Fikirli gəlirəm,
Dalğın gəlirəm,
Qayğılı gözlərin çəkir şəklimi.
Bəzən gec gəlirəm,
yorğun gəlirəm
Bitirsən qapıda bənövşə kimi...

## GETMƏK İSTƏYİRSƏN...

Getmək istəyirsən,
bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı.

Sən dəniz qoynuna tullanmış çiçək,
Üstünə dalğalar atılacaqdır.
Saxta məhəbbətin, saxta sənədtək
Nə vaxtsa üstündə tutulacaqdır...

Yollarlək döşənib ayaqlarına
Sənə yalvarımmı?..
Bu mümkün deyil.
Qoymaram qəlbimtək vüqarım sına
Alçalıb yaşamaq ömür-gün deyil...

Demirəm, sən uca bir dağsan, əyil,
Demirəm, qalıbdır əlacım sənə.
Nə sondə məhəbbət qara pul deyil,
Nə mən dilənçiyəm əl açım sənə.

Getmək istəyirsən,
nə danış, nə din,
Yox ol xəyal kimi dumanda, çəndə.
Nəyimi sevmişdin,
deyə bilmədin,
İndisə yüz eyib görürsən məndə...

Getmək istəyirsən,
bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı...

## GECİKDİ BU YAĞIŞ...

Daha bu yağışa otlar göyərməz,
Daha bu yağışda lalələr sönməz.
Bu yağış buludun yükü deyil ki,
Bu yağış bir simurq tükü deyil ki,
Yandırsan ömür-gün qayıda geri,
İndi ürəyimiz - köhnə yurd yeri,
Daşı nəmlidir.
Sevgimi uçurub bir ümid kimi
Torpağı qəmlidir,
Daşı qəmlidir...
Sırsıra asılıb gül budağından,
Bahan itirdin,
Yayı ötürdün;
Qış gəldi,
yatmısan fil qulağında...
Beləcə gün keçdi,
zaman gecikdi,

Gecikmiş istəyi nədi göylərin?
İndicə buludlar töküləcəkdir,
Ürəyi doludur xatirələrin.
Dindirsən,
təəssüf hönkürəcəkdir.

Qıvrılıb yatıbdır dolama yollar,
-Boynuna dolanar o ilan kimi
Dəymə,
qoy uyusun nisgil arzular
Yasandan tutacaq ayılan kimi...

Bu göz yaşlarıyla,
Bu yalvarışla
Yolların tozunu yatırmaq olmaz,
Küsülü illərin istəklərini
Daha mənzilinə çatdırmaq olmaz.

Yumaz ki dünəni selləmə yağış,
Bayılmış dünənə çilləmə yağış...
Gecikdi bir arzu,
güman gecikdi.
Gecikdi bir yağış,
yaman gecikdi.

Yaşadıq nigaran, qulağı səsdə,
Ömürdən ötəri cığırlar keçdi.
Bizim ümidimiz axır nəfəsdə
Nə qədər çırpınsa
yenə də heçdi...

Daha oyanışa güman ki, yoxdu,
De, nəyə gərəkdir bu son bəraət?
Səndən bir məhəbbət uman ki, yoxdu.
O güvəncli dağlar marala qaldı,
O məxmər çəmənlər sarala qaldı,
Vaxtında yağmadı, nur çiləmədi
Buludlar qarala-qarala qaldı...

Məni bu günündə soraqlama sən,
Məni dünənində taparsan indi.
Bu günə qədərki kədər mənimki,
Bu gündən sonrakı kədər sənindir.
Qovmadın başından
duman gecikdi,
Gecikdi bu yağış,
yaman gecikdi...

## SƏN DEMƏ, TƏZƏDƏN SEVMƏK OLARMIŞ...

Sən demə, təzədən sevmək olarmış,
Tale də təzədən gülə bilərmiş.
Küsüb gözüyaşlı gedən məhəbbət
Peşiman-peşiman gələ bilərmiş.

Ürək bulud kimi boşalırsa da
Deməк, bulud kimi təzədən dolur,
Sonuncu şöləsi titrəyən şamdan
Ayrı bir şamı da yandırmaq olur.

Sən demə, təzədən sevmək olarmış,
Köhnə yaraları vaxt, zaman silir,
Kəsilən budaqla ölən ağaclar
Təzə pöhrələrlə dirilə bilər.

Ağlaya-ağlaya dünyaya gəlib,
Biz ana südüylə gülməmişikmi?!
Hər axşam sapsarı batan günəşi
Hər səhər təzə-tər görməmişikmi?!

Sən demə, təzədən sevmək olarmış,
Sevgi fursət deyil quş kimi uça.
Nə də kölgədir ki,
qaçasan qova,
Ya da sən qovasan,
o səndən qaça...

Çıxarsan qəlbindən ötən sevgini,
Bir gün də tənhalıq sıxacaq səni.
Kiməsə etdiyin yaxşılıq kimi
Məhəbbət qarşına çıxacaq sənin.

İlk sevgi yuvadan düşən quşcuğaz,
Körpə qanadları pöhrələnməyib.
Məcnunun ahıyla uçan məhəbbət
Min hiylə əliylə yerə enməyib...

Mən ki, görməmişəm sevgini susan,
Məhəbbət zirvədə bəslənən qarmış.
Kim deyir, bir dəfə sevilir insan,
Sən demə, təzədən sevmək olarmış...

## BİR SEVDA AĞLAYIR...

Gəl dedim, koksümə yaralı düşdü,
Əl açdım, əllərim aralı düşdü,
Ona bu ağ dünya qaralı düşdü,
Bir sevda ağlayır içimdə mənim.

Qədri bilinmədi,
Ömrü qırıldı,
Həsrət boyun bükdü,
hicran yoruldu.
O hər gün incildi,
hər gün vuruldu,
Bir sevda ağlayır içimdə mənim.

Min gül solduranlar
min gül dərdilər,
Yüngül çiçəkləri
yüngül dərdilər,
Mən ürək açanda
baxıb gördülər
Bir sevda ağlayır içimdə mənim...

Dünəni bükülü xatirəsinə,
Vurğundur bu günü xatirəsinə,
Qısılıb mürgülü xatirəsinə
Bir sevda ağlayır içimdə mənim.

Bacara bilmədim özüm-özümlə,
Dil tapa bilmədi işim sözümlə,
Mənim fəryadımla,
Mənim gözümlə
Bir sevda ağlayır içimdə mənim.

Mənəm daş daşıyan o məhəbbətə,
İtmiş qaş-daşıyam o məhəbbətə,
Özüm başdaşıyam o məhəbbətə,
Bir sevda ağlayır içimdə mənim.

Gec oldu qədrini mən biləndə də,
Sevinci yaşayıb, qəm böləndə də
Üzümə baxmayın,
mən güləndə də
Bir sevda ağlayır içimdə mənim...

## QAYIT

Sən getdin ömrümdən ilk bahar kimi.
Çiçəklər çəmənə çıxanda qayıt!
Həsrətin leysanı tükənməz daha,
Buludlar gözünü sıxanda qayıt,

Bir sevgi görmədim qəmsiz, cəfasız,
Hicranın ağırdı, dərdin dəvasız,
Bilmədin qədrimi, sən ay vəfasız,
Həsrətin sonuma çıxanda qayıt!

Boylandım arxanca mən sözlü-sözlü,
Gah aşkar ağladım, gah da ki gizli,
Yerini boş görüb, bir mələküzlü
Sevgiylə üzümə baxanda qayıt!

Uyma, hər nadannın sözünə, uyma,
Apar ürəyimi kəs qıyma-qıyma.
Məni yurdsuz qoyma, yuvasız qoyma,
Ayrılıq evimi yıxanda qayıt.

Adım ki, adınla qoşadır sənin,
Bilməzdim ürəyin daşdandır sənin,
Hələ ki, ümidlər yaşadır məni,
Tənhalıq qəlbimi sıxanda qayıt.

## QAR KİMİ

Qar kimi ağ gəldim,
ləkəsiz gəldim,
Səssizcə yağmışdım yollarına mən.
Mən sənin ömrünə "bəlkə"siz gəldim
Yığıldın güc kimi qollarıma sən...

Bitdi baxışların nəğməsi, sözü,
Sükut qollarında gəzdirdi bizi...
Soyuduq qar kimi...
nə deyim,
düzü,
-Bəlkə bu soyuqluq bezdirdi bizi...

İndı xatirənlə yanacağam mən,
Gülsən, gülüşünə bürünəcəyəm.
Qar kimi ovcuna yağacağam mən,
Qar kimi ovcunda əriyəcəyəm!..

Həsrətim qəlbimdə dinir tar kimi,
Nəğmələr dənizdir, vüsalın qayıq.
Sən də, ay sevgilim,
getdin qar kimi
Qayıtsan,
qar kimi ləkəsiz qayıt!..

# Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 30 (2502) 14 avqust 2026-cı il

**İnsan ömrünün müxtəlif dövrləri, müxtəlif çağları, müxtəlif məqamları var. Bu məqamların hər biri təbii ki, yaddaqalan və unudulmayan illərdir. Gəncliyi isə çoxları bahar fəslinə bənzədir. Təbii ki, bu bənzətmədə çox böyük həqiqətlər və reallıqlar mövcuddur. İnsanın ən güclü, ən enerjili, ən dözümlü vaxtı elə gənclik illərinə təsadüf edilir. Bu illərdə insan qarşısına qoyduğu məqsədə çatmaq üçün mübarizə və mücadilə aparır.**

Hər bir adam ilk dövrlər bağçaya gedir, sonra orta məktəbdə oxuyur, bir müddət keçəndən sonra ali məktəb tələbəsi olur. Tələbəlik illərinin şirinliyi və gözəlliyi isə bir başqa aləmdir. Gənclər bu illərdə sözün həqiqi mənasında arzuladığı zirvənin ən uca yerində olurlar. O zirvəyə getmək və o zirvəyə çatmaq hər gəncin işi deyil. O gənclər zirvəyə çatır ki, onlar həddindən artıq savadlı, əxaqlı və mübariz olurlar. Mübarizlikdən söhbət düşəndə elə ilk xatırladığım Azərbaycan gəncliyi olur. Bəlkə də Azərbaycan gəncliyi dünya gəncləri arasında ən istedadlı, ən mübariz və ən güclü gənclərdir.

Bizim gəncləri əsas fərqləndirən xüsusiyyətlərindən biri də böyüyə-kiçiyə hörmət etmələri, onların yanında özlərini tərbiyəli aparmaları və başqa sözlə demiş olsaq, keçmişinə, tarixinə, milli dəyərlərinə söykənmələridir.



Heç kimə sirr deyil ki, Azərbaycan gəncliyi bütün dövrlərdə ən çətin məqamlarla, ən çətin anlarla və ən çətin durumla üz-üzə qalıb. Bu isə o deməkdir ki, bizim gənclik həmin çətinlikləri və həmin problemləri ancaq özü dəf etməliydi.

Həmin qüvvəyə, gücə, zirvəyə çatmaq üçün gəncliyimiz özündən əvvəlki nəslin bütün müsbət xüsusiyyətlərini və dəyərlərini öyrənib və əxz edib. Hər bir gənclik özündən əvvəlki nəslə oxşayır. Yəni həmin nəsil güclüdürsə, vətənpərvərdirsə və mücadilə aparmağı bacarırsa, bax, gənclər də o istiqamətdə tərbiyə olunur, yetişir və istənilən bir kamil formaya çatır.

# BİZİM GƏNCLƏRƏ GÜVƏNMƏK OLAR



Heç şübhəsiz, müasir gəncliyin formalaşmasında ədəbiyyatın, sənətin, kinonun, teatrın çox böyük əhəmiyyəti olub. Yəni bizim gənclərimiz igid oğlanlarımızın, vətənpərvər insanlarımızın həyat yolunu öyrəniblər. Onlarla bədii əsərdə gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün tarixi və yaddaqalan ideyalar var. O ideyalara yiyələnmək, o ideyaları mənimsəmək Azərbaycan gəncliyini daha da işıqlı yola aparıb. Uzun illər deyirdilər ki, indiki gənclərin əksəriyyəti bir o qədər də tərbiyəli, savadlı, mədəni və dünyagörüşlü deyil. Özü də bu fikri sosial şəbəkələrdə və cəmiyyətin içərisində geniş yayır, təbliğ edirdilər. Hətta deyirdilər ki, balam, bu gənclərdən heç vaxt torpaq qaytaran, vətən qoruyan olmaz. Amma tarixi həqiqətlər və faktlar bu fikirlərin hamısını alt-üst etdi. Məlum oldu ki, indiki gənclərimiz yatmış şirə bənzəyirmiş. Sadəcə olaraq onu oyatmaq, ayağa qaldırmaq lazım imiş.

Ümummilli Liderimiz Heydər Əliyev və Azərbaycan prezidenti İlham Əliyev həmişə öz çıxışlarında Azərbaycan gəncliyinə çox böyük qiymət və dəyər verib. Təbii ki, bu fikir də müəyyən məntiqə, tarixi faktlara söykənir. Ən azından ona görə ki, Vətənin ən ağır günündə gənclərimiz ayağa qalxıb onun uğrunda döyüşə atılıb, ölkənin azad olunması məqsədilə canlarını belə əsirgəməyiblər. Onu da qeyd edək ki, Birinci və İkinci Qarabağ savaşında bu Vətən, bu torpaq uğrunda mübarizə aparanlar da, döyüşənlər də, torpaq uğrunda mücadilə edənlər də məhz elə gənclər olub. Çünki onlar Azərbaycanın çox böyük və möhtəşəm tarix yazmış igid oğullarına bənzəyiblər. Biz onların adlarını və soyadlarını yazmaq istəmirik. Çünki igidlərimizin ad və soyadlarını yazsaq, bu on minlərlə gənc edir. Amma görünən odur ki, Birinci Qarabağ savaşında canlarından keçən oğulların yolunu İkinci Qarabağ müharibəsində - 44 günlük döyüşdə gənclərimiz davam etdiriblər. O gənclər ki, bir çoxlarımız onlara etibar etmir, güvənmir və inanmırdıq. İnanmırdıq ki, onlar mərdliklə döyüşüb işğal edilmiş ərazilərimizin 20 faizini ermənilərdən azad edəcəklər. Amma Azərbaycan gəncliyi çoxlarının yanlış düşüncələrini alt-üst etdi və 44 günlük müharibədə görünməmiş möhtəşəm qələbə qazandı və öz adını tarixin qızıl səhifələrinə yazdı.

Şuşanın sıldırımlı qayalarına dırmaşaraq ora çıxmaq və orda yağı düşmənlə əlbəyaxa olmaq elə də asan məsələ deyildi. Ancaq bunu biz müxtəlif filmlərdə, tamaşalarda görmüşdük və həmişə də qibtə etmişdik ki, görəsən, həyatda belə döyüşkən, mübariz, fiziki cəhətdən güclü gənclər varmı? Bax, həmin gəncləri biz Qarabağın işğal olunmuş bütün torpaqlarının, eləcə də Şuşanın azad olunmasında gördük. Gördük ki, bu gənclər nə ermənilərin ağır texnikasından qorxur, nə ballistik raketlərindən, nə də digər döyüş silahlarından. Biz onu da gördük ki, Azərbaycan gəncləri bir yumruq kimi birləşdi və döyüşə atıldı. Hələ üstəlik 44 günlük müharibədə on minlərlə gənc çox böyük sevgi və məhəbbətlə hərbi komissarlıqlara gedir, döyüşə göndərilmələrini xahiş edirdilər. Kəndə hər şəhidin cənazəsi gətiriləndə minlərlə gənc hayqıraraq "Şəhidlər ölməz, Vətən bölünməz!" deyirdilər.

Dünyanın heç bir yerində görsənməyib ki, kimsə ağır döyüşə, daha doğrusu, ölümə belə sevinə-sevinə gedə. Amma bunu biz Azərbaycanda 44 günlük İkinci Qarabağ savaşında gördük. Onlar sevinə-sevinə döyüş bölgələrinə getdilər, vuruşdular, qalib oldular, şəhid oldular, qazi oldular və sevinə-sevinə də yenidən öz doğma ocaqlarına, evlərinə, yurdlarına qayıtdılar.

**Bax, bu Azərbaycan gəncliyi idi. O gənclik ki Ali Baş Komandan, prezident İlham Əliyevin çağırışı ilə on minlərlə gənc ayağa qalxdı, Prezidentin və Ordunun ətrafında bir yumruq kimi birləşdi. Həmin gənclər bu gün də Vətənimizin keşiyindədir, qalib və döyüşkən insan kimi Azərbaycan tarixinə düşüb. Onların yazdığı tarixi qələbə həmişə gəncliyimizi sevdirəcək və onun yolunu sonrakı gənclər davam etdirəcəkdir. Çünki Azərbaycan gəncliyi həmişə Vətəni, torpağı, ölkəmizi qorumağa hazır olub və hazırdır!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Okeanlar heç vaxt belə isti olmayıb

**Dünya okeanlarının orta səth temperaturu iyul ayında müşahidələr tarixində ən yüksək səviyyəyə çatıb.**

Adalet.az xəbər verir ki, bu barədə Avropa İttifaqının Kopernik İqlim Dəyişikliyi Xidməti məlumat yayıb.

Bildirilib ki, iyul ayında Atlantik okeanının sahilboyu ərazilərində və Qərbi Aralıq dənizində dəniz səthinin temperaturu rekord həddə yüksəlib.

Qütb bölgələri nəzərə alınmadıqda, qlobal orta dəniz səthi temperaturu 2023-cü ilin iyulunda qeydə alınmış əvvəlki rekordu da geridə qoyub.

Bununla yanaşı, qlobal səth havasının orta temperaturu 2026-cı ilin iyulunda 2024-cü ilin eyni ayı ilə müqayisədə cəmi 0,01 dərəcə Selsi aşağı olub. Buna baxmayaraq, alimlər ötən ayı müşahidələr tarixində ikinci ən isti iyul kimi qiymətləndiriblər.

İqlim məlumatlarının toplanmağa başlandığı dövrdən bəri Qərbi Avropa ən isti iyun-iyul dövrünü yaşayıb.

Kopernikin məlumatlarına əsasən, 2026-cı ilin yayının ilk iki ayında bölgədə temperatur mövsümi orta göstəricidən 2,79 dərəcə Selsi yüksək olub. Bu göstərici dörd il əvvəl qeydə alınmış əvvəlki rekordu da keçib.

Avropa Orta Mənzilli Hava Proqnozları Mərkəzinin iqlimşünası Samanta Burges bildirib ki, Qərbi Avropa üzərində uzun müddət davam edən yüksək təzyiq sistemləri istiliyin bölgədə qalmasına səbəb olub.

Onun sözlərinə görə, yüksək temperatur quraqlığı daha da gücləndirib. Torpağın həddindən artıq quruması isə onun təbii şəkildə soyuma qabiliyyətini azaldıb.



Fransa, İspaniya, Almaniya və Böyük Britaniyanın bəzi bölgələrində quraqlıq çaylarda su axınının azalmasına səbəb olub. Bu vəziyyət su təchizatına, suvarmaya və elektrik stansiyalarının fəaliyyətinə mənfi təsir göstərib. Məlumata görə, Polşada iki kömürlə işləyən elektrik stansiyası, Macarıstanda isə ölkənin yeganə nüvə elektrik stansiyası soyutma üçün kifayət qədər su olmadığına görə fəaliyyətini müvəqqəti dayandırıb.İlkin hesablamalara əsasən, iyun ayında müşahidə olunan yüksək temperatur taxıl istehsalçılarına təxminən 2 milyard avro zərər vurub.

Avropa İqtisadiyyat İnstitutunun araşdırmasına görə, quraqlığın təsirləri yalnız kənd təsərrüfatı ilə məhdudlaşmır. İstehsal və tikinti sektorlarında da uzunmüddətli iqtisadi itkilərin yarana biləcəyi bildirilir.

İsti və quraq hava meşə yanğınlarının miqyasını da artırıb.

Avropa Meşə Yanğınları Məlumat Sisteminin məlumatına görə, ilin əvvəlindən etibarən Avropa İttifaqında təxminən 500 min hektar ərazi yanıb.

Meşə yanğınları nəticəsində havanın çirklənmə səviyyəsi də bir çox bölgədə orta göstəricidən yüksək olub.

# Ailədə neçənci uşaq olmağımız sağlamlığımıza təsir edirmiş

**Yeni və genişmiqyaslı araşdırma doğum sırası ilə müxtəlif xəstəliklərin inkişaf riski arasında əvvəllər düşünüldüyündən daha geniş əlaqənin olduğunu ortaya qoyub.**

Adalet.az xəbər verir ki, "Nature Health" jurnalında dərc olunan araşdırmada iki uşaqlı ailələrdən 10 milyondan çox insanın məlumatları təhlil edilib.

Tədqiqatçılar psixi pozğunluqlardan həzm problemlərinə qədər 150 fərqli xəstəliklə doğum sırası arasında əhəmiyyətli əlaqələr müəyyənləşdiriblər.

Araşdırmanın nəticələrinə görə, ilk doğulan uşaqlarda autizm və diqqət çatışmazlığı hiperaktivlik pozğunluğu (ADHD) kimi neyroinkişaf problemlərinə daha çox rast gəlinir.

İlk doğulanlarda uşaqlıq dövründə başlayan sinir sistemi pozğunluğu olan "Tourette" sindromu, obsesiv-kompulsiv pozğunluq (OKB), həmçinin sızanaq və astma inkişaf riskinin də daha yüksək olduğu müəyyən edilib. Bundan əlavə, ilk doğulan uşaqlarda immun sistemi ilə əlaqəli allergiyaların, o cümlədən, ot qızdırması və ekzemanın inkişaf riski də daha yüksək ola bilər. Araşdırmada daha sonra doğulan uşaqların isə maddə asılılığı, həzm problemləri və herpes zoster kimi bəzi yoluxucu xəstəliklərə daha həssas olduğu müəyyənləşdirilib.



Tədqiqatçılar ikinci doğulan uşaqlarda maddə asılılığı riskinin artmasını, əsasən, sosial amillərlə əlaqələndirirlər. Onların fikrincə, böyük bacı-qardaşların davranışlarının təqlid edilməsi və ya daha sonra doğulan uşaqların riskli davranışlara daha meyilli olması bu əlaqədə rol oynaya bilər. Tədqiqat müəllifləri doğum sırası ilə xəstəlik riski arasındakı əlaqələrin fizioloji, immunoloji və sosial mexanizmlərin birləşməsi ilə bağlı ola biləcəyini bildirirlər.

Xüsusilə allergiya və tənəffüs xəstəlikləri ilə bağlı fərqlərin erkən yaşlarda mikroblara məruz qalma ilə əlaqəli ola biləcəyi ehtimal edilir.

Kiçik bacı-qardaşlar erkən yaşlarından böyük bacı-qardaşların evə gətirdiyi daha geniş çeşiddə mikroblarla qarşılaşırlar. Tədqiqatçılar hesab edirlər ki, bu erkən mikrob təması immun sisteminin tolerantlığının formalaşmasına və inkişafına təsir göstərə bilər.

Araşdırmada həmçinin bacı-qardaşlar arasındakı yaş fərqi azaldıqca kiçik uşaqlar üçün bu qoruyucu təsirin gücləndiyi müəyyən edilib. Bu nəticənin mikrobların birbaşa paylaşılması ehtimalını dəstəklədiyi bildirilir.

**Tədqiqatın nəticələri doğum sırasının insanın gələcək sağlamlığını təkbaşına müəyyən etdiyini göstərmir. Müəlliflər müşahidə olunan əlaqələrin müxtəlif bioloji və sosial amillərin təsiri ilə formalaşa biləcəyini vurğulayırlar.**

# Bu tərliklər ayağın formasını dəyişə bilər

**Barmaq arası tərliklər isti yay günlərində ən çox seçilən ayaqqabı modellərindən biridir. Rahat və yüngül olması səbəbindən geniş istifadə edilən bu tərliklərin ayaq sağlamlığına təsiri isə müzakirə mövzusudur.**

Adalet.az xəbər verir ki, İngiltərədə ayaq sağlamlığı üzrə mütəxəssis doktor Helen Branthwaite bildirib ki, barmaq arası tərliklərin uzun müddət istifadəsi ayaqlarda müəyyən problemlərə səbəb ola bilər. Mütəxəssisin sözlərinə görə, xüsusilə qış aylarında ayağı sıxan ayaqqabılardan istifadə etdikdən sonra birbaşa açıq tərliklərə keçmək ayaqların daha çox yüklənməsinə gətirib çıxara bilər. O qeyd edib ki, barmaq arası tərlik geyinərkən ayaq barmaqları həddindən artıq sıxılır. Bu isə sürtünmə və su toplamasına səbəb ola bilər.

Mütəxəssis həmçinin bildirib ki, bu tip tərliklər dabanı qorumaq və topuq oynağını dəstəkləmək baxımından kifayət qədər funksional deyil. Uzun müddətli istifadə zamanı ayağın yana doğru yayılması və formasının dəyişməsi də mümkündür.

Doktor Helen Branthwaite ayaqqabı seçərkən altlığın və istifadə olunan materialın xüsusiyyətlərinə diqqət yetirməyi tövsiyə edib. Onun sözlərinə görə, ayaqqabı çox asanlıqla iki yerə bükülürsə, onun ayağa kifayət qədər dəstək verib-vermədiyi nəzərə almaq lazımdır.

Mütəxəssis açıq ayaqqabı geyinən şəxslərə ayaqların dərisini mütəmadi yoxlamağı, hər gün nəmləndirici kremdən istifadə etməyi və ayaqqabı ölçüsünü vaxtaşırı yoxlatdırmağı məsləhət görüb.

Branthwaite vurğulayıb ki, ayağın ölçüsü zamanla dəyişə bilər. Buna görə də illər əvvəl geyinilən ayaqqabı ölçüsünün dəyişməz qalacağı düşünülməməlidir.

## Ceki Çan Azərbaycanla bağlı danışdı



**Macəra janrında çəkilən "Tanrının yaraqları: Ultimatum" filminin beynəlxalq yaradıcı heyəti Azərbaycanın paytaxtı Bakıda çəkilişlərin növbəti mərhələsinə başlayıb.**

Adalet.az xəbər verir ki, Bakıdakı çəkilişlərin başlanmasına ənənəvi qaydada xüsusi kino boşqabının sındırılması mərasimi ilə start verilib. Bu mərasim yeni çəkiliş mərhələsinin uğurlu başlanğıcının simvolu hesab olunur.

Filmin süjetinin mərkəzində "Asiya şahini"nin yeni missiyası dayanır. O, uğrunda 20 milyon dollardan çox mükafat elan edilmiş qədim Tumar artefaktını tapmalıdır.

Filmin çəkilişləri eyni vaxtda bir neçə dövlətin ərazisində aparılır. Layihə müxtəlif ölkələrdən olan aktyorları və kino mütəxəssislərini bir araya gətirən beynəlxalq komanda tərəfindən həyata keçirilir. Filmin istehsalı üçün ilk dəfə Qazaxıstan və Çinin kino komandaları bir araya gəliblər.

"Ultimatum" artıq kulta çevrilmiş "Tanrının yaraqları" franşizasının dördüncü filmidir. Baş rolu məşhur aktyor Ceki Çan ifa edir. Aktyor yenidən əfsanəvi macərapərəst "Asiya şahini" obrazını canlandırır.

Bakı filmin bədii konsepsiyasına uyğun olaraq çəkiliş məkanı seçilib. Süjetə görə, hekayənin yeni bölümü Xəzər dənizinin ətrafında cərəyan edir. Buna görə də çəkilişlərin növbəti mərhələsi Azərbaycanda keçirilir. Filmin bir sıra əsas səhnələri Bakıdakı müxtəlif məkanlarda lentə alınacaq.

Bu mərhələ Ceki Çan üçün də xüsusi əhəmiyyət daşıyır. Aktyor ilk dəfə Azərbaycanda filmə çəkilir.

"İndiyədək heç vaxt çəkilmədiyim ölkədə işləmək məni xüsusilə həyəcanlandırır", - deyə Ceki Çan bildirib.

Çəkiliş qrupunun Azərbaycana səfərinin və ölkə ərazisində çəkiliş prosesinin təşkilinə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA) dəstək göstərir.

Filmin istehsal prosesinə müxtəlif kino peşələri üzrə 100-dən çox yerli mütəxəssis cəlb olunub.

"Tanrının yaraqları: Ultimatum" filminin çəkilişləri 2026-cı ilin payızınadək davam edəcək. Filmin premyerasının 2027-ci ildə keçirilməsi planlaşdırılır.

## Ağcaqanadlar bu insanları daha çox sancır

**Ağcaqanadların bəzi insanları daha çox sancmasının səbəbi dəridəki bakteriyaların yaratdığı insana xas qoxu ola bilər.**

Adalet.az xəbər verir ki, bu barədə ABŞ-nin "iScience" jurnalında yeni araşdırma dərc olunub.

ABŞ-nin Mayami şəhərində 120 nəfər üzərində 3 fərqli ağcaqanad növü ilə aparılan təcrübə zamanı hər növün fərqli qoxu tərkiblərinə üstünlük verdiyi müəyyənləşib.

Tədqiqatçılar həmçinin insan bədənində 246 növ bakteriya aşkarlayıblar.

Nəticələrə görə, ağcaqanadları cəlb edən amillərdən biri də məhz bu bakteriyalardır.

Aqil Abbas
**Çingiz Əlioğlunun**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Nəbi Muxtarov
**Çingiz Əlioğlunun**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Aslan Mehdiyev
**Çingiz Əlioğlunun**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Umud Rəhimoğlu
**Çingiz Əlioğlunun**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə
**Çingiz Əlioğlunun**
vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**
**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
**Telefon: (012) 491-23-53**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 290**
Çapa imzalanmışdır: 13.08.2026